Sahib Əsədov



# SOVET AZƏRBAYCANINDA ATEİZM TƏBLİĞATI



Mədinə 2021

# SOVET AZƏRBAYCANINDA ATEİZM TƏBLİĞATI

*Müəllif: Sahib Əsədov*
*Elmi rəhbər: Dr. Əhməd Xələf*

**Mədinə 2021**

# Ön Söz

Möhtərəm oxucu![1] Əlinizdə olan bu "Sovet Azərbaycanında ateizm təbliğatı" kitabı Sovet imperiyası dönəmində Azərbaycan xalqının başına gətirilmiş bir çox müsibətlərdən yalnız biri haqqında geniş bir araşdırmadır! Bu kitab müəllifin Mədinə şəhərində "Azərbaycanda ateizmlə əlaqədar" yazdığı maqistr dissertasiyasının 1/3 hissəsinin tərcüməsidir. Kitabın orjinalı ərəb dilindədir. Həmin kitab 1918-ci ildən 2018-ci ilə kimi Azərbaycanda ateizm təbliğatı, dinsizliklə bağlı vəziyyəti araşdırmışdır. Bu oxuduğunuz kitab həmin kitabın yalnız "sovet dönəmi ateizm təbliğatına" aid hissəsinin tərcüməsidir.

Bu araşdırmanın əhəmiyyəti ən azından xalqımızın yetmiş illik bir kommunist təsirindən sonra ictimai, fikri və başqa sahələrdə yaranmış dəyişiklikləri düşündükdə aydın olur.

Araşdırmanın hədəfi də birinci və ikinci fəsillərdə qoyulan araşdırma mövzularından aydın olur. Təbii ki, birinci fəsildə "Azərbaycanda ateizmin tarixi" bir çox araşdırmaçılar üçün, eləcə də dindarlar və qeyri-dindarlar üçün mühüm bir mövzudur. Bu fəsildə Azərbaycan tarixində sovet dövründən öncəki ateizm təbliğatının olub-olmaması araşdırıldıqdan sonra Azərbaycanda Sovet dövrü ateizminin tarixi araşdırılır.

İkinci fəsildə isə "Azərbaycanda ateistlərin təbliğat vasitələri və metodikaları" mövzusu açılır və bu 1920-ci ildən 1991-ci ilə kimi olan tarixi əhatə edir.

*Yazdı: Sahib Əsədov* *Mədinə şəhəri: 2021/9/8*

---

[1] Bu kitabı dindar və dinsiz hər kəsin oxuma ehtimalı olduğundan dolayı, xüsusi dini yazılara hörmətsizlik edilməməsi üçün istər girişdə, istər də digər yerlərdə dini yazılar, ayələrin ərəbcəsi, açılış duası və s. yazılara yer verilməmişdir, yalnız kitabın orjinalında olan nəzərə çarpmayacaq qədər azsaylı yerlər saxlanılmışdır. Bu üslub indiyə kimi yazılmış kitablarımız içərisində yalnız bu kitabda istifadə edilmişdir.

# BİRİNCİ FƏSİL:

# AZƏRBAYCANDA ATEİZMİN TARİXİ

*Bu fəsil dörd araşdırma mövzusunu əhatə edir:*

**Birinci araşdırma:**
Azərbaycanda ateizmin yaranması və inkişafı

**İkinci araşdırma:**
Allahsızlar ittifaqının təsis edilməsi

**Üçüncü araşdırma:**
Ateizm şüarları və ateist vəsiqələri

**Dördüncü araşdırma:**
Ateizm təbliğatı siyasətinin yüngülləşdirilməsi.

# BİRİNCİ ARAŞDIRMA:

# AZƏRBAYCANDA ATEİZMİN YARANMASI VƏ İNKİŞAFI

*Bu araşdırma üç məsələni əhatə edir:*

**Birinci məsələ:**
Sovet ittifaqından əvvəl Azərbaycanda ateizm haqda.

**İkinci məsələ:**
Sovet dövründə ateizmin yaranması və möhkəmlənməsi

**Üçüncü məsələ:**
Ateizm təbliğatını dəstəkləyən bəzi şəxslərin bəyanı.

# BİRİNCİ MƏSƏLƏ: SOVET İTTİFAQINDAN ƏVVƏL AZƏRBAYCANDA ATEİZM HAQDA

Həqiqətən də Azərbaycanda ateizmin ərsəyə gəlməsi və inkişafı Azərbaycanın sovet bolşevik qüvvələri tərəfindən işğalından sonra başlamışdır. Məlumdur ki, Azərbaycanın işğalı ilə nəticələnən bolşevik inqilabının qurucuları[1] və dəstəkçiləri ateizm yönümlü kitablar da oxuyur və bütün dinlərə nifrət edirdilər. Ona görə də əgər desək ki, "Azərbaycanda ateizmin inkişafı, onun siyasi və ictimai təsirə malik bir qüvvəyə çevrilməsi məhz bolşevik qüvvələri tərəfindən ölkəmizin işğalı ilə başlamışdır" – doğru rəyə isabət etmiş olarıq; Çünki, bolşevik işğalçılarının ölkəmizə daxil olmasından və ərazidə möhkəmlənməsindən dərhal sonra artıq Azərbaycanda ateizm təbliğatı üçün ilk səylər başlamışdı. Lakin, insanlar dinlərinə bağlı olduqları üçün ateizm təbliğatı işinin başlanğıcı işğalçılara çox böyük çətinliklər yaşatmışdı. Həmin dövrdə ölkəmizdəki dindar kütlə arasında cəhalətin, xurafatların, mövhumatların geniş yayılması, islamdan olmayan əməllərin islama nisbət edilməsi, əsas dindar kəsimin özünə nümunə bildiyi bəzi din xadimlərinin dinə gəlir mənbəyi kimi baxması, insanların malını haqsızcasına yeməlləri və bir çox başqa amillər sonradan ateizm təbliğatında insanları dindən soyutmaq üçün məharətlə istifadə edilirdi. Bütün bu amillər İslam dininin həqiqi mahiyyətindən bixəbər olan bir çox insanların dindən uzaqlaşmasına və ateizmə rəğbət bəsləməsinə gətirib çıxarırdı. Yenə də bütün bu və digər amillər rus işğalı gəlmədən öncə insanların dinsizləşməsində əsas amillərdən birinə çevrilməmişdi.

Sual oluna bilər ki, görəsən sovet dövründən əvvəl Azərbaycanda ateizm fikirləri olubmu?

Qısa cavab odur ki tarixin çox nadir dönəmlərində ateizmə

---

[1] Sovet ittifaqının qurucusu olan Lenin də ateist Karl Marksın, Çarlz Darvinin kitablarını oxuyurdu. Bir müddət sonra artıq o nəinki həmin fikirlərə rəğbət bəsləyir, hətta həmin fikirlərin tarixdəki ən böyük təbliğatçısına çevrilmişdi.

meyilli, lakin mütləq şəkildə ateizmlə xarakterizə olunmayacaq bəzi dinə zidd fikirlər mövcud olmuşdur. Həmin fikir sahiblərinin həqiqi qəsdləri ateizm olmasa da sovet hökuməti bu nadir fikir sahiblərini də ateizmə calamaqdan çəkinməmişdilər.

Sovet hakimiyyətinin Azərbaycanda hökm sürdüyü dönəmlərdə bəzi kommunist tarixçilər elə bu cəhdlərə cürət edərək deyirdilər: "7-ci və 10-cu əsrlər arasında Azərbaycanda İslami əhkamlara etiraz və azad fikir tələbi ilə ateizm fikirləri yaranmışdı"[(1)].

Kommunist sovet mənbələri iddia edir ki, Azərbaycanda ateizmin kökləri qədimdir və bu tarixi Abbasi xilafəti zamanına nisbət edirlər. Deyirlər ki, bu dövrdə Abbasilər xilafətinə qarşı baş vermiş "Xürrəmilər[2] üsyanı" ( 817-837) ateist bir hərəkat idi. Aşardırmaçılar bu fikirlə sovet kitablarında tez-tez qarşılaşa bilərlər. Lakin, elmi həqiqət və incələmələr məzdəkilərin tanrı inancının olduğuna, onların ateist olması iddiasının batil olduğuna və onların üsyanlarının əsil mahiyyətinin ateizmdən başqa bir amil olduğuna dəlalət edir. Elmi araşdırmaların həqiqəti ortaya çıxarması ilə aydın olur ki, Babəkin rəhbərlik etdiyi xürrəmilər hərəkatı ateizmə deyil, "batini"[3] firqəsinə mənsub inancda idilər.

---

[1] "Ateizm, din və cəmiyyət" kitabı. Səh 72. Mövzu: Azərbaycanın ictimai fikir tarixində ateizmin yeri nədir? Müəlliflər: Maqsud Cəlilov, Mikayıl Məmmədov, Pənah Mahmudov. "Azərnəşr". 1985.

[2] **"Xürrəm" sözünün mənası:** Əbü-l-fərəc ibn əl-Cövzi "Nəqd-əl-elm və-l-üləma əu təlbisu iblis" adlı əsərdə yazır: "Hürrəmiyan" və "xürrəm" sözü yabançı sözdür. O, insanı cəzb edən ləzzətli və maraqlı şeylər haqqında işlədilir". Yaqut əl-Həməvi "Möcəm-əl-büldan" adlı əsərində "hürrəmi" sözünün mənasım bu cür qeyd edir. "Fars dilində bu sözün mənası "şadlıq" deməkdir. Bu ad altında Ərdəbildə bir kənd də var". (Bax: Məqalə: Babək hərkatının adı – "Xürrəm" nə deməkdir? Enter.news saytı).

[3] **Batinilər:** Onlar" şəriətin zahiri və batini mənalarının olduğunu" dedikləri üçün onlara "batinilər" deyilmişdir. Onların fikrincə guya onların ən xüsusi adamları dəlillərin batini mənalarına baxır, bu mənaları götürür, cahil və axmaqları isə zahiri mənalarla kifayətlənir, batini mənalara

Onlar mal-mülkə, qadınlara (evlilik olmadan) sahiblənmədə müştərək hüquqlar iddia edirdilər. Onların "bərabər hüqüq" inancları qədim və müasir fərqlilikləri nəzərə almasaq əslində onları kommunistlərlə birləşdirən bir amildir. Lakin, batinilik inancı özü ateizmlə qətiyyən eyniləşdirilə bilməz. Onlar kainatı yaradan Allaha inanırdılar. Sadəcə olaraq alimlər onların İslamın əsaslarına zidd bir çox batil inanclarına görə "zındıqlar" adlandırmış və onları bu vəsfə daha layiqli görmüşdülər. Bu "zındıq" kəlməsi İslami etimologiyada İslamdan kənar şəxsləri ehtiva etdiyi kimi, özünü İslama nisbət edib dini daxildən təhrif edən şəxslərə də şamil edilir. Bəzi araşdırmaçılar onların batil etiqadlarını elmi təsnifat baxımından ərəbcə "ilhad" kəlməsinin qarşılığı (müqabili) olan "ateizm" sözü ilə eyniləşdirsələr də, bu, əslində onların İslam dinində küfr hesab edilən etiqadlarına görə verilən bir vəsfdir. Bu məsələdən daha geniş danışmaq olar, lakin bu qədəri kifayət edər.

O cümlədən də "xürrəmilərin" tarixdə mövcudluğu sovet ateistlərini çox sevindirmiş, bu tarixi öyrənmiş və bu haqda yazdıqlarını yazmış, işlərinə yaradığı üçün öz kitablarında xürrəmiləri ən gözəl vəsflərlə vəsf etmişlər; Hətta, onlar xürrəmiləri Azərbaycan xalqının "şərəfli əcdadları" kimi qələmə verməyə çalışırdılar. Halbuki, tarixçilər belə əməlləri törədən bu quldur hərəkatını xalqımıza bu cür nisbət edilməsinin doğru, ədalətli bir iş olmadığını ortaya qoymalı, həmin dövrü sovet müstəmləkəsi təsirində araşdırmış və bu hərəkata öz istədikləri mahiyyəti vermiş kommunistlərin təbliğatını mütləq meyar hesab etməli deyil, əksinə, bu tarixi ədalətli şəkildə yenidən araşdırmalıdırlar. Əslində tarix kitablarında vəsfi verilmiş, evlilik olmadan bir-birinin qadınlarına sahiblənən bu güruha bir xalqın nisbət edilməsi o xalqın özü üçün bir təhqirdir.

Kommunistlər "Babək əl-Xürrəmi"ni ateizmlə vəsf etdikdən sonra onu Azərbaycan qəhrəmanı adlandırmaqla da əslində

---

baxmaqdan aciz qalırlar. (Fədaihul-Batiniyyə. Qəzali. səh. 12).

sovetin müstəmləkə siyasətini yerinə yetirirdilər. Beləcə, Azərbaycanı öz dini kimliyindən ayırıb kiçik bir güruhun fikirlərini böyük bir ərazidə yaşayan azərbaycanlıların vahid fikri kimi qələmə vermək istəyirdilər. Bütün bunlar kommunist-ateist maraqlarına xidmət edirdi.

Ümumiyətlə, sovet kommunist hökuməti Azərbayacan tarixində Allaha inanan, lakin İslam əhkamlarını anlamaqda, Quran və peyğəmbər hədislərinə münasibətdə fərqli görüşləri olan, bir qism İslam alimlərinin isabətli (doğruya müvafiq) görüşünə əsasən dini təhrif edən fikirlər səsləndirən şəxsləri ateist adlandırmaqla, onlara həqiqi adlarını verməməklə elmi əmanətə xəyanət etməklə yanaşı, qeyd edildiyi kimi sadəcə sovet məfkurəsinə xidmət etməyə çalışmışdılar.

• Sovet hökumətinin ateist kimi təqdim etdiyi tarixi şəxslərdən biri də **Bəhmənyar ibn Mərzban əl-azərbaycani**[1] (993-1066) olmuşdur. O, görkəmli həkim İbn Sinanın tələbəsi olmuşdur. Sovet dövründə azərbaycanlı filosof professor Əhməd Zəkiyev ibn mərzbanı ateist və İslam şəriətinin inkarçısı adlandırmış, özü də İbn Mərzbanın fikirlərini ateizmə əsasən yorumlamaq üçün "Bəhmənyar ibn Mərzban və onun fikirləri" haqda ayrıca təxminən doxsan səhifəlik bir kitab yazmış, həmin kitabda sovet ateizminə dəstək vermək üçün Bəhmənyar ibn Mərzbanın fikirlərininin öyrənilməsinin əhəmiyyətindən danışmışdı. Kitab M.F.Axundov adına "Milli Kitabxana"da mövcuddur.

Görünən odur ki, professor Əhməd Zəkiyev Bəhmənyar ibn Mərzbanın şəxsiyyətini ateist timsalında böyütmək istəyirdi.

---

[1] **Bəhmənyar ibn Mərzban əl-azərbaycani:** Künyəsi Əbül-Həsəndir.Ərəb mənbələrində İbnul-Mərzban kimi tanınır. İbn Sinanın tələbələrindən, dövrünün filosof və mütəfəkkirlərindən olmuşdur. Bəzi mənbələrdə onun əvvəllər Zərdüşt dininə inandığı, sonradan müsəlman olduğu qeyd olunmuşdur. Onun əsərləri ərəb dilində idi.Onun tələbələri də var idi. Zahirəddin əl-Beyhəqi və Əbül-Abbas əl-Lövkəri də onlardandır. (Elm və İnnovativ Texnologiyalar jurnalı, no: 7. Səh. 134-138. 2019).

Dövrün ictimai və siyasi durumu bir sıra elmə nisbət olunan adamların belə addımlar atmaqla irəliləmək səylərinə də gətirib çıxarırdı. Bu gerçəkliyi Müstəqil Ağayev hələ 2008-ci ildə nəşr edilən " XX əsr Azərbaycan ictimai və fəlsəfi fikrində din problemi" adlı əsərində də elə kitabın əvvəlində vurğulamışdı.

Əslində isə İbn Mərzban və ona bənzər fikirli bir çox tarixi şəxslərin qəsdi Allahın inkarı və ya ateizm olmamışdır. Bəzi mənbələrdə Bəhmənyar ibn Mərzbanın fəlsəfi görüşləri qeyd olunmuşdur; o Allahın varlığına və ya kainatda ilkin yaradılışı ortaya çıxaran qüvvəyə inanırdı. Uzunçuluq etmədən demək olar ki, onun görüşləri öz müəllimi ibn Sinanın görüşlərinə çox yaxın idi. Dövrünün islam alimləri onu da zındıqlıqla vəsf etmişlər. "Zındıqlıq" məfhumu və ya termini bəzən dinin təhrifi və ateizmlə uzlaşdığı kimi, bəzən də ateizmdən fərqli məna verir. Lakin, kommunist tədqiqatçıların sovet dövründə ibn Mərzban və ona bənzər dinə qarşı fərqli mövqe sərgiləyən şəxsləri ateist adlandırmaları çox da qəribə və ya təsadüfi deyil.

- **İmadəddin Nəsimi**[1] (1369-1417); o isə "haqq mənəm"

---

[1] **Seyyid Əli ibn Seyyid Muhəmməd İmadəddin Nəsimi.** Azərbaycanlı şair və mütəfəkkir. İmadəddin Nəsimi olaraq tanınmışdır. Adı ərəb dilində "Nəsimüd-Din" kimi tanınır. 1369-cu ildə Azərbaycanın Şamaxı şəhərində doğulmuşdur. İlk təhsilini şamaxı Şəhərində almış, dövrün elmlərini öyrənmişdi. Dinlər tarixi, məntiq, riyaziyyat və astronomiyanı öyrənmişdi. Mənbələrdə onun gəncliyi haqda çox bilgi verilmir. O, çox təsirli və bəlağətli şeirlər yazırdı. Nəsimi öz şeirlərini azərbaycan, fars və ərəb dillərində eyni gücdə və bəlağətdə yaza bilirdi. O, bəzi elmləri öyrəndikdən sonra "Vəhdətül-Vücud" etiqadında olan ifratçı sufi şeyxi olan Fəzlullah Nəimini ziyarət edir, onun yanında qalır, ona bağlanır və ondan çox təsirlənir. Onun şeyxi olan Fəzlullah Nəimi "Hürufi" sufi təriqətinin lideri idi. O, insana qiymət verməkdə həddi aşmış, hətta bu məsələdə ilhad dərəcəsinə çatmışdı. Onun sufiliyin hürufilik təriqətinə dəvət etməsi xəbəri dövrün alimləri arasında yayıldı, sonra onu kafir elan etdilər və o öldürüldü. O, özündən əvvəl edam edilmiş ifratçı sufi lider Həllacı-Mənsurun yaydığı fikirləri yayırdı. (Ətraflı bax: İmadəddin Nəsiminin həyatı və əsərləri, səh 1-2. İxtisarla. Azərbaycanın Mərkəzi

şüarını səsləndirən, "vəhdətil-vücud" fikirlərini dəstəkləyən hürufilik təriqətinə inanırdı. Onun fikirləri fəlsəfi idi. O iddia edirdi ki, "hər bir yaradılmış yaradandır. İnsan isə ilahi surəti özündə təcəssüm etdirən ən ali varlıqdır". İslam dininə görə bu etiqad İslama zidd, küfr etiqad olsa da ateistlərin qəsd etdiyi "müasir ateizmlə" mütləq şəkildə uyğunlaşmır. Buna baxmayaraq sovet dövründə İmadəddin Nəsimi və onun ateist olması mövzusu haqda geniş mübahisələr yaşanmışdı. Sovet hökuməti Nəsimini digər azərbaycanlı şairlərdən çox önə çəkir və onun təbliğatını aparırdı.

Azərbaycanın görkəmli alimi, məşhur tarixçi Ziya Bünyadov İmadəddin Nəsimi haqda məqaləsində İbn Həcər əl-Əsqalaniyə isnadən yazırdı: "Bu ildə, hicri tarixin 820-ci ilində Hələbdə yaşayan şeyx Nəsimid-din ət-Təbrizi qətlə yetirildi. O, Hələbdəki hürufi məzhəbinin şeyxi idi. Orada o məşhurlaşmış və onun tərəfdarları çoxalmışdı. Onun küfrü və xəbəri yayılmışdı. Sultan Müəyyəd onun qətlinə fərman verincəyə kimi hürufilikdə (məzhəbdə) Nəsiminin rəyini götürürdülər. Onun boynu vuruldu, dərisi soyuldu və cəsədi asıldı"[1].

"İləmun-Nubəla bi-tarixi Hələb əş-Şəhbə" kitabının müəllifi Muhəmməd Rağib ət-Tabbax əl-Hələbi Nəsiminin qətli barədə bir qədər geniş danışır və orada bunu da deyir: "O, kafir və mülhid idi"[2]. "mülhid" sözü ərəb dilində الميل عن القصد "hədəfdən sapmaq" (İbn Mənzura görə) mənasını verir. Orta əsirlərdə dini təhrif edənlər, dinin əsaslarına müxalif danışnlara da "mülhid" deyirdilərsə, müasir dövrdə ərəb dilində ateistlərə "mülhid" deyirlər. Sözün kökü olan "ilhad" sözü təkcə Allahın adlarını inkar edənlərə də Qurani-Kərimdə edilmiş bir xitabdır[3]. Tarixdə Nəsimi

kitabxanası. www.anl.az keçid: www.anl.az/el/emb/inesimi.pdf).

[1] "Azərbaycan Şərqşünaslığı" jurnalı, Ziya Bünyadov.no: 1. 2009.

[2] "İləmun-Nubəla bi-tarixi Hələb əş-Şəhbə", Muhəmməd Rağib ət-Tabbax əl-Hələbi, 3-cü cild, səh. 15. Hələb. 1925.

[3] Bax: Əraf surəsi, 180-cı ayə: "Ən gözəl adlar Allahındır. Ona bu adlar vasitəsilə dua edin və Onun adları barəsində haqdan sapanları tərk edin".

kimi "vəhdətul-vücud" etiqadında olan bir çox sufi təriqət nümayəndələrinə də bu "mülhid" kəlməsi nisbət edilmişdir. Baxmayaraq ki, onlar Allaha ibadət edən müsəlmanlar olublar. Lakin, dedikləri sözlərin, etiqadların İslamın təməllərinə tərs düşməsi, haqdan sapması onlar haqqında bu sözün istifadəsi ilə nəticələnmişdir.

Ola bilsin ki, hürufi təriqətinin şairi Nəsiminin də "vəhdətül-vücud" inancında olması, üstəlik də onun faciəli qətli və bəzi alimlərin onu "mülhid" adlandırması onu ateistlərin gözündə yüksəltmişdir. Dövrünün bəzi alimləri də onu "zındıq" adlandırmışlar. Çünki, onlara görə Nəsimi daxilində küfrü gizlədir, zahirdə isə özünü müsəlman kimi göstərirdi.

- Ateizmə nisbət olunan şəxslərdən biri də **Əfzələddin Xəqanidir** (1126-1199). Lakin, araşdırma zamanı aydın olur ki, o nə Allahı, nə də peyğəmbəri inkar etməmişdir, əksinə, müsəlman olmuşdur. Ola bilsin ki, onun bəzi fəlsəfi fikirlərinə görə ateistlər onun ateist fikirlərinin olduğunu iddia etmişdilər.

Sovet kommunist rejimi zamanında tarixi şəxsiyyətlərin ədalətsizcəsinə ateizmə nisbət edilməsi çox asan bir hal idi, kiçik bir oxşarlıq izhar edən və ya xurafatçı dindarların tənqidini edən şəxsiyyətləri ateizmə nisbət etmək elə də çətin bir iş deyildi.

Xəqani Şirvaninin "Töhfətul-İraqeyn" əsərini oxuyanlar onun imanlı bir şəxsiyyət olduğunun şahidi ola bilərlər:

Bu Allahsızların qulluğundan qaç!
Haqqın qapısını ehtiramla aç!
Şər dolu qapıdan uzaqlaş daha,
Xaqani, get sığın o bir Allaha![1]

---

[1] Milli kitabxana. Xaqani Şirvaninin Seçilmiş əsərləri. "Töhfətül-İraqeyn" əsəri. Genderi.org 15-ci yazı.

Xəqani Şirvaninin həyatını oxuyan görər ki, o Məkkə şəhərinə getmiş və həcc ziyarətini etmişdir. O, "Töhfətül-İraqeyn" əsərində (şəkk mədrəsəsinin təməli olan) yunan fəlsəfəsini şiddətlə tənqid edir, Quranı və hədisləri isə tərifləyir:

Əvvəl din barədə söhbət açıb sən,
Sonra can qədimdir dindən deyirsən.
De, nə vaxta qədər sən yorulmadan,
Çürük fəlsəfədən dəm vuracaqsan?
Əslinə baxanda "fəlsəfə" sözü,
Lap "səfeh" sözünə bənzəyir, düzü.
Ayrı bir mənası olmamış dərin,
Quranın, danılmaz bu hədislərin.
Önündə, məlum ki, anlayır hər kəs,
Yunan fəlsəfəsi bir çöpə dəyməz.
Vaz keç bu söhbətdən, heç bənd olma, sən!
Bir fülus yaxşıdır min fəlsəfədən.
Canını, gəl, dinə sən tapşır ancaq,
Səni şübhələrdən o qurtaracaq[1].

Bəzən isə o öz şair təbiətinə uyğun olaraq öz beytlərində günəşə xitab edir, günəşi tərifləyir və onu mübaliğəli sözlərlə vəsf edir. Gah da o axan çaya xitab edir və onu tərifləyir, gah da İraqın daxilində və xaricində olan bəzi şəhərləri xatırlayır, həmin şəhərləri mübaliğəli şəkildə tərifləyir, gah da məcusiləri tənqid edir və onları olduqca aşağılayır.

O, "Töhfətül-İraqeyn" əsərində bir çox beytlərdə peyğəmbərlərdən, Kəbədən, peyğəmbərə tabeçilikdən bir çox beytlərdə danışır, Məkkə və Mədinə şəhərlərini tərifləyir, zəmzəm suyunu vəsf edir, onun fəzilətini qeyd edir, bir çox beytlərdə də peyğəmbəri tərifləyir.

---

[1] Milli kitabxana. Xaqani Şirvaninin Seçilmiş əsərləri. "Töhfətül-İraqeyn" əsəri. Genderi.org 14-cü yazı.

Maraqlısı budur ki, həmin kommunist ateistləri tez-tez "Töhfətül-İraqeyn" əsərinə işarət edir, bu əsəri sanki ateizm üçün yazılıbmış kimi tərifləyirdilər. Bu əsəri oxuyan əqidəli müsəlman ola bilsin ki bəzi etiqadi xətalarla üzləşə bilər. Lakin bu şairin zamanında olan etiqadi savadsızlıq və özünün tövhid elmindən bilməməzliyinə qayıda bilər. Eyni zamanda da bu əsərdə İslam dini haqda olan çoxlu aydın və gözəl sözlər onun imanında sadiq, doğru olduğuna heç bir şübhə yeri qoymur. Ona görə də şair Əfzələddin Xəqaniyə ateist kimi yanaşmaq qətiyyən doğru deyildir.

• Sovet dönəmində ateizmə nisbət edilənlərdən biri də şair və filosof **Mahmud Şəbüstəridir** (1287-1320). "O "vəhdətül-vücud" etiqadına inanırdı. Onun fikirləri də İmadəddin Nəsiminin fikirlərinə bənzəyirdi. O Allahı təbiətlə təkləşdirirdi. O etiqad edirdi ki, təbiət mütləq varlıqdır və yaxud da o Allahın əks olunduğu bir güzgüdür. Mahmud Şəbüstəri insan və təbiət cismlərini bax bu cür ilahiləşdirirdi. Bunun müqabilində isə o Allaha məxsus olan ilahi sifətləri tərk edir və ilah vəsfini məxluqlara vermiş olurdu"[1]. O, bu fikirləri nə Allahı inkar etdiyi üçün, nə də müasir ateizmin "Allahı inkar etmək" mənasında deyil, İslama görə küfr hesab olunan "vəhdətül-vücud" ifratçı sufi etiqadına əsasən deyirdi. Baxmayaraq ki, keçmiş alimlər bu etiqadı "Allahı inkar etmək" mənasında ilhad (haqdan sapmaq) hesab etməmiş, sadəcə dindən zəruri olaraq bilinməsi vacib olan inancı inkar etmək qəbilindən küfr və ilhad hesab etmişdilər. Bu qeydləri etməyimiz sadəcə elmi izah baxımındandır, heç bir vəchlə İslama qarşı olan sözlərin müdafiəsi kimi anlaşlması doğru deyil. Əslində bu etiqad "haqdan sapmaq" olduğu üçün "m=üasir ateizm" mənasını verməsə də, İslamda küfr hökmünü ehtiva etdiyi üçün qədim alimləri bu etiqada qarşı şiddətdə ittiham etmək

---

[1] "Ateizm, din və cəmiyyət" kitabı. Səh 74. Mövzu: Azərbaycanın ictimai fikir tarixində ateizmin yeri nədir? Azərnəşr. 1985. Müəlliflər: Maqsud Fərhad oğlu Cəlilov, Mikayıl Cavid oğlu Məmmədov, Pənah Hüseyn oğlu Mahmudov.

əvəzinə, yaxşı olardı ki, Muhəmməd peyğəmbərin xalis təlimi öyrənilsin, sonra "vəhdətül-vücud"un müsəlmanların etiqadından olmayan, dində sonradan ortaya çıxarlmış və Allahın uca adlarına zidd olan pis bir etiqad olduğu anlaşılsın!

• İndi haqqında danışacağımız şəxs isə sovet dövründən əvvəlki XIX əsrdə yaşamış, həqiqətən də ateist olmuş bir şəxsdir. O, **Mirzə Fətəli Axundovdur** (1812-1878); M.F.Axundov maarifçi, yazıçı-dramaturq, şair və filosof idi. O, Avropa mədəniyyətinə vurğun bir şəxs idi. O Azərbaycanın sovet kommunist imperiyasına qoşulmasından 42 il əvvəl vəfat etmişdi. M.F.Axundov özünün ateist olmasını gizlətməmişdi və bunu yazılarında açıq ifadə etmişdi. O, Allahı, cənnət və cəhənnəmi inkar etmişdi. O öz əsərlərində hətta cənnət və cəhənnəm ilə istehza da etmişdi. O, əvvəllər din adı altında insanları xurafatlarla aldadan mollaları tənqid edirdi. O, cəmiyyətin inkişafdan geri qalmasının əsas səbəbini yalançı din xadimlərində görürdü. Zaman keçdikcə onun din adı altında fəaliyyət göstərənlərə olan nifrəti İslam dininə qarşı yönəlməyə başladı. Sonra isə o açıq-aydın İslam dinini və onun əhkamlarını tənqid etməyə başladı. İslamdan olmayan əməlləri də xurafatçı dindarların simasında İslami olaraq hesab etdiyi üçün əslində elə o xurafatlar onun dinə qarşı münasibətinin dəyişməsinə səbəb olmuşdu. O, özünün "Kamalüd-Dövlə" məktublarında Allahı inkar edir, Allahın ədalətini və qullarına nəzarət etməsini, Allahın hər şeyə qadir olmasını, mələkləri və qeyb aləminə aid bir çox xəbərləri inkar edirdi[1].

Beləliklə, demək olar ki, **Azərbaycanda ateist fikirlərini Allahın, dinin inkarı formasında ilk dəfə olaraq ifadə edən şəxs XIX əsrdə yaşamış Mirzə Fətəli Axundov olmuşdur.** Bunu bir çox tədqiqatçılar da təsdiqləyirlər. Axundovun özündən

[1] Daha ətraflı baxmaq üçün: " XX əsr Azərbaycan ictimai və fəlsəfi fikrində din problemi", Müstəqil Ağayev, səh. 50-51. 2008-ci il. "Nurlan" nəşriyatı.

sonra gələn bəzi yazıçı, şair və ədəbiyyatçıların ateist fikirlərindən təsirlənməsində böyük təsiri olmuşdur. Təəssüflər olsun ki o, özündən sonrakı nəsil üçün bu məsələdə pis bir örnək olmuşdur. Halbuki, Azərbaycanın bir çox şəxsiyyətləri Allahı və İslamı inkar etmədən xurfatçı insanları tənqid etmişdilər. Lakin, Axundov başqa bir yolu seçməyi üstün görmüşdü. M.F.Axundova qədər Azərbaycanda özünün ateist olduğunu bu qədər açıq ifadə edən ikinci bir şəxs məlum deyil. Onun bu fikirləri də özlüyündə Axundovun qərb dünyasından təsirlənməsi ilə baş vermişdi.

- Sovet dövründə mütləq şəkildə olmasa da kommunistlər tərəfindən ateizmə nisbət olunan şəxslərdən biri də **Həsən bəy Zərdabi**[1] (1842-1907) olmuşdur. O təbiət elmi üzrə ixtisaslaşmışdı. Sovet dövründə nəşr olunan (1956) "Dinə qarşı mübarizədə elmin rolu" adlı kitabda onun haqqında belə qeyd olunmuşdu: "O, təbiət elmi üzrə məşhur alim idi və Darvinin "Təkamül" nəzəriyyəsini təbliğ edən ilk məşhur idi, həm müəllim idi, həm də qəzet nəşr edirdi"[2]. Biz bu mənbədən qeyd olunan nəqli etsək də, Həsən bəy Zərdabinin "Təkamül" nəzəriyyəsini təbliğ etməsi haqda bir məlumat əldə edə bilmədik. Lakin, fərz etsək ki o bu nəzəriyyəyə inanıb və ya bu nəzəriyyəni təbliğ edib, o zaman bu, onun atesit olması anlamına gəlməz. Onun haqqında bilinən onun müsəlman olmasıdır. Hətta, onun Moskvada universitetdə təhsil aldığı zaman baş vermiş bir hadisə rəvayət olunur ki, o universitetdə oxuduğu dönəmlərdə bir xristian qıza aşiq olur, lakin o müsəlman olduğu üçün xristian bir qızla

---

[1] **Həsən bəy Zərdabi:** Onun XIX əsrdə öz xalqının təlim və tədrisi prossesində böyük xidmətləri olmuşdur. O, Azərbaycanda ilk qəzetin banisidir. "Əkinçi" qəzeti 1875-ci il 22 iyul tarixində onun tərəfindən nəşr edilmişdir. Həm də bu tarix Azərbaycan mətbuatının əsasının qoyulduğu tarix hesab olunur.

[2] Zərdab rayonunun rəsmi saytında verilən məlumatlara əsasən Zərdabinin ateist olmadığı qənaətinə gəlmək mümkündür. Yaşadığı dövrdə baş verən sürətli elmi-texniki tərəqqi zamanında o sadəcə müsəlmanları içində olduqları gerilikdən qurtarmaq istəyən bir ziyalı idi. Məqaləyə keçid: www.zerdab.com/567890`12334=-y/?p=26936

evlənməyi özünə ayıb bilərək o qızı unudur və öz ölkəsinə qayıdır[1].

Həsən bəy Zərdabinin ateizmə nisbət edilməsi haqqında iddia yalnız onun "Təkamül" nəzəriyyəsini təbliğ etməsi iddiası, dünyəvi elmlərə rəğbəti və onun dünyəvi məktəblərin yayılmasındakı səyləri ilə əlaqələndirilmişdir. Bunlar isə onun İslam inancında olmasına maneə deyildir. Çünki, onun İslami elmlərə qarşı olduğunu da iddia edə bilmərik. O, müsəlman övladlarının geridə qalmasından ehtiyatlanaraq onların dünyəvi elmlərə yiyələnmələrini çox mühüm hesab edirdi. Araşdırmalar da bunu göstərir ki, XIX əsrdə Azərbaycandakı savadlı müsəlmanların dünyəvi elmlərə, elmi və təlimi yaymağa böyük həvəsləri olmuşdur. Az qala o dövrdə yaşayan elə savadlı, dünyagörüşlü adam tapmazsan ki, onlar yalançı din xadimlərini tənqid etməsinlər. Kommunistlər elə həmin dövrdə baş verən bəzi xurafat əməllərdən, xurafat dini ayinlərdən məharətlə din əleyhinə, xüsusən də İslam əleyhinə istifadə edirdilər. İslamın özünü deyil, sadəcə din adına edilən xurafatları tənqid edən neçə ziyalı şəxslər sovet dövründə ateizmə nisbət olunmuşdur. Onlar bilməmişlər ki, həqiqi İslamın özü elə daima din adına edilən xurafat və mövhumatlara qarşı mübarizənin carçısıdır.

• **Yusif Vəzir Çəmənzəminli** (1887-1943) Sovet imperiyası dövründən əvvəl və sovet dövründə yaşamış ateistlərdən biridir. (1887-1943). O, yuxarıda haqqında danışdığımız M.F.Axundovun fikirlərindən təsirlənmişdir. O, Azərbaycanın 1918-ci ildə Çar Rusiyasının müstəmləkəçiliyindən qurtulmasından sonra müstəqil Azərbaycan cümhuriyyətinin Türkiyədə olan ilk səfiri olmuşdur. Həmçinin o ədəbiyyatçı idi. O, 1912-ci ildə yazdığı "Cavan" adlı yazılarından birində Allahın varlığı haqqında suallar verir, Allah

---

[1] Əslində isə İslam şəriətində müsəlman bir kişinin kitab əhlindən (yəhudi və ya xristian) olan qızla evlənməsində bir problem yoxdur. Xülasə, onlardan qız alınır, amma onlara qız verilmir. əl-Maidə surəsi. 5.

haqda şəkk-şübhədə olduğunu bildirir və Uca Allah haqda insanları da şəkkə salırdı[1].

*Azərbaycanda Sovet imperiyasından əvvəl ateizmə nisbət edilən şəxslərdən bəzilərinin adları və onlar haqqında fikirlər araşdırmaçının şəxsi fikirləri və gəldiyi qənaətlərdir*. Bu qənaətlər sovet dövründə yazılmış onlarla ateist kitablarına və digər kitablara müraciət etməklə meydana çıxmışdır. Araşdırmaçı bura kimi bacardığı sayda sovet dövründən əvvəl ateizmə nisbət olunmuş ən məşhur şəxsləri qeyd etməyə səy göstərmişdir. İstər bu nisbət edilmə həqiqi olsun, istər də həqiqəti özündə əks etdirməsin. Qarşıdakı bəhsdə sovet dönəmində olan ateizmə nisbət olunanlar haqda da eyni metod izlənmiş, yalançı dindarları tənqid edən, İslama qarşı olmayan bir çox şair, yazıçı və s. şəxsləri qeyd edilməmişdir. O kəslər ki, İslamı deyil, dini təhrif edən, dindən istifadə edən şəxsləri tənqid hədəfinə almışdılar. Buna baxmayaraq, sovet dönəmində onların şeirləri və əsərləri başqa məqsədlərlə təbliğ edilmişdir. Onlardan bir çoxunun guya "Allahsız" olduğu iddia edilsə də, onlar bu fikirlərdən uzaq olmuşlar. Qarşıdakı mövzularda kommunistlərin tərəfini saxlayan, təəssüflər olsun ki, hətta ateist olan bəzi dövrün ziyalısı kimi tanınmış şəxslər haqqında da məlumat veriləcəkdir.

[1] " XX əsr Azərbaycan ictimai və fəlsəfi fikrində din problemi", Müstəqil Ağayev. Y.V.Çəmənzəminlinin Allaha şəkk etməsi (inkarı) haqda bax: səh. 51-52. 2008-ci il. "Nurlan" nəşriyatı.

# İKİNCİ MƏSƏLƏ: AZƏRBAYCANDA SOVET İTTİFAQI DÖNƏMİNDƏ ATEİZMİN MEYDANA GƏLMƏSİ VƏ MÖHKƏMLƏNMƏSİ

Sovet ittifaqından öncə Azərbaycanda ateizmin təsir gücü və yayılması yox idi. Lakin bu, həmin dövrdə qərb mədəniyyəti və düşüncəsindən mənfi mənada təsirlənən – barmaq sayı ilə sayıla bilinəcək qədər az insanın – mövcud olmasına da zidd deyil. Araşdırma zamanı araşdırmaçıya Azərbaycanın Rusiya tərəfindən işğalından öncə (1920) Azərbaycanda ateizmin sezilən, aydın bir təsiri və ya düşüncə varlığı görünməmişdir. Lakin işğaldan sonra bu batil fikirlərin yayılması prossesi başlamışdır. Məlum olduğu kimi kommunist hökuməti ateist fikirlərini rəsmi şəkildə dəstəkləyirdi. Həmin zülmət dövründə bu amilin ateizmin yayılmasında güclü bir təsiri olmuşdur. *Ona görə də sovet mərhələsi ateizmə verilən bu rəsmi dəstəklə Azərbaycanda ateizmin qüvvətlənməsi və yayılması mərhələsi hesab olunur.* İndi isə kommunistlərin Azərbaycanda hakimiyyəti ələ keçirtdikdən sonra öz hökumət gücləri vasitəsilə ateizmin ölkədə möhkəmlənməsi üçün bu rəsmi güc fürsətindən necə istifadə etdiklərini bəyan etməyə çalışacaq və bu batil çağırışları gerçəkləşdirmək yolunda verdikləri əsas qərarların xülasəsini qeyd edəcəyik:

**Birincisi: Azərbaycanda bütün məscidlərin bağlanması;** Həqiqətən də ölkəmizin kommunistlər tərəfindən işğalından sonra sovet ittifaqının siyasəti kommunist qanunların məcburi şəkildə gerçəkləşdirilməsi və dinə qarşı çoxsaylı yollarla müharibə edən bütün kommunist-ateist, maddiyatçı tələblərinin tətbiqi ilə başladı. Bu siyasətin tərkib hissəsindən idi ki, Azərbaycan xalqına dini cəhətdən və onun dini azadlığına təzyiqlər edilsin. Beləliklə, Azərbaycan vətəndaşları bir çox basqılara və təziqlərə məruz qaldılar. Mənbələrdə qeyd olunur ki, sovet işğalı ərəfəsində Azərbaycanda 2000-ə yaxın məscid var idi. Həmin məscidlərin

böyük əksəriyyəti 20-ci əsrin 30-cu illərində artıq bağlanmışdı[1]. İkinci dünya müharibəsi ərəfəsində dindarların rəğbətini qazanmaq, fikirləri sakitləşdirmək məqsədilə bəzi məscidlərin açılmasına icazə verilsə də, müharibədən sonra eyni siyasətə davam edilərək məscidlər bağlandı. Məscidlərin açılması isə dini söhbətlər üçün deyil, müharibə dövründə kütlə arasında sovet siyasətini dəstəkləmək üçün idi.

Mənbələrdə qeyd olunur ki, 80-ci illərdə Bakının beş böyük məscidindən yalnız ikisinin açılmasına icazə verilmişdi. Azərbaycanın bütün bölgələrində isə (yüzlərlə məsciddən) yalnız 15-inin fəaliyyətinə icazə verilmişdi. Bu amil, bir çox insanların evlərində gizli şəkildə öz dini ayinlərini və ibadətlərini etmələrinə səbəb olmuşdu[2].

**İkincisi: Bütün məktəblərdə İslami fənlərin qadağan olunması;** 1920-ci ilin 28 aprelində rus kommunist ordusu Azərbaycanı işğal etdi. Bu hadisədən yarım ay keçmədi ki, may ayının 15-də bütün Azərbaycan ərazisində İslami fənlərin tədris olunmasını qadağan edən "Vicdan azadlığı" haqda qərar qəbul edildi. Bu qərar kommunist işğalından sonra İslam əleyhinə çıxarılan ilk qərar idi. Bu qərar özündə: "Dövlət məktəblərində və xüsusi məktəblərdə hər hansısa bir dini ayinlərin icra edilməsi və

---

[1] **Qeyd olunur ki:** "(Həmin dövrdə ) Azərbaycan əhalisinin əksəriyyəti İslam dininə inanırdı və onları digər müsəlman ölkələri ilə tarixi və mədəni əlaqələr bağlayırdı. Azərbaycan xalqını və başqa müsəlman ölkələrini Azərbaycanda hicri tarixin 1-ci əsrindən yayılmış hənif İslam dini bağlayırdı. Azərbayacan xalqı orta əsrlərdə İslam mədəniyyətinə böyük töhfələr vermişdir. Lakin Azərbaycanın məruz qaldığı bəzi zəruri şərtlərə və amillərə görə Azərbayacan uzun müddət İslam aləmindən təcrid olmuşdur. Lakin müstəqillik əldə etdikdən sonra Azərbaycan öz tarixi köklərini qaytarmağa və İslami çevrəsinə dönməyə cəhdlər etmişdir. (Azərbaycan haqqında yazılmış ərəbcə kitab. Kitabın adı: أذربيجان ومئوية التأسيس (2018-1918) Azərbaycan və onun qurulmasının 100 illiyi, dr. Emil Rəhimov. Səh. 41. Bakı. "Şərq-Qərb" nəşriyatı).

[2] Eyni mənbə, səh. 41.

ya dini təhsilin keçirilməsi mütləq şəkildə qadağan edilsin"[1]. Bu qərar Azərbaycanda din adamlarına çox güclü ideoloji və siyasi zərbə oldu, bununla da İslama nisbət olunan din xadimlərinin heybəti silkələnmişdi.

**Üçüncüsü: Azərbaycanda "Elmi ateizm" maddəsinin yayılması;** Sovet ittifaqı ərazisində "Elmi ateizm" fənninə geniş diqqət hələ 20-ci əsrin 50-ci illərindən başlamışdı. Sonra bu fənnin daha geniş miqyasda yayılmasına qərar verdilər. Çünki, onlar belə hesab edirdilər ki, hər dəfə müasir elmi tərəqqi inkişaf etdikcə guya dinə olan ehtiyac daha da azalacaqdır. Lakin müşahidə olunan reallıq bu xəyalın batil olduğunu göstərdi. Eyni zamanda da kommunistlər "Elmi ateizm" adlandırdıqları maddəni kommunistlər üçün çox mühüm bir ideoloji məsələ hesab edirdilər. Ona görə də "Mərkəzi Sovet idarəsi" 1954-cü ilin 7 iyul tarixində, eyni ilin 10 noyabr tarixində və 1960-cı ilin 15 fevral tarixində "Elmi ateizm" təbliğatının gücləndirilməsi üçün xüsusi qərarlar qəbul etmişdi.

"Elmi ateizm"in təbliği sovet dövrünün əvvəlində var idi. Kommunustlər "elmi-ateizm" bilgisini əsasən universitetlərdə, kitabxanalarda, hökumət idarələrində və digər yerlərdə yayırdılar. Ölkənin müxtəlif yerlərində kommunist ateizminin təbliği üçün keçirilən mühazirələrdə təbliğatçılar kommunist ateizmini insanlara elm pərdəsi altında öyrədirdilər. Elmi ateizm təbliğatını yaymaq üçün bəzi kitablar da yazılmışdı, bunlardan bəzilərini qeyd edək;

1 – "İşçi ateistlər dərnəyi üçün dərslik" kitabı, "Mübariz Azərbaycan ateistləri ittifaqı". 1929.

2 – Kütləvi kitabxanalarda bədii ədəbiyyat vasitəsilə elmi-ateizm təbliğinin formaları, Qulu Məmmədov. 1937.

---

[1] "Ateist tərbiyəsinə (kommunist) partiya rəhbərliyi, Müstəcəb Muradov, səh. 9-10. Bakı. 1985-ci il. Eyni zamanda baxmaq üçün: " XX əsr Azərbaycan ictimai və fəlsəfi fikrində din problemi", Müstəqil Ağayev. 2008-ci il. Orada bu əlavə də qeyd olunmuşdu: "Dini işlərlə məşğul olan nazirlik də ləğv edilsin". səh. 103.

3 – Şagirdlərdə ateist düşüncə və əqidənin formalaşmasında biologiya elmlərinin rolu. Həsən Novruzov. 1973.

4 – Elmi ateizmin bəzi məsələləri haqda mühazirələr və dialoqlar üçün geniş planlar. Sovet Azərbaycanında elmi və siyasi məlumatları yayan cəmiyyət. 1962.

5 – Elmi ateizmin təbliği haqqında. Məhəbbət Nəcəfov. 1980.

6 - Elmi-texniki inqilabın dinin aradan qaldırılmasında rolu. Maqsud Cəlilov. 1985.

***Dördüncüsü: Azərbaycanda ateizmin yayılmasını gücləndirmək və ateizmə dəstək üçün bəzi rəsmi qərarlar və görüşlər;***

• 1921-ci ilin avqust ayında "mümkün olduqda insanlar arasında ateizmin geniş şəkildə təbliğatı" haqda mərkəzi kommunist partiyasının rəsmi qərarının verilməsi.

• 1922-ci ildə mərkəzi kommunist partiyasının paytaxtın mərkəzi küçələrində dini məqsədlər üçün toplaşmağın qadağan edilməsi haqqında qərarı[1].

• 1923-cü ilin 24 fevral tarixində kommunist partiyası Azərbaycanda dinə qarşı propoqandanı gücləndirməyi tələb etmək üçün xüsusi qərar qəbul edir və "Zaqafqaziyada[2] yerləşən kommunist cəmiyyətlərin ikinci konfransında" dinə qarşı propoqandaya xüsusi diqqət ayrılmasının əhəmiyyəti vurğulanır[3].

• 1924-cü ildə kommunist partiyasının tabeliyindəki mərkəzi idarənin siyasi şöbəsi tərəfindən Azərbaycanda dinə qarşı komissiya yaradıldı. Həmçinin, həmin komissiya tərəfindən şəhər

---

[1] XX əsr Azərbaycan ictimai və fəlsəfi fikrində din problemi", Müstəqil Ağayev. səh. 103. 2008-ci il. "Nurlan" nəşriyatı.

[2] Zaqafqaziya deyildikdə Qafqaz ölkələri (Azərbaycan, Gürcüstan, Ermənistan) nəzərdə tutulur. Ələxsus da 1918-ci il 22 aprel və 26 may tarixləri arasında Azərbayacan, Gürcüstan və Ermənistan ərazisində mövcud olmuş Federativ Respublika qəsd olunur. Hansı ki, sonradan qeyd olunan ölkələrin müstəqil olmasına səbəb olmuşdur.

[3] " XX əsr Azərbaycan ictimai və fəlsəfi fikrində din problemi", səh. 104. Müstəqil Ağayev. 2008-ci il. "Nurlan" nəşriyatı.

və kəndlərdə "ateist ittifaqları" təşkil olunur.

• 1929-cu ildən etibarən ateistlərin dinə qarşı mübarizəsi gücləndi, eyni zamanda da "Ateistlər İttifaqı"nın adını dəyişərək "Mübariz Allahsızlar İttifaqı" qoyurlar[1].

• 1929-cu ilin iyul ayında (sovetlər birliyi üzrə) "Mübariz Allahsızlar İttifaqı"nın ikinci qurultayı baş tutdu və orada yarım milyon ateisti təmsil edən 1200 nəfər bu ittifaqın üzvü iştirak edir[2].

• 1932-ci ildə Moskva şəhərində "Kommunist" partiyasının üzvlərinin baş tutan görüşündə "yeni cəmiyyət"in formalaşmasında dindarların iştirakını qadağan edən qanun çıxarılmasına qərar verilir[3].

• İkinci dünya müharibəsindən əvvəl və sonra bir müddətlik ateistlərin dinə qarşı mübarizəsi zəifləyir.

• Bunlar, müxtəsər olaraq əsas qərar və görüşlərdir. Amma, ikinci dünya müharibəsindən sonra olan ateizmə dəstək qərarları yalnız bu qərarların təkrarı qəbilindəndir və mahiyyət etibarilə kiçik fərqləri özündə daşıyır. Lakin, yeri gəldikdə həmin qərarlardan da araşdırma üçün mühüm olanları qeyd edəcəyik. Həmin qərarlardan məqsəd ya ateizmi eyni metodlarla yaymaq, ya yayılmasını daha da gücləndirmək, ya ateizmin yayılması üçün vasitə və metodları müzakirə etmək, ya da ateizmin propoqandası zamanı yol verilmiş xətaların müzakirəsi idi. Qarşıda yeri gəldikdə bu məqsədlə verilən qərarlara və keçirilən konfranslara toxunacağıq.

**Beşincisi: Millətin milli kimliyini müxtəlif vasitələrlə silməyə çalışmaq**: Bu mövzudan danışdığımız zaman anlaşılır ki,

---

[1] Məqalə: Azərbayacan SSR-də "mədəni inqilabın" mahiyyəti və sovet mədəniyyətinin formalaşması. Vahid Ömərov. "Səs qəzeti". Məqaləyə keçid: https://sesqazeti.az/news/analytics/322599.html

[2] Məqalə: "Allahsızlığın Azərbaycana gəlişi". Fizuli Sabiroğlu. Azvizion.az saytı. məqalənin keçidi: https://azvision.az/news/12794/allahsizligin-azerbaycana-gelisi-—-arasdirma-fotolar-davami.html

[3] Eyni mənbə: ikinci abzas.

bu mövzuya millətin həm milli (türk əsilli), həm də müsəlman kimliyi daxildir. Sovet dövründə kommunistlərin əsas hücumları bu müsəlman-türk kimliyinə qarşı idi və müxtəlif vasitələrlə bu mübarizəni etməyə çalışırdılar. Amma rusların Azərbaycan xalqına aid təbii sərvətləri bir qarşılıq ödəmədən talan edib istismar etmələri haqqında nə qədər istəsəniz danışmaq olar. Rusların Azərbayacan xalqının torpaqlarını işğal etmələrindən sonra xalqın milli kimliyini silmək cəhdlərinin aspektlərindən danışmadan öncə, yaxşı olardı ki, kommunistlərin həmin sovet hökuməti günlərini xəyal edən, bu gün də kommunistləri dəstəkləyən bəzi kəslərin bir şübhəsinə cavab verək. Şübhələri xülasə olaraq belədir; *Onlar deyirlər ki: Sovet hökuməti gələrək burada yaşayan xalqları bir-birinə qardaş etdi, bu xalqların təlim-tədris səviyyəsini dəfələrlə yüksəltdi, şəhərlərdə sürətli inkişaf müşahidə edildi, insanları sehirləyən, dünya ictimaiyyətini heyrətləndirən sürətli iqtisadi yüksəliş müşahidə edildi ki, bu da dünya xalqlarında kommunizm və onun iqtisadi siyasətinə qarşı maraq doğurdu.* Beləcə, yetmiş il ömrü olan, öz ideyalarını gerçəkləşdirməyə kifayət qədər zamanı olan sovet dövlətini iki ildən az ömrü olan, öz beşiyindəcə boğulan (1920) yeni bir müstəqil dövlətlə müqayisə edirlər, indiki müstəqil və gənc Azərbaycanın uğurlarını isə küçümsəyirlər. Hələ 1918-ci ildə qurulan Azərbaycan cümhuriyyətinin liderlərinin sovet işğalından sonra müxtəlif təqiblərə, sürgünlərə, hətta qətllərə məruz qalmalarını unudurlar. Əgər söhbət ölkənin inkişafından gedirsə, elə Azərbaycanın o vaxtkı liderləri Azərbayacanın sovet tərəfindən işğalı baş tutmasaydı və müstəqillik davam etsəydi, onlar Azərbaycanı elmi-texniki, siyasi, ictimai, iqtisadi və başqa bir çox sferalarda sovet dönəmindən də yaxşı və xalqın xeyrinə olan çox yaxşı səviyyədə inkişaf etməsinə səbəb ola bilərdilər. Axı onlara imkan verilmədi ki, bir iş görsünlər! Əksinə, nə millətin özünə, nə də dininə düşmən olmayan adamlara işğaldan sonra rahat nəfəs almağa belə imkan vermədilər. Onlar millətin sərvətlərini də sovet hökuməti kimi talayıb ölkə xaricinə daşımaz, millətin inkişafı üçün daha çox çalışardılar. Ən azından onların iki ildən az olan hakimiyyət dönəmlərində millətə və onun dininə

qarşı düşmənçilikləri yox idi. Sovet işğalından öncəki Azərbaycanın (1918-1920) idarəçilərindən[1] bəziləri qərbdə, bəziləri Rusiyada və başqa yerlərdə təhsil almış və çox savadlı kadrlar idilər. Onların, sovet hökumətinin əldə etdiyi nəaliyyətləri də, ondan daha artığını da əldə etməyə zəkaları və bacarıqları var idi. Azərbayacanın gələcəyi üçün onların bir çox iqtisadi, siyasi və ictimai proqramları var idi. Lakin, sovet işğalı ilə bütün bu planalar dağılmış oldu. Sovet hökuməti nə qədər "parlaq şüarlar" arxasında gizlənsə də, öz hərəkətlərindən müstəmləkəçilik ruhunu gizlədə bilməmişdi. Sovet işğalından sonra Azərbaycanda neçə-neçə zəkalı, dahi şəxsiyyətlər öldürülmüş, yaxud da sürgün edilmiş, ölkənin milli inkişafı dayanmış, "yeni insan modeli"nin ərsəyə gətirilməsinə cəhd edilmişdi. Hansı ki, bu insan modeli insani hislərdən kənar edilmiş və insanın dünayada yarandığı əsas Allaha ibadət qayəsinə zidd idi. Bu insan modeli yalnız maddəçilik haqda düşünən ateizmin arxasınca düşməli idi. Sonda bu ideyalar insan fitrətinin ziddinə getdiyi üçün uğursuzluğa düçar oldu. Qəribə və təəssüf doğuran isə budur ki, bu gün də öz xalqının həyatından oğurlanmış o zəhərli günləri arzulayan şəxslər mövcuddur.

---

[1] Müstəqil Azərbaycan dövlətinin (1918-1920) liderlərinin əksəriyyətini İslam dininə bağlı idilər. Hətta, onlar Azərbaycanın milli bayrağına İslam rəmzi olaraq "yaşıl" rəngi daxil etmişdilər. Hətta, Azərbaycanın milli azadlıq hərəkatının və bu müstəqil cümhuriyyətin ilk başçısı olan Məhəmməd Əmin Rəsulzadə insanların qəlblərini birləşdirmək, onların səflərini bir tutmaq və təfriqəçilikdən çəkindirmək üçün dəfələrlə öz çıxışlarında Quran ayələrindən sitatlar gətirirdi. O, insanların bir səfdə olmaları üçün belə səsləyirdi: "وأمرهم شورى بينهم" "Onlar, işləri barəsində öz aralarında məsləhətləşmək üzərində olarlar" (əş-Şura surəsi, 38-ci ayə). Onun ərəb dilində olan şüarlarından biri də belə idi: "همَّة الرِّجال تقلع الجِبال" yəni: "kişilərin həvəsi dağları yerindən oynadar". Azərbaycan bayrağına İslam rəmzi olaraq "yaşıl rəng"in daxil edilməsi də məhz onun təklifi idi. Bu o demək deyildir ki, yaşıl rəngin İslamın rəmzi kimi bayraqda təmsil olunması mütləq mənada İslamın rəmzidir. Lakin bu, həmin liderlərin İslama necə böyük ehtiram etmələrinə, həmçinin Azərbaycan xalqının müsəlman kimliyinin onun bayrağına həkk edilməsinə dəlalət edir.

*Xalqın milli kimliyinin sovet hökuməti tərəfindən silinməsinə gəldikdə isə bunun müxtəsəri belədir:*

**a)** Keçmiş adət və ənənələrin qadağan edilməsinə və yeni kommunist adət və ənənələrin ortaya çıxmasına səy göstərmək.

**b)** Xalqın əslini-kökünü dəyişməyə çalışmaları; O baxımdan ki, (müstəmləkəçilərin qaydası: parçala və hökm et) Azərbaycan xalqı 1937-ci ilə kimi şəxsiyyət vəsiqələrində "azərbaycanlı" deyil, "türk" olaraq yazılırdı. Sonradan sovet siyasətinə uyğun olaraq dəyişiklik edildi.

**c)** Xalqı İslami köklərindən və İslami əlaqələrindən uzaqlaşdırmaq; Elə bizim sovet dönəmi haqqında ətraflı izah etmək istəməyimiz və hadisələrini şərh etməyə çalışmağımız da bu amilin izahını daha bariz şəkildə anlatmaq üçündür.

**d)** Sovet maraqlarına uyğun olaraq başqa xalqlarla evliliyin kütləvi xarakter alması və xalqların bir-birinə qarışması.

**e)** Azərbaycan xalqının mədəniyyətinə və düşüncəsinə təsir edən bariz şəxsiyyətlərin, həmçinin din xadimlərinin sürgün edilməsi və ya öldürülməsi.

**f)** Hökumət idarələrində və bir çox yüksək vəzifələrə azərbaycanlıların deyil, erməni və rusların təyin edilməsi, rus dilinin isə rəsmi dil kimi istifadə edilməsi.

**g)** İkinci dünya müharibəsindən sonra kommunizmin müstəmləkəçilik simasının daha da bariz şəkildə ortaya çıxması; Bu mövzu üzərində doğurdan da bir qədər dayanmağa ehtiyac var. O baxımdan ki, kommunistlərin müstəmləkəçi siması işğalın ilk günündən nəzərə çarpsa da, ikinci dünya müharibəsindən sonra bu müstəmləkəçi siyasəti bütün çılpaqlığı ilə ortaya çıxırdı. Lakin onların siyasəti bu həqiqi simalarını pərdə arxasında gizlətməkdən ibarət idi. Çünki, onlar "parlaq, cəlbedici şüarlar" arxasında gizlənmişdilər: "xalqlar arasında dostluq, qardaşlıq", "mal-mülk bərabərliyi", "hər kəs üçün işləmək" və s. Məsələn; Azərbaycanın işğalından öncə kommunistlər belə deyirdilər: "Sovetə qoşulan bütün dövlətlər arasında sovet qardaşlığı var, onların hamısı

sosializmdə bərabərdirlər". Lakin, ikinci dünya müharibəsindən sonra siyasi durum dəyişdi və onlar dedilər: "Rusiya bu dövlətlərin hamısı üçün "böyük qardaş"dır[1]. Ona görə də Rusiyanın etdiyi xətalara göz yummaq lazımdır". Bu da onların "böyük qardaş" dedikdə nəyi nəzərdə tutduqlarını ifadə edirdi. Deməli, bu ateist-kommunist, maddiyyatçı təfəkkürə görə Rusiya "daha böyük" imiş. Deməli, bütün bu "qardaşlıq, bərabərlik" şüarları sadəcə rəmzi xarakter daşıyırmış.

[1] Daha ətraflı oxumaq üçün məqalə: "Sovet modernizasiyası Azərbaycana lazım idimi?". Elman Fəttah. Arqument.az saytı. Məqalənin keçidi: arqument.az/az/sovet-modernizasiyas-azerbaycana-lazm-idimi/#.XbYv4m5uJPY

## ÜÇÜNCÜ MƏSƏLƏ: ATEİZM TƏBLİĞATINI DƏSTƏKLƏYƏN BƏZİ ŞƏXSLƏRİN BƏYANI.

Birinci məslədə bizə aydın oldu ki, ateizm fikirləri bütünlüklə sovet imperiyasının qurulması ilə Azərbaycana gəlmədi. Az da olsa ateizmin kökləri var idi. Xüsusən də avropada təhsil alıb Azərbaycana qayıdan bəziləri arasında az da olsa bu fikirlər var idi. Onların sayı da barmaq sayı ilə sayılası qədər idi. Sovet işğalının ölkəmizə ayaq basmasından sonra isə kommunistlər təkcə ateizm təbliğatına "icazə" verməklə kifayətlənmədilər, əksinə, dinə qarşı müharibəyə ateizmə rəsmi dəstək də əlavə olundu. Bu rəsmi dəstək yetmiş il ərzində davam etdi. Bu isə təxminən müasir insanın ömrünə bərabərdir. Bu illər heç də az bir müddət deyil, əksinə, çoxdur. Bu o deməkdir ki, sovet imperiyasının qurulduğu 1920-ci ildə dünyaya gələn bir kimsə artıq sovet imperiyasının dağılması, süquta uğraması əsnasında əgər həyatda olarsa, 1991-ci ildə ömrünün 71-ci baharında olacaqdı. Bu da bir insan ömrünə bərabər illərdir və bu illər tam yeni təfəkkürlü bir nəslin yetişməsi üçün kifayət edirdi.

Ateistlər Azərbayacanda möhkəmləndikdən sonra ateizm fikirlərini Azərbaycan xalqına məcburi yeritməyə başladılar. Onlar kommunist ateizminə rəğbətləndirirdilər, xüsusən də hökumət idarələrində vəzifədə çalışmaq istəyən şəxslər üçün ateizmi öyrənmək və mütləq şəkildə qəbul etməyi bildirmək vacib bir şərt idi. Xalqın içində zəkalı, çox bacarıqlı şəxslər var idi ki, onların öz cəmiyyətlərinə xidmət etmək üçün yüksək rəğbətləri var idi. Lakin irəli getməyin qapısı "ateizm sürüşkənliklərindən" keçirdi. Ona görə də bəzi alim, ədib, yazıçı, şair, siyasətçi və başqa təbəqədən olanlar zahirdə ateizmi izhar etmək məcburiyətində qaldılar. Bəziləri də bu dönəmdə özünün inancını gizlətsə də, sovet rejimi süquta uğardığı zaman öz inanclarını biruzə verdilər. Elə o zamandan sonra öz yazılarında kommunizmi dəstəkləmədilər. Bəzi şəxslər isə sovet işğalından bir müddət sonra öz yazı və çıxışlarında ateizmi dəstəkləməyə başladılar, hansı ki, onların gəlir yerləri sovet birliyinə tabeçilikdən asılı idi.

(Baxmayaraq ki, sadə həyat yaşayıb ateizmə dəstək verməyən şəxslər acından ölmürdülər). "Lenin kommunist partiyasından tələb edirdi ki, sovetlər birliyinin maraqlarına xidmət edən şair və yazıçıları bir araya toplasınlar. Elə bu məqsədlə də "qızıl qələm" adlı cəmiyyət təsis edilmişdi"[1].

İndi isə həmin dövrdə ateizm fikrində olan bəzi şəxsləri qeyd edək:

- **Səmədağa Ağamalı oğlu** (1867-1930); O, xalis ateist fikirli siyasətçilərdən idi. Sovet dövrünə yetişdiyi üçün sevinmişdi. Heç də qəribə deyildi ki, o Sovet Azərbaycanında ateizm hərəkatının lideri və təşkilatçısı[2] olmuşdur. Səmədağa Ağamalı oğlu Sovet ittifaqının ilk lideri olan Leninlə xüsusi görüşmüş, Leninə bəzi təkliflər də etmişdi, bu təkliflərdən: "Azərbayacanda qadınların hicablarını çıxarmaları haqqının verilməsi, ərəb və fars hərflərilə yazmağın qadağan edilməsi, latın hərflərinin yazıda istifadəsinə keçid edilməsini və s. təklif etmişdi. O xalqın inkişaf və tərəqqisini dini tərk etməkdə, dini ayinlərdən birdəfəlik qurtulmaqda və dünyəvi elmlərdə görürdü. Özünün "Namus" kitabında qadınla əlaqəli bir çox İslam əhkamlarını inkar etmişdir.

- **Məmməd Səid Ordubadi** (1872-1950); O, şair, yazıçı və jurnalist idi. O, 1929-1932-ci illər arasında ateizmi dəstəkləyən kitabçalar yazmışdı. Bu kitabçalardan "Qurban bayramı xurafatı" kitabını göstərmək olar. Onun "Dindarlar" adlı başqa bir kitabı da var idi ki, orada dindarları şiddətlə tənqid edirdi. Müstəqil Ağayev "Din problemi" kitabında M.S.Ordubadinin adını qeyd etmiş, onun az öncə haqqında danışılan Azərbaycandakı ateizm hərəkatının lideri olan Ağamalı oğlu ilə birgə ateizmin yayılmasındakı səylərini qeyd etmişdir. Onun "Kommunist"

---

[1] Məqalə: Azərbaycanda sovet ədəbiyyatı. Qan Turalı. kayzen.az saytı. Məqaləyə keçid üçün link: https://kayzen.az/blog/az-proza/12112/azərbaycan-sovet-ədəbiyyatı.html

[2] XX əsr Azərbaycan ictimai və fəlsəfi fikrində din problemi", Müstəqil Ağayev. səh. 104. 2008-ci il. "Nurlan" nəşriyatı.

qəzetinə və "Molla Nəsrəddin" jurnalına böyük dəstəyi var idi. Araşdırma zamanı belə aydın olur ki, onun dinə qarşı fikirləri Azərbaycanın sovetlər tərəfindən işğal edilməsindən sonra dəyişilmişdir. Çünki, o işğaldan öncəki yazılarından olan "Qrenadanın (Əndəlüsün) son günləri" adlı yazısında müsəlmanlar haqqında yaxşı sözlər yazmışdı. Lakin, sovet işğalından sonra kitabın adını dəyişərək "Xilafətin son günləri" qoyur və kitabda çoxlu dəyişikliklər edir[1].

- **Heydər Hüseynov** (1908-1950); O, azərbaycanlı filosof və "Azərbaycan Milli Elmlər Akademiyası"nın (1945) qurucularından biri idi. Bir çox yüksək vəzifələrdə çalışmışdı. Eyni zamanda "Kommunist" partiyasının üzvü idi. Ona görə də onun dinə qarşı əməlləri çox da qəribə deyildi. O, azərbaycanlı ateist M.F.Axundov haqqında kitabça yazmış, orada onu tərifləmişdir. Həmin kitabda dinə qarşı düşmənçiliyini belə sərgiləmişdir: "Hər bir insana dini yer üzündən silmək üçün özündən din əleyhinə bir şübhə icad etməsi lazımdır![2]". Bax beləcə o, özünün ateist fikirlərini açıq-aydın ifadə edirdi.

**Cəfər Cabbarlı** (1899-1934); O, şair, yazıçı və jurnalist idi. "Azərbayacan dramaturgiyasında ateizm mövzuları" kitabında onun "1905-ci ildə" pyesindəki baş qəhramanın dili ilə "Allahı inkar etməsinə" işarə edilir; "Xristian rəhbər inqilabçı Volodinə deyir: "Siz əsatir kitablarında oxunan qəhrəmanlar kimisiniz. Hər yerdə sizin adınız çəkilir, amma siz görünmürsünüz. O kəs kimi ki, adı var, amma cismi mövcud deyil. Görəsən, Allah da belədirmi?"[3]

O, "Odlu bəy" adlı kitab yazmış və orada Abbasi xilafətini

---

[1] Cəlal Abdullayevin əsərləri. 3-cü cild. "Ordubadinin əsərləri". səh 6. Bakı. 2012. Şəkk yoxdur ki, Ordubadinin şəxsiyyətinə (fikirlərinə) Sovetlər dönəminin ictimai və siyasi reallığının tələbi olan dinə qarşı müharibə ciddi təsir etmişdi.

[2] "Dinə qarşı mübariz və cəsur adam" kitabı, Heydər Hüseynov. səh 4.

[3] Azərbaycan dramaturgiyasında ateizm mövzuları. Bayram Hacıyev. Səh.18. 1972-ci il.

şiddətlə tənqid etmişdir. Bu dövləti müsəlmanların diktatura və müstəmləkəçi dövləti adlandırmışdır. Orada kommunist Babəki "milli qəhrəman" adlandırmışdır. Bu "kommunizm" yalnız mal-mülk və qadınlara sahiblənmə məsəloəsində bərabərliyi özündə ehtiva edir, tamamilə sovet kommunizmindəki "bərabərlik" anlayışını ifadə etmirdi.

**Cəlil Məmmədquluzadə** (1869-1932); O, şair, dramaturq, jurnalist, kino rejisoru[1] idi. O, özünün "Xatirələrim" kitabında cənnət və cəhənnəmi inkar etmiş, şəriəti "din mövhumatı" adlandırmış, İslam ümmətini isə "din xurafatı içində xarab olan ümmət"[2] adlandırmışdı. "Din problemi" kitabında C.Məmmədquluzadə haqda, onun Allah haqqında qəribə suallar verməsi nəql olunur, sanki o, Allaha bəzi suallar[3] verir, sonra deyir: "Sən yoxsan, ona görə mənə cavab vermirsən". "Azərbaycan yazıçılarının ateizm əsərləri" adlı kitabda Cəlil Məmmədquluzadənin fransız ateist Holbaksın uca Allahın ədalətini, rəhmətini və varlığını inkar edən sözünü qeyd etmişdir. Bu sözləri birbaşa onun "Dinsizlik" məqaləsindən götürülmüşdür. O, dinsizliyi dəstəkləyir və deyirdi: "İndi dinsizlik zəmanəsidir".[4]

- **Əbdür-Rəhim bəy Haqverdiyev** (1870-1933); O, yazıçı, dramaturq, ədəbiyyatşünas, həmçinin ictimai və siyasi xadim idi. Bəzi sözlərlə özünün ateist olduğunu açıq-aydın şəkildə ifadə etmişdir. Onun əsərləri də ateist olmasına dəlildir. O, "Xortdanın cəhənnəm məktubları" əsərində cənnət və cəhənnəmi inkar etmiş, dinlə istehza etmişdir. O, öz dövründəki mollaların din adına

---

[1] Bəzi ədiblərin teatrda canlandırmaq üçün yazdıqları dramatik nəzmlər üç cürədir: gülməli, faciə və dram. Yalnız sonuncu növdə nəzmin məzmununda iştirak edən əsas şəxsin ölməsi lazım gəlmir. Bu növlərdə yazan yazıçılar dramaturq adlanırlar.

[2] Azərbaycan dramaturgiyasında ateizm mövzuları. Bayram Hacıyev. Səh.6. 1972-ci il.

[3] Azərbaycanda ictimai və fəlsəfi fikirdə din problemi", Müstəqil Ağayev. səh. 104. 2008-ci il. "Nurlan" nəşriyatı.

[4] Azərbaycan yazıçılarının ateizm əsərləri. Hacıyev. Səh. 59.

etdikləri xurafatlardan təsirlənmişdi. Dinə nifrət etdiyi üçün belə deyirdi: "Əgər cənnət və cəhənnəm doğru olsaydı, dindarlar dinə əməl edər və ona müxalif olmazdılar". Hətta "Azərbaycan dramaturgiyasında ateizm mövzuları" kitabında belə qeyd olunmuşdu: "O, bu kitabında Allahın varlığını inkar edirdi"[1].

• Sovet dönəminin əvvəllərində Azərbaycanda ateizmlə tanınmış cəmiyyətə böyük təsiri olan simalar da var idi; Onlardan ikisi Azərbaycan sovet sosialist respublikasına rəhbərlik etmiş şəxslər idilər. Onlar Azərbaycanlı olsalar da kommunist ideyalarına sadiq idilər. Bunlar **Nəriman Nərimanov** (1870-1925) və **Mir Cəfər Bağırov**dur (1896-1956). Onlardan birincisi Azərbaycanda kommunizm ideologiyasını və ateizmi mülaim metodla, sərt üsullara baş vurmadan yaymaq istəyirdi. İkincisi isə kommunist ideologiyasını və ateizmi şiddətli metodlarla və qətllərlə yaymaq istəyirdi. Nəriman Nərimanov 1920-ci ildən 1925-ci ilə kimi, yəni vəfat edincəyə qədər sovet Azərbaycanına rəhbərlik etmişdi. Nərimanov Leninlə görüşdüyü zaman ona Azərbaycanda ateizmi mülaimlik, qarşılıqlı anlaşma və sərtlik izhar etmədən yaymağı təklif etmişdi, o da bununla razılaşmışdı. N. Nərimanovun məqsədi ateizmi təbliğat və inandırma metodları ilə ilə yaymaq idi. Çünki, mövzu olduqca həssas idi.

**Mir Cəfər Bağırov**a gəldikdə isə o 1933-cü ildən 1953-cü ilə qədər sovet Azərbaycanının rəhbəri vəzifəsində çalışmışdı. O, amansızlığı, qəddarlığı ilə tanınmışdı. Sonra isə vəzifəsindən kənarlaşdırılır və haqqında ölüm hökmü çıxarılır. Haqqında olan ittiham isə hökumət vəzifəsindən siyasi maraqları üçün istifadə etmək və insan qətlləri idi. Haqqında şox ciddi mühakimələr ortaya qoyulduqdan sonra 1956-cı ildə güllələnərək qətl edilir.

• **Hüseyn Cavid** (1882-1941); O, şair, yazıçı və dramaturq olmuşdur. Azərbaycan ədəbiyyatında romantizm ədəbi cərəyanının əsas nümayəndəsi olan Hüseyn Cavid Azərbaycanda

---

[1] Eyni mənbə. səh. 60.

romantik şeirin və mənzum faciənin banisidir. Hüseyn Cavid sovet ittifaqından əvvəl də din əleyhinə yazırdı. Onun fikirlərində dinə qarşı mövqeyində mübahisəli məqamlar olsa da, yazıları nəticə etibarilə heç də dinin xeyrinə olmamışdır. Bu sözləri az qala onu "dindar" kimi qələmə verən şəxslərin olduğu üçün deyirəm. Ədalətli bir araşdırma üçün sizi onun bəzi sözləri, faktlarla baş-başa qoyacağam.

Kommunizmin Azərbaycana gəlişindən sonra din əleyhinə danışmağa lap cürətlənmişdi. O, özünün "Afət" əsərində dinin mənşəyinin Allahdan olmasını inkar edirdi. "Xəyyam" əsərində isə əsərin qəhrəmanının dilindən belə deyirdi: "Musiqi məclisinə getmək, mənim üçün məscidə getməkdən daha üstündür". Eyni əsərdə o, bir yerdə cənnəti və cəhənnəmi inkar edir, başqa yerdə isə sevdiyi Sevda adlı qadın haqqında şeir qoşaraq belə deyirdi:

Bir tanrıya lazımsa tapınmaq,
Zevq əhli tapınsın sana birdən!

Yəni, bir Allaha ibadət etmək lazımdırsa, qoy elə zövq əhli mənim sevdiyim qadına ibadət etsinlər.

Ümumiyyətlə, Hüseyn Cavid bu əsərində Xəyyamın dilindən müftiyə, xəlifəyə küfr sözlər deyir, oxucularına qeyb aləmi, Allah, din, cənnət, cəhənnəm haqda əsərdə cavabsız qalan şübhələri yağdırır. Sanki, ateistlərin sevimli "kefli İskəndər" obrazını oynayan "Xəyyamı" Hüseyn Cavid bu əsərində filosof, şair olaraq təqdim edir, onun dilindən İslamı təhqir, küfr edən çoxlu sözləri ifadə edir. Hüseyn Cavid haqda digər şəxslər kimi daha insaflı olmaq üçün onun digər əsərlərinə də zaman ayırıb baxdım. Xəyyam əsərini sona kimi oxudum. "İblis", "Peyğəmbər" əsərlərindən də bir neçə parçaları oxudum. "Peyğəmbər" əsərində isə bu gün ateistlərin gətirdikləri bəzi şübhələri və tənələri gördüm. Onun haqqında insaflı araşdırma etmək üçün araşdırma müddətini uzatdım. Daha çox şeirlərinə, əsərlərinə mütaliələr etmək qərarına gəldim, tərəddüd yaradacaq məqamlar axtardım.

Bu dəfə qarşıma yenə əvvəlki kimi küfr sözlər çıxdı. Ateist olduğu bəlli olan C.Cabbarlının onun yazılarında marksizm fəlsəfəsini gördüyünü, onun maddiyyatçı kimi qiymətləndirdiyini də "Hüseyn Cavid dramaturgiyasında insan, iblis tanrı" əsərinin müqəddiməsində oxudum. Onun "Peyğəmbər" pyesində insanın tanrılaşması haqda yazan Nəzakət Əzizovanın fikirlərinə baxdım. Bu sözləri bir neçə dəfə müxtəlif rədiflərdə təkrarlayır:

Hər bir kəsin bir eşqi, bir ilahı var,
Bənim tanrım gözəllikdir, sevgidir[1].

Hüseyn Cavidin əsərlərindəki fikirləri Nəsimi fəlsəfəsilə müqayisə edən araşdırmaçıların da şahidi oldum, lakin bu bir bənzətmədir deyə düşünürəm.

"İblis" əsərində də Allaha üsyan edərək "şər problemi"ni qabardır. Hüseyn Cavid əsərlərini dərindən araşdıran Nəzakət Əzizova - Hüseyn Cavid haqda kitabın müəllifi - Hüseyn Cavidin "İblis" əsərində Allaha qarşı ittihamlarını sadalayır, onlardan biri də "Allah niyə yaradır və öldürərək zülm edir?" deyə sual verməsini qeyd edir[2]. Halbuki, Allahın yaratması yoxdan yaranan biri üçün bir lütfdür, öldürməsi isə yeni həyatın başlanğıcı üçün bir keçiddir, möminin isə ən son acısıdır.

Bu misalları artırmaq da olar. Daha bir misal verək; Başqa bir yerdə isə o belə deyir: "Səmaların nağıllarını tərk et, gəl gedək bizim vətənə, cənnəti və cəhənnəmi bizim kəndimizdə görəcəksən"[3].

Bu məlumatlar sadəcə sovet dövründə olan bəzi ziyalıların dini fikirləri haqda qeydlərdir. Ateizm zəhəri təəssüflər olsun ki,

---

[1] Eyni kitab, səh. 30.
[2] Eyni mənbə. Səh 76.
[3] XX əsr Azərbaycan ictimai və fəlsəfi fikrində din problemi", Müstəqil Ağayev. səh. 105-107. 2008-ci il. "Nurlan" nəşriyatı.

sovet dönəmində öz işini görmüşdü. Onu da qeyd edim ki, haqqında bəhs etdiyimiz şəxslər sovet dövründə yaşamış yüzlərlə ziyalılarımızdan yalnız az bir qismidir ki, onlardan din əleyhinə açıq-aydın sözləri olanlardan bəzilərini qeyd etdik. Yoxsa, bəhs ediləsi və haqqında ateizm iddiası edilən onlarla şəxslər olsa da, biz kiçik bir üzür yeri görünən şəxsləri tərk etdik. Çünki, həmin dövrün təziqlərini təsəvvür etməyi bacarmadan bu haqda bəhs edən şəxs ədalətli mövqe sərgiləməkdən uzaqlaşmağa çox yaxın olduğunu bilməlidir. Bu dövrdə yaşayan şəxslərin dini fikirlərini müəyyənləşdirməyin, onları ateist kateqoriyasına və qeyri-ateist kateqoriyasına bölməyin asan yollarından biri İslama qarşı danışanların fərqli danışığıdır. Onlardan ateist olanlar dinin müqəddəs ayinlərini açıq-aydın təhqir edir, Allaha, peyğəmbərə, cənnət və cəhənnəmə açıq küfürlər edir, ateist olmayanları isə xurafatçıları və yalançı mollaları ifşa etməklə kifayətlənirdilər. Bəzən isə ateist olmayanları tanımaqda onların hökumətin xoşuna gəlmək üçün yazdıqları bəzi tərif yazıları, din əleyhinə görünən səthi yazılar, əslində isə dini açıq-aydın inkar etməyən yazılarını görmək də mümkündür.

Bu dövrdə yaşayan Azərbaycan ziyalılarından bütün kommunizm dəstəkçilərini "qorxuda" və ya "vəzifə sevgisində" ittiham etmək mütləq səbəb olmasa da, əksər səbəblərdən ola bilər. Bu iki səbəbi, yaxud amili mütləq səbəblər kimi ortaya qoysaq, bəzi ziyalıların bilinməyən qəlblərinə, niyyətlərinə daxil olmuş olarıq. Ortada təsəvvür edə bilmədiyimiz başqa amillər də ola bilər. Mövzunun həssaslığını başa düşmək, dövrü düzgün təsəvvür etməyə çalışmaq, bunun üçün yardımçı səbəb kimi isə həmin dövrə aid geniş ensiklopedik məlumatlara sahiblənmək mühümdür. Bu qədər iddialı iş görə bilməsək də, bacardığımızı etməyə çalışdıq.

- Səməd Vurğun[1] "Komsomol" poemasını yazmışdı. "Komsomol" sözünün mənası: Kommunist gənclər ittifaqıdır. O,

[1] Sovet dövründə yaşamış azərbaycanlı şair (1906-1956).

bununla kommunizmi tərifləmək istəmişdi. Rəsul Rza[1] isə "Babək" poemasını yazmışdı. Vəli Xuluflu isə dinə qarşı iki kitab yazmışdı. Birincisi "Qadın və din", ikincisi "Din və inqilab mədəniyyəti". Lakin, bu kitabların hamısı sanki onların "Kommunizm" ideologiyasını dəstəkləməyi izhar etmələrinə olan rəğbətlərindən qaynaqlanırdı. O baxımdan ki, sovet hökumətinə bağlılığını nümayiş etdirməyən heç kim hansısa bir kitabı nəşr etdirə bilməzdi.

Bu dövrdə kommunizmin ideoloji təsiri olduqca açıq-aydın idi. Bu şəxslər ümumən dinə qarşı müharibə edən şəxslər deyildilər, nə də bu kimi şeyləri izhar etmirdilər. Elə ona görə də dövrün ateizm təbliğat maşını onların yazılarından sitatlar gətirməyə həvəsli deyildilər. Nə də demək olar ki, onlar öz şeirlərində ateizmə çağıran sözlərdən istifadə etmirdilər, yalnız dünyəvi maraqları üçün bəzi şeylər edə bilərdilər. Şəkk yoxdur ki, bu qeyd olunan şəxsləri illərlə ateizmə dəvət edən, ateistlərin sevimli şair və yazıçılarına çevrilənlərilə bir müstəviyə qoymaq doğru olmazdı. Araşdırma etibarilə aydın olur ki, ümumiyyətlə onlar cəmiyyətdə ateizm fikirlərilə bilinən ateizm təbliğatçılarından olmayıblar. Onların mislində olan şairlər, yazıçılar, ədiblər və siyasətçilərdən bir çoxları ateizmə etiqad etmədən "Kommunist" partiyasına bağlılıqlarını izhar etmək zorunda qalmış, Allaha imanlarını qorumuşdular. Azərbaycanın o vaxtkı rəhbərlərindən olan Heydər Əliyev də "Kommunist" partiyasının üzvü olmasına baxmayaraq Allaha inanırdı. O, Azərbaycanın müstəqillik əldə etməsindən sonra ölkədə çoxlu məscidlər inşa etdirdi və özü də Kəbəni ziyarət etdi. Onun zamanında Azərbaycanda əhli-sünnənin sayı artdı. Belə misallar çoxdur. Başqa ziyalılar da olmuşdur ki, ölkə müstəqillik əldə etdikdən sonra İslama bağlılıqlarını ortaya qoymuş, hətta sovet qalıntılarının ortadan qaldırılmasına çalışmışdılar.

Bu məsələnin sonunda Müstəqil Ağayevin müstəqillik

---

[1] Sovet dövründə yaşamış azərbaycanlı şair (1910-1981).

dövründə (2008) sovet dönəmində "din, inanc məsələlərini, ziyalıların dini fikirlərini" geniş şəkildə araşdırmış azsaylı kitablardan biri olan "20-ci əsrdə Azərbaycanda ictimai və fəlsəfi fikirdə din problemi" adlı kitabında bu haqda yazdığı sözləri qeyd etmək yerinə düşərdi. Adları sadalanan qrupa daxil olan bəzi şəxslərin halını müxtəsər vəsf edərək demişdir: *"Bu dövrdə bəzi filosoflar və aydın şəxslər ateizmi yayan sözləri qorxularından, bəziləri isə əldə etmək istədiyi dünyəvi bir mənfəət üçün yazırdılar. Ona görə də bu dövrdə (sovet dövründə) ateizmi təbliğ edən yazılar çox idi".* (20-ci əsrdə Azərbaycanda ictimai və fəlsəfi fikirdə din problemi", Müstəqil Ağayev. səh. 115. 2008-ci il. "Nurlan" nəşriyatı).

**Bu söhbətlərin xülasəsi olaraq** aydın olur ki, sovet Azərbaycanındakı atesitlər və ya ateizm haqda yazanlar iki qism olmuşdur:

**1 –** Ateist olmasını açıq-aşkardan elan edənlər. Səmədağa Ağamalı oğlu, Heydər Hüseynov və Cəlil Məmmədquluzadə kimi şəxslər.

**2 –** Dünyəvi mənfəətdən, yaxud qorxmasından dolayı sovet ittifaqına bağlılığını izhar edən şəxslər; Bu şəxslərin çoxusu sovet ittifaqını və kommunizmi dəstəkləyən yazılar yazsalar da, onların Allaha inandıqlarını isbat edən kifayət qədər faktlar da mövcuddur. Ona görə də onları sovet Azərbaycanının kommunistləri siyahısına daxil etmədim. Bu şəxslərdən; Səməd Vurğun, Rəsul Rıza və Vəli Xuluflu kimiləri və başqaları çoxdur.

# İKİNCİ ARAŞDIRMA: ATEİSTLƏR İTTİFAQININ YARANMASI VƏ AZƏRBAYCANDAKI FƏALİYƏTİ.

"Ateistlər ittifaqı"[1]nın təsis edilməsi kommunistlər üçün çox zəruri idi. Çünki Karl Marksın[2] nəzəriyyəsi onlara bunu gərəkli edirdi. Sovet hökumətinin liderləri belə hesab edirdilər ki, Sovet Sosialist hökumətinin qurulması, davamlı qalması və inkişafı bu nəzəriyyədən doğan tələblərin tətbiq edilməsi ilə əlaqəlidir. Lenin elə bilirdi ki, dinin insanların qəlblərindən silinməsi üçün böyük səylər, çoxlu yorğunluq və uzun bir zamanın (dinə qarşı müharibə şəraitində) keçməsi lazımdır. Ona görə də bu məsələni təsdiqləyir və belə deyirdilər: "Marksizm mütəfəkkirləri dəfələrlə vurğulayıblar ki, dinin və zərərli məişət adətlərinin aradan qalxması qadağan etmə və cəzalandırma metodu ilə mümkün deyil. Çünki, qadağan etmə və cəzalandırma insanlarda dini hissləri daha da gücləndirəcəkdir"[3].

Onlar üçün sosializmin ideoloji planlaşdırması çox mühüm idi. Bu plana ateizmə dəstək və onun insanlar arasında təbliğatı da daxil idi. Bu səbəbdən də Lenin belə deyirdi: "Ateizmin təbliğ edilməsi mütləq şəkildə bizim təbliğatımıza daxildir"[4].

---

[1] Bu ittifaq, 1924-cü ildə sovet ittifaqı tabeliyindəki ölkələrdə tək nizama tabe olan vahid mərkəz şəklində kommunist ateizmini təbliğ etmək üçün təsis edilməsi Y.Yaroslavski tərəfindən təklif edilmiş ittifaqdır. İttifaqın ilk mərkəzi Rusiyada təsis edilmişdi. Sonra sovet ölkələrində bu əsas mərkəzə tabe olan digər mərkəzlər də yaradıldı. Bu ittifaqın işi bütün təbliğatçı və propoqandist ateistlərin səviyyələrinə uyğun proqramlar vermək və bu işin təşkilində onlara yardım etmək idi.

[2] **Karl Marks** (1818-1883); O, Almaniyalı filosof və ateist idi. Kommunizm və sosializm hərəkatının qurucusudur. Sovet hökumətinin ilk rəhbəri Lenin onun əsərlərindən təsirlənmiş və hökumətlərini onun nəzəriyyəsinin tətbiqi olaraq qurmuşdular. (əş-Şiyuiyyə və movqiful-İslam minhə. Prof. Humud Ruheyli. səh. 62-67).

[3] Məişət və adətlər, ateizm tərbiyəsi. Maqsud Cəlilov. Səh. 5.

[4] Ateizm tərbiyəsində Kommunist partiyasının liderliyi. Müstəcəb Muradov. Səh. 3. 1985-ci il.

Azərbaycanda "Ateistlər İttifaqı"nın kökləri hələ 1924-cü ildən qoyulmuşdur. Bu, eyni ildə Rusiyada baş verdikdən sonra Azərbaycanda baş vermişdir.

Mənbələrdə qeyd olunur ki, 1924-cü il, "Kommunist" partiyasınının tabeçiliyində olan mərkəzi idarənin siyasi qolunun Azərbaycanda din əleyhinə komissiya təşkil etdiyi ildir. Həmin komissiya tərəfindən şəhər və kəndlərdə "Allahsızlar ittifaqları" təşkil olunur. Sovet Azərbaycanındakı "Allahsızlar ittifaqı"na, ateizm hərəkatına ilk başçılıq edən və bu hərəkatın təşkilatçısı Ağamalıoğlu[1] olmuşdur.

Azərbaycanda Sovet hakimiyyətinin ilk illərində hökumət idarələri, xüsusən də Azərbaycan SSR-nin lideri N.Nərimanov dindarların haqlarına müxalif hərəkətlər edilməsinə etiraz edir, onları dindarlara qarşı lütfkar və şiddətdən kənar davranmağa dəvət edirdi. Bu mövqenin 1920-ci ilin may ayında Azərbayacan sovet hökuməti tərəfindən qəbul edilən qərara təsiri olmuşdu.

Lakin dinə qarşı bu yumşaq mövqe yalnız iki il davam etdi, bundan sonra dinə qarşı mübarizə məqsədilə şiddətli qərarlar qəbul edildi. 1922-ci ildə Rusiyada din əleyhinə başlayan hadisələrin gedişatı Azərbaycandan da yan keçmədi, hətta Azərbaycanı bürüdü və öz fitnəsinə saldı.

1923-cü ildən etibarən (Azərbaycanda) artıq ateistlərin "Maddiyyatçılar klubu" adlı elə Bakıda yerləşən bir mərkəzi də var idi. Bu klubun əsas məqsədi maddəçilik, Marksizm, Leninizmlə xalqın müxtəlif təbəqələri arasında və müxtəlif mühazirə zallarında mühazirə və çıxışların hazırlanması, qəzet və jurnallarda söhbət və məqalələrin yayılması ilə dini fikirlərə qarşı mübarizə aparmaq idi[2].

---

[1] Onun tərcümeyi-halı (həyatı) haqda məlumat birinci fəsil, birinci araşdırmanın üçüncü məsələsində qeyd olunmuşdur.

[2] Azərbaycanda mədəniyyət inqilabı (1920-1940). Vəkilov Mehdixan. Səh.

Həmin illərdə Rusiya "Allahsız" (bezbojnik) qəzetini nəşr etməyə başlamışdı. Bolşeviklər bu adı öz ateist fikirlərini ifadə etmək üçün seçmişdilər[1]. Qısa bir zamanda həmin qəzetin geniş oxucu kütləsi və qəzeti paylayanlar formalaşdı. Qəzetin təsis edilməsi fikrini ilk irəli sürən, həmçini qəzetin baş redaktoru Yamelyan Yaroslavski olmuşdu.

1923-cü il sentyabr ayının 13-də Y.Yaroslavski Moskva şəhərində dinə qarşı komitənin növbəti tədbirində "kəndlərdə dinə qarşı təbliğatın metodları və vasitələri" mövzusu haqda müzakirələr edərkən "Mübariz Allahsızlar" cəmiyyətlərinin yaradılmasını təklif edir. Eyni ilin oktyabr ayının 7-də bu təklif rəsmi şəkildə "Allahsız" (bezbojnik) qəzetində rəsmi şəkildə elan olunur.

Sovet hökuməti bu təklifi dəstəkləyir və Moskva şəhərində, 1924-cü ilin 27 avqust tarixində "Allahsız qəzetinin dostları" cəmiyyətinin ilk təməlinin qoyulduğu tədbir keçirilir. Beləcə bu cəmiyyət Sovet hökumətinin dəstəyilə inkişaf edir və genişlənir[2].

Yaroslavski 1924-cü ilin noyabr ayında bundan şücaətlənərək "Mərkəzi Kommunist Partiyası"nın idarəsinə müraciət yazır. O, bu müraciətində dinə qarşı mübarizə aparacaq xüsusi təşkilatın yaradılması üçün qanun layihəsini təqdim etmişdi[3]. "Mərkəzi Komitə" bu təklifi dəstəkləyir və 1925-ci ilin aprel ayında baş tutan "Allahsız qəzetinin dostları" cəmiyyətinin birinci

87. Bakı. 2005-ci il.

[1] Bu araşdırma Taleh Hacıyevə aiddir. Araşdırmanın adı: "Ateistlər ittifaqının Azərbaycanda gördüyü işlər". Səh. 1. Araşdırma cəmi 15 səhifədir. Bakı Dövlət Universitetinin İlahiyyat Fakultəsindəki Elmi Məcmuəsi. Səh. 339. 2008-ci il. Aprel ayı. No: 9.

[2] Məqalə: Ateizmin Azərbaycana gəlişi. Fizuli Sabiroğlu. Azvizion.az saytı. Kiçik dəyişikliklə.

[3] Azərbaycanda XX əsrin 20-30-cu illərində etnokonfessional şərait və onun xüsusiyyətləri. Şəhla Novruzzadə. səh. 27. Bakı. 2007.

qurultayında bu məqsədə xidmət edən vahid mərkəzli təşkilatın yaradılmasını təsdiqləyir. Eyni ildə "Dinə qarşı" aylıq jurnalın çapına başlanılır. Jurnal "Sovet ittifaqında Allahsızlar ittifaqı"nın mərkəzi komitəsinə tabe idi.

**Azərbaycanda "Allahsızlar ittifaqı" nə vaxt təsis edilmişdir?** Araşdırma zamanı görürük ki, bəzi məsdərlər 1923-cü ildə Azərbaycanda artıq "maddiyyatçılar klubu"nun simasında ittifaqın köklərinin mövcud olmasına işarə edir. Mənbələrin çoxusu "Allahsızlar ittifaqı"nın 1924-cü ildə yaranmasını vurğulayır. Həmçinin, 1925-ci il tarixi də qeyd olunmuşdur;

**a)** *Birinci rəy,* 1923-cü il rəyinə gəldikdə, bu doğru deyil. Çünki, "maddiyyatçılar klubu"nun yaranması "Kommunizm" siyasəti ilə əlaqədar idi. Baxmayaraq ki, hər iki qurumun işləri arasında oxşarlıq mövcuddur. Lakin, təşkilatçılıq, planlaşdırma və görülən işlər müxtəlif idi. "Allahsızlar ittifaqı"na gəldikdə onun Azərbaycanda gördüyü işlər məlum idi, işlər planlı şəkildə görülürdü və cəmiyyətin üzvlərinin sayı minlərlə idi. Amma "maddiyyatçılar klubu" isə yalnız bəzi azsaylı tədqiqatçılara məlum olmuşdur.

**b)** "Allahsızlar ittifaqı"nın 1924-cü ildə yaradılması rəyini əksər mənbələr bildirmişdir.

**c)** Azərbaycanda "Allahsızlar ittifaqının təməlləri 1925-ci ildə qoyulmuşdur" rəyini tədqiqatçı Fizuli Sabiroğlu demişdir. Bu xəbər bir çox mənbələrdə "Allahsızlar ittifaqı"nın 1924-cü ildə yaradılması xəbərinə zidd görünsə də doğru olan belə deməkdir: "Azərbaycanda ittifaqın təməlləri 1924-cü ildən qoyulmuşdur, eyni zamanda ittifaqın təşkilatçılıq və planlaşdırma üzrə işlərini həyata keçirən müvəqqəti bürosu da yaradılmışdır". Amma, 1925-ci ilin əvvəllərində, mart ayında planlaşdırılan işlərin icrasına başlanılmışdır[1].

---

[1] Taleh Hacıyevin bu sözü onun qiymətli araşdırmasında bu adla nəql edilmişdir: Azərbaycanda "Allahsızlar ittifaqı"nın fəaliyyəti. səh.1.

1925-ci ilin axırlarında "Allahsızlar ittifaqı"nın Bayılda yerləşən şöbələri, bundan sonra isə Bakının başqa yerlərindəki şöbələri təsis edildi, bu şöbələrin dinə qarşı mübarizəsi genişləndi və dinə qarşı mübarizənin yeni və daha güclü mərhələsi başladı[1].

"Allahsızlar ittifaqı"nın şöbəsinin Azərbaycanın paytaxtı Bakıda təsis edilməsindən sonra – onların batil iddialarına görə - "təşkilatın əsas qayəsi işçi qüvvəsini "din tiryəkindən" qurtarmaq, fəhlə və kəndliləri ələ alaraq onların dinə qarşı mübarizə aparmalarına nail olmaq, eyni zamanda onlara elmi-maddiyyatçı tərbiyə vermək və onları "mübariz ateizm bayrağı"[2] altında birləşdirmək idi"[3].

Lakin o zaman ki, müsəlmanlara qarşı təbliğat aparmağın faydasız olduğunu gördülər, bu məqsədlə kursların təşkil edilməsinə, tədris kitablarının hazırlanmasına qərar verdilər. 48 nəfəri Azərbaycan və rus dillərində ateizm təlimi kurslarına göndərildilər. Onlardan ateizm təlimi kurslarını yalnız 38 nəfər tamamlaya bildi[4].

Ateizmin təlimi kurslarının proqramına daxil olan mövzulardan; *yerin yaranması, biologiya, bəşər mədəniyyətinin tarixi, dinin yaranması və inkişafı, dini və sinfi təbəqələr arasında mübarizə, Muhəmməd peyğəmbərdən əvvəl ərəblərin halı, Quranda danışılanlar haqqında, Raşidi xəlifələr dönəmində hakimiyyət problemləri, Əli və Müaviyə arasındakı döyüş, Hüseyn və Yezid arasındakı döyüş və İslamda siyasi partiyalar* haqqında

---

[1] Öncəki mənbə: Səh. 162.
[2] Azərbaycanda antiislam təbliğatı və onun metodları. Ceyhun Hacıbəyli. Səh. 54. Münxen. 1954.
[3] Azərbaycanda antiislam təbliğatı və onun metodları. Ceyhun Hacıbəyli. Səh. 54. 1959-cu il, Münxen.
[4] Azərbaycanda "Allahsızlar ittifaqı"nın fəaliyyəti. Taleh Hacıyev. Səh. 340. Bakı dövlət universitetinin ilahiyyat fakultəsinin elmi məcmuəsi. Səh. 342. Nəşr tarixi. 2008. Aprel ayı. No: 9.

olan mövzuları qeyd etmək olar[1].

1925-ci ildə İslam, xristianlıq və yəhudilik dinlərinə qarşı hücum etmək, onlara qarşı mübarizə üçün metod və vasitələrin hazırlanması üçün üç komissiya yaradıldı. İslama qarşı komissiyanın rəhbərliyinə isə Cəlil Məmmədquluzadə[2] təyin olundu. "Allahsızlar ittifaqı"nın 1927-1928-ci illər arasındakı azərbaycanlı üzvlərinin nisbəti 28% idi. Digərləri isə rus və ermənilərdən ibarət idi.

Kommunistlər ittifaqın azərbaycanlı üzvlərinin sayını olduqca şişirdirdilər, hətta insanlara yalan da danışırdılar. 1932-ci ildə ittifaqın üzvlərinin 45.000-dən daha çox olması[3] haqda xəbər yaydılar. Başqa bir mənbədə isə üzvlərin sayı 3000 olaraq göstərilirdi[4]. İki rəqəm arasında müqayisə olunmaz bir fərq olduğu açıqca görünür. İttifaqı güclü və aktiv göstərmək üçün rəqəmləri saxtalaşdırmaq və şişirtmək adi bir şey idi. Bu üslub kommunist ateizminə insanları cəlb etmək üçün işə yaramadı.

- **"Molla Nəsrəddin" jurnalının adının "Allahsız" adı ilə dəyişdirilməsi.**

İttifaqın tədbirlərindən birində haqqında xüsusi söhbət aparılan mövzulardan biri də "Molla Nəsrəddin" jurnalı olmuşdu. Onlar həmin günlərdə Azərbaycan dilində xüsusi bir nəşrin olmadığını nəzərə aldılar. Tədbirdə təklif olundu ki, insanlar arasında "Molla Nəsrəddin" adıyla tanınan məşhur jurnalın adı

---

[1] İşçi ateistlər dərnəyi üçün dərslik. Birinci hissə. Səh. 4. Bakı. 1929. Azərnəşr.

[2] Onun tərcümeyi-halı birinci fəsilin 3-cü araşdırma mövzusunda "(sovet dövründə) ateizmi dəstəkləyən şəxslər" haqqında danışarkən qeyd edilmişdir.

[3] Stepdəki əzan səsləri. Müəllif: Benniqson Quelquey. Tərcüməçi: Nezih Özal. Səh. 180-181. İstanbul. 1981.

[4] **Məqalə:** "Sovet dövründə Azərbaycanda on il dinə qarşı mübarizə". Duyunski. "İnqilab və mədəniyyət". Səh. 48-50. 1930-cu il. no: 4.

"Allahsız" sözü ilə əvəz edilsin və bu jurnal "Allahsızlar ittifaqı"na tabe edilsin.

Əslində Azərbaycanda bu qərarın qəbul olunması "Allahsızlar ittifaqı"nın başçısı Dubinskinin təklifi ilə olmuşdu. Mənbələrdə qeyd olunur ki, bunun arxasında duran Dubinskinin "Molla Nəsrəddin" jurnalı və onun idarəçisi Mirzə Cəlilə olan xüsusi düşmənçiliyi idi.

Bundan bir il öncə 1928-ci ildə "Molla Nəsrəddin" jurnalında "tiryək" adlı məqalə dərc edilmişdi. Mirzə Cəlilin həmin məqalədə yazdığı sözlər Sovet "Allahsızlar birliyi"nin başçısını qəzəbləndirmişdi və o belə demişdi: "Mübahisə məclislərindən birində "Allahsızlar birliyi"nin üzvü lənətlik Dubunskinin hiyləli "tiyək" sözünü eşitdim, onun bu sözdən qəsdi o idi ki, yer üzündəki bütün dinlər bircə tiryəkə bənzəyir. "Molla Nəsrəddin" jurnalının "Allahsızlar birliyi" haqqındakı bəzi tənqidləri və jurnal tərəfindən "Mərkəzi hökumət idarəsi"nə göndərdikləri məktublar Kommunist partiyası təşkilatındakı işçilərin rəhbərlərinin xoşuna gəlməmişdi. Ona görə də onlar Dubinskiyə dəstək verirdilər.
1929-cu ilin noyabr ayında "Kommunist" qəzetində "Molla Nəsrəddin məcmuəsini ədəbləndirmək lazımdır" başlığı altında kəskin müzakirələr başlayır. Əsas müzakirə mövzusu "Sovet Allahsızlar ittifaqı"nın başçısı Dubinskinin fikirlərinə uyğun gəlirdi. Bu müzakirələrdə jurnalın "Allahsızlar ittifaqı"na tabe edilməsi, adının dəyişdirilməsi və jurnala kommunist yazarların cəlb edilməsi tələb olunurdu. Mirzə Cəlil "Kommunist Partiyasının Mərkəzi İdarəsi"nə məktub yazır və üzürlərini təqdim edir. Buna baxmayaraq ateistlər istəklərinə çatırlar və "Kommunist Partiyası" Mirzə Cəlilin məktublarına nəzər yetirmir. Beləcə, jurnalın "Molla Nəsrəddin" adı "Allahsız" (bezbojnik) adı ilə dəyişdirilir. Lakin jurnal yeni halı, dizaynı və məzmun etibarilə olduqca zəif idi və insanlar arasındakı keçmiş məşhurluğunu qoruya bilmədi. Çünki, artıq bu jurnal sovet ateist əxlaqını təmsil edir və sosialist birgəyaşayış məqsədlərini təbliğ edirdi. 1931-33-cü illərdə jurnal uğur qazana bilmir. Bundan sonra jurnalın nəşri

dayanır. Sözün qısası, adı dəyişdirilmiş bu jurnal artıq "Mübariz Allahsızlar İttifaqı"na tabe idi[1].

• **"Allahsızlar ittifaqı"nın vəzifəsi nə idi?** Y.Yaroslavski bu məsələni 1937-ci ildə ittifaqın üzvləri arasında baş tutan görüşdə bəyan etmişdi. O belə demişdi: "Mübariz Allahsızlar ittifaqı"nın vəzifəsi ateistlərin bütün dərəcələrinə uyğun, propoqandaçı və təbliğatçılara uyğun gələn proqramları seçmək və bu işin təşkil olunmasında onlara yardım göstərməkdir"[2].

Ateizm işinin təbliğatının təşkili və planlaşdırılması üslub və vasitələrə ehtiyac duyurdu. Bu məsələləri inşəAllah ikinci fəsildə ətraflı izah edəcəyik.

• Sovet hökumətlərində və Azərbaycan Sosialist hökumətində **"Mübariz Allahsızlar İttifaqı"nın şüarlarından biri də belə idi:** "Dinə qarşı mübarizə sosializm uğrunda mübarizədir[3]". Həmçinin "Ateizmdən Kommunizmə doğru[4]".

• **İttifaqın işinin zəifləməsi**: 1929-cu ildə Azərbaycandakı "Mərkəzi Kommunist Partiyası" ümumi araşdırmalardan sonra etiraf etmişdi ki, "Allahsızlar ittifaqı"nın işi 1927-ci ildən bəri ağlasığmaz şəkildə olduqca zəifləmişdir[5].

• **İttifaqın adının dəyişdirilməsi**: 1929-cu ilin iyun ayında "Allahsızlar ittifaqı"nın ikinci qurultayında ittifaqın adı

---

[1]XX əsr Azərbaycan ictimai və fəlsəfi fikrində din problemi", Müstəqil Ağayev. səh. 104. 2008-ci il. "Nurlan" nəşriyatı.

[2] Dinə qarşı mübarizənin genişləndirilməsi. Yaroslavski. səh. 14. 1939.

[3] Kommunizm və Din. Y.Yaroslavski. səh. 26. 1938 (azərbaycanca).

[4] "Allahsızlar ittifaqı"nın Azərbaycandakı fəaliyyəti. Taleh Hacıyevin araşdırması; həmçinin bax: Allahsızlığın Azərbaycana gəlişi. Fizuli Sabiroğlu. Azvizion.az saytı. (məqalə).

[5] Azərbaycan Respublikası Dövlət Siyasi Partiyalar və İctimai Hərəkatlar Arxivi – Altay Göyüşov. ARDSPİHA.f.[1].siy.[77].iş.[32-36]

"Allahsızlar ittifaqı"ndan "Mübariz Allahsızlar ittifaqı"[1] ilə əvəz edildi. Qurultayda bir milyon ateisti təmsil edən 1200 ateist üzv iştirak etmişdi. Qurultay təkcə bu nəticələrlə başa çatmamışdı.

• **İttifaqın işinin gücləndirilməsi üçün cəhdlər**:

İttifaqın başçısı Y.Yaroslavski belə hesab edirdi ki, dinə qarşı mübarizə təşkilatlanmış şəkildə olmalıdır və insanların fikirlərini bütünlüklə dəyişməyə gücü çatan üslubda olması lazımdır. Onların dinə qarşı mübarizə məqsədli hüccətləri ancaq "iddialı çağırış"lardan ibarət idi və iddia olaraq da qalırdı və elə də bir nəticə vermirdi. Onlar hansısa bir nəticə əldə etmək üçün insanların məişəti, həyatı ilə bağlı hər şeyi, milli xüsusiyyətlərini, libaslarını, dinlərini və bir çox anlayışları dəyişdirmək zorunda idilər, yeni bir həyat biçimi, yeni həyat normaları gətirməli idilər ki, insanların düşüncələrini, fikirlərini də ona uyğun tərzdə şəkilləndirə bilsinlər. Bu asan bir iş deyildi. Hətta illik təqvimin dəyişilməsi və tarixin yenidən hesablanmasına kimi təkliflər edilmişdi.

1932-ci ilin 30 fevral tarixində Rusiyanın Moskva şəhərində keçirilən 17-ci qurultayda dinə qarşı mübarizə və bu məsələdə uğur qazanmaq üçün "Mübariz Allahsızlar ittifaqı"nın fəaliyyətinin gücləndirilməsinin[2] əhəmiyyəti təkidlə vurğulanmışdı. Çünki, bu təşkilat həmin illərdə ateizmin təbliğatı üçün nəhəng bir vasitəyə çevrilmişdi. Artıq ittifaqın Azərbaycandakı ən aktiv üzvlərinə xüsusi döş nişanları (medallar) da verilmişdi. 1931-ci ildə yalnız sovet ittifaqı ölkələri arasında

---

[1] Azərbaycan SSR-də "mədəni inqilabın" mahiyyəti və sovet mədəniyyətinin formalaşması. Fəlsəfə üzrə fəlsəfə doktoru Vahid Ömərov. Sesqazeti.az saytı.

[2] Araşdırmaçı Taleh Hacıyev "Azərbaycanda Allahsızlar ittifaqının fəaliyyəti" adlı araşdırmasında qeyd etmişdi ki, 1928-ci ildən 1936-cı ilə kimi verilən bütün qərarların arasında hər il bir və ya iki qərarın məhz "Mübariz Allahsızlar İttifaqı"nın fəaliyyətinin qüvvətləndirilməsi üçün verildiyini tapmaq mümkündür. (Bakı dövlət universitetinin İlahiyyat fakultəsinin "Elmi Məcmuəsi". səh. 342. Aprel ayı. 2008. No: 9).

ittifaqın tabeçiliyində olan 60.000 şöbə var idi. Bu şöbələrdə ittifaqın beş milyondan artıq üzvü cəm olunmuşdu. Hər il ittifaqın üzvlərinin sayı və nəşr olunmuş ateizm kitablarının sayı artırdı. 1931-ci ildə "Allahsız" (bezbojnik) qəzetinin nəşr olunmuş nüsxələrinin sayı yarım milyon tiraja çatmışdı. Amma eyni adlı jurnalın nəşri isə 200.000 tiraja çatmışdı. İttifaq gənclərlə də çox maraqlanırdı. Sovet hakimiyyəti altında olan bütün ölkələrdə "Allahsızlar cəmiyyətləri" təsis edilirdi. 1931-ci ildə ateist cəmiyyətlərinə cəlb olunan uşaq və gənclərin sayı iki milyon nəfərə çatırdı.

• **İttifaqın fəaliyyətinin yenidən zəifləməsi:** Otuzuncu illərin ortalarında sovet ittifaqı hökümətində ittifaqın fəaliyyəti zəiflədi. 1935-ci ildə üzvlüyə görə ödənilən məbləğ on dəfə azalmışdı. 1936-cı ildə sovet ittifaqının mərkəzi icraiyyə komitəsi tərəfindən hökumətin bəzi bölgələrində ateistlər ittifaqının fəaliyyətinin tamamilə dayanması haqda faktlar aşkar olunur. Həmçinin bu amil ittifaqa üzvlük haqqının toplanmasına da öz təsirini göstərmişdi. Hətta, 1936-1937-ci illər arasında ittifaqa üzvlük haqqının yalnız iyirmi faizinin toplanması mümkün olmuşdu.

1937-ci ilin yanvar ayının altısında Sovet hökuməti əhalisinin siyahıya alınma prossesi zamanı "Sovet İttifaqı" rəhbərliyində hesablamanın nəticələri şok effekti yaratdı. Sıravi insanlar arasında dini mənsubiyyət haqda cavablar yüzdən səksən dörd faizi (25 milyon nəfər), savadlılar arasında isə yüzdən qırx beş faizi (30 milyondan çox) sorğu anketlərinə yazdıqları cavablarda Allahın varlığına inandıqlarını yazmışdılar. Bütün bunlar ona dəlalət edirdi ki, ateizmi yaymaq məqsədilə insanların qətli və ya sürgün edilməsi siyasəti çox da yaxşı nəticə vermirdi. Bu onu göstərirdi ki, onlar öz istəklərinə çatmamışdılar. Bunun üçün də "Mübariz Allahsızlar ittifaqı"nın fəaliyyətini aktivləşdirməyə və təxirəsalınmaz tədbirlər görməyə şiddətli ehtiyac meydana gəlmişdi[1].

---

[1] Məqalə: Azərbaycana ateizmin gəlişi. Fizuli Sabiroğlu. Azvizion.az saytı.

• **İkinci dünya müharibəsindən əvvəl son cəhdlər:** 1938-ci ildə "Allahsızlar ittifaqı"nın bəzi bölgələrdəki şöbələrinin fəaliyyəti qismən bərpa olundu. Eyni ildə ittifaqın dinə qarşı mübarizəni gücləndirmək üçün tədbiri baş tutdu. Kommunist partiyası da öz ateist fikirlərinə vəfalı çıxaraq insanlar arsında müxtəlif vasitələrlə İslamı gözdən salmağın rolu və əhəmiyyəti haqda maarifləndirmə aparmağa səy göstərdi. Elə bu məqsədlə Azərbaycanın paytaxtı Bakıda dinin tarixi və məsələlərini öyrənməklə bərabər dinə qarşı mübarizə kamapaniyası aparmaq üçün "Din tarixi və ateizm" muzeyi təsis olundu.

1937-ci ilin mart ayında "Kommunist" qəzetinin 17-ci nəşrində yazılmışdı: "Rusiyada müşahidə etdiyimiz kimi Azərbaycanda da milli və dini bayramların qadağan edilməsi və inqilabi bayramlarla əvəz edilməsi vacibdir"[1]. Bunun nəticəsində bütün milli və dini bayramlar qadağan edildi. Lakin bunun da bir faydası olmadı.

"Kommunist" partiyasının aşağı dərəcəli işçilərinin çirkin əməlləri, dinə və dindarlara qarşı böhtan, iftira, şantajla mübarizə aparmaları, din xadimlərinə təziq etmələri din xadimlərində, dindarlarda o zalımlara qarşı əks təsir, nifrət oyadırdı. 1937-1938-ci illərdə sovet rəhbərliyi öyrədirdi ki, dinə qarşı bu cür metodlarla mübarizə aparmaq – xüsusən də ikinci dünya müharibəsindən əvvəl - "Kommunist" partiyasının insanlar arasındakı nüfuzunu ciddi şəkildə sarsıdacaqdır. Çünki, ikinci dünya müharibəsinən öncə sovet ittifaqının siyasətində faşist Almaniyasına qarşı sovet ordusunda xidmət etmək üçün mümkün qədər daha çox adam toplamaq da var idi.

• **İkinci dünya müharibəsi ərəfəsi və müharibədən sonra:**

---

Kiçik əlavələrlə.

[1] Yəni, kommunist inqilabından sonra meydana çıxmış "yeni inqilabi bayramlar".

İkinci dünya müharibəsinin başlanğıcında, 1941-ci ildə "Mübariz Allahsızlar ittifaqı"nın fəaliyyəti birdəfəlik dayandırıldı. İttifaq rəsmi şəkildə ləğv olunmasa da, lakin böyük müharibə ərəfəsində ittifaq çalışırdı ki, dindarlarla hökümət arasındakı gərgin əlaqələri yüngülləşdirsin. Bu məqsədlə "Allahsızlar ittifaqı" bütün nəşrlərinin çapını (müvəqqəti) dayandırdı. Müharibədən sonra isə ittifaq öz işini davam etdirməyi bacarmadı. 1947-ci ildə öz varlığını sadəcə formal şəkildə qoruya bildi. Elə eyni ildə "Mübariz Allahsızlar ittifaqı"nın əvəz etmək üçün geniş kütlələr arasında "Elmi ateizm"i təbliğ edəcək "Maarif" adlı cəmiyyət təsis edildi[1]. Amma "Maarif" cəmiyyəti "Mübariz Allahsızlar ittifaqı" kimi ateizm təbliğatı yolunda geniş işlər görə bilmədi və cəmiyyətin zamanı dinə qarşı mübarizənin yüngülləşdiyi bir dövrə təsadüf etdi. Çox hallarda bu cəmiyyət dinə qarşı mübarizəsini din əleyhinə kitabların çap edilməsində cəmləşdirirdi. Araşdırma zamanı o dövrdə ateizm təbliğatı aparan bəzi kitablarda bu cəmiyyətin adına rast gəlinsə də cəmiyyətin fəaliyyəti haqda çox az bilgi əldə edə bildik.

[1] Allahsızlığın Azərbaycana gəlişi. Fizuli Sabiroğlu. Azvizion.az saytı.

# ÜÇÜNCÜ ARAŞDIRMA: ATEİZM ŞÜARLARI VƏ "ALLAHSIZ" VƏSİQƏLƏRİ.

## BİRİNCİ MƏSƏLƏ: ATEİZM ŞÜARLARI.

Həqiqətən də müasir dövrdə hər bir fikir və əqidə sahibi üçün haqq və ya batil olmasından aslı olmayaraq şüarların böyük əhəmiyyəti var. Məlum olduğu kimi çox insanlar şüarlarla maraqlanır, o zaman görəsən şüar sözünün mənası nədir?

**"Şüar" sözü lüğəvi cəhətdən:** İbn Mənzur demişdir: "şəar" sözünün cəmidir, necə ki "cəbələ, cibəlun" deyilir...[1].

Firuzabadi demişdir: Həccin "şiarı" onun əlamətləri və qaydalarıdır[2].

Muhəmməd Əbdülqadir ər-Razi demişdir: "Şiar" sözü kəsrə ilə yazıldıqda paltarın yaxın olan hissəsi nəzərdə tutulur. Bir qövmün döyüşdə istifadə etdiyi şiarı (şüarı) isə onların bir-birini tanımaq üçün istifadə etdikləri əlamətlərdir[3]. Buradan da müxtəsər olaraq aydın olur ki, "şüar" sözünün lüğəvi mənası "əlamət, nişanə" deməkdir.

**"Şüar" sözünün istilahı mənası isə**:

**Birincisi;** rəsm və ya əlamət və ya müxtəsər ibarədir ki, onun vasitəsilə bir dövlət və ya camaat xatırlanır, təkrarlanır və seçilir, bir şeyə rəmz olur və ona dəlalət edir, "sloqan" mülk şüarıdır, "ticari şüar" ticari əlamətdir, "şərəf şüarı" hansısa mədrəsəyə və ya kluba nisbət olunma və s. mənaları daşıyır, məsələn; bu şüar altında, yəni onun adı və bayrağı altında[4].

**İkincisi:** Bu, hansısa bir qövmü müharibə və ya səfərdə bir-birinə tanıdan ibarəyə deyilir. Hansı ki, məsələn: "gecənin sirri"

---

[1] İbn Mənzurun "Lisanul-Arab" kitabı. "Şəara" sözü. 4/411. Hicri 1414-cü il.

[2] Firuzabadinin "əl-Qamus əl-Muhit" kitabı. "Şəara" sözü. Səh. 416. Dəməşq çapı. Hicri 1433-cü il.

[3] Muhəmməd Əbdül-Qadirin "Muxtar əs-Sihah" kitabı. Səh.183. Hicri 1430-cu il.

[4] Mucəm əl-Luğət əl-Arabiyyə əl-Muasirah. "şəara" sözü. Səh. 1206. 1-ci cild. Hicri 1429-cu il.

adlanır. Filankəs oğullarının şüarı vasitəsilə tanındıqları bir nidadır (çağırışdır)[1].

**Üçüncüsü**: Hansısa bir dövlətin və ya camaatın o vasitə ilə seçildiyi bir əlamətdir, həmçinin, döyüşdə və ya səfərdə vasitəsilə bir-birini tanıdıqları (söz) ifadədir[2].

*Bu təriflərdən birinci tərif üstün görünür, çünki o, daha ümumi və daha şamil mənanı ifadə edir.*

Sovet ittifaqı zamanında istər ictimai, istər siyasi, istər də iqtisadi şüarlardan[3] çox istifadə olunurdu. Lakin bu araşdırma mövzusunda biz yalnız həmin dövrdə istifadə olunan bəzi şüarları qeyd etməklə kifayətlənəcəyik. Sovet Azərbaycanında "Mübariz Allahsızlar birliyi"nin dinə qarşı mübarizə məqsədilə istifadə etdiyi bəzi xüsusi şüarlar var idi.

• Onlardan biri də; *"Dinə qarşı mübarizə sosializm uğrunda mübarizədir"*[4] şüarıdır. Bunun mənalarından biri də o idi ki, din sosializmin əsaslarına müxalifdir və heç zaman da bu ikisi bir arada cəm oluna bilməz. Onlar dinləri kapitalizmə xidmət edən, kapitalizmi qidalandıran və qoruyan ünsür olaraq vəsf edirdilər. Kommunistlər din xadimlərini kapitalizmin cəsusları və sosializmin düşmənləri kimi vəsf edirdilər.

---

[1] Eyni mənbə. səh. 1206.

[2] "əl-Mucəm əl-Vasit" lüğət kitabı. Qahirədəki "Ərəb dili" mərkəzi. "Şəara" sözü, səh. 484. "Dəvət" nəşr evi. 1431-ci hicri il.

[3] Bu şüarlardan ən məşhur olanlardan biri də "xalqlar arasında dostluq və qardaşlıq" şüarı idi. Bu şüar sovet müstəmləkəçiliyinin məqsədlərinə xidmət edirdi. Bu şüarın reallıqdan uzaq olması, o dövrdə formalaşmış tələblə və ya təsəvvürlə Rusiyanın həmin xalqlar üçün "böyük qardaş" kimi qəbul edilməsi, elə "böyük qardaş" olduğu üçün də Rusiyanın xətalarından keçmək gərəkdiyini, həmin xalqlara Rusiyanı qınamaq və tənə etməyi tərk etmək gərəkdiyini lazımlı bilən dövrün həqiqətlərindən görünürdü.

[4] Kommunizm və Din. Yem Yaroslavski. Səh.26. 1928-ci il. Azərbaycan dilində. Kitabın 3-cü səhifəsində tərcüməçi qeyd edir ki: Bu kitabça, dinə qarşı mübarizə üçün hazırlanmış kitabın bir fəslidir.

• Həmin şüarlardan biri də belə idi: *"Ateizmdən kommunizmə doğru"*[1]; Bu ifadənin mənası ateizmi yaymağın elə kommunizmi yaymaq kimi olması idi. Yəni: Kommunizm yolundan ateizmə keçid edilir, ateizm də kommunizmin məqsədlərinə xidmət edir. Çünki, kommunizmin ateizmlə güclü əlaqəsi var. Əslində kommunizmin özü də ateizmin növlərindən biri sayılır.

• Sovet şüarlarından biri də bu idi: *"Elmin yayılması bəşər tarixindən dinlərin yox olmasına səbəb olacaqdır".*[2] Bu şüar da batil idi, hüccət və dəlil üzərində deyildi[3].

Ateistlərin bu istəyi və uzaq xəyalları baş tutmadı. Əksinə, dünyada elmin inkişafı və yayılması ilə, elmin və müasir texnologiyaların inkişafı dünyada İslamın yayılmasını artırdı və İslam tərəfdarlarının sayı azalmadı. Son hesablamalara əsasən dünyada İslam dininin tərəfdarlarının sayı daha da artmışdır. İnsanlar müasir elmi texnikalar sahəsində edilən kəşflərə və yeniliklərə Allahın yaratmasındakı qüdrətə, əzəmətə dəlalət edən, şahidlik edən, bu yaradılış əzəməti qarşısında insanın acizliyi və elminin azlığını göstərən bir baxış ilə baxdılar.

• Bu şüarlardan biri də: "Din zəhərdir, övladlarınızı ondan qoruyun"[4] şüarı idi. Bu şüar o dövrdə dinə qarşı ilk şüarlardan biri idi.

---

[1] "Ateizmin Azərbaycana gəlməsi". Fizuli Sabiroğlu. azvision.az saytı.

[2] Əlavə fayda üçün bax: " XX əsr Azərbaycan ictimai və fəlsəfi fikrində din problemi", Müstəqil Ağayev, səh. 8. 2008-ci il. "Nurlan" nəşriyatı.

[3] Sovet ittifaqının süqutundan sonra bu iddiaya özü deist olan Müstəqil Ağayev cavab verərək demişdi: "Heç bir inkişaf, heç bir yüksəliş və heç bir tərəqqi dini yer üzündən götürə bilməz. Bəşər övladı mövcud olduqca din də mövcud olacaqdır"... Həmçinin demişdir: "Müasir texnologiyaların inkişafı və müdhiş kəşflərin edilməsi Allaha inanların sayını azaltmayacaqdır. Əksinə bu, Allaha daha çox inanılmasına səbəb olacaqdır". (Eyni mənbə. səh. 8) Yəni: Elmin inkişafı ilə insanlar Allahın əzəmətli yaratma qüdrəti ilə daha dəqiq vəsfləri ilə tanış olacaq və bundan təsirlənəcəklər. Bu, onları dindən uzaqlaşdırmayacaq, əksinə dinə yaxınlaşdıracaqdır.

[4] Məqalə: "Sovet ittifaqı zamanında Azərbaycanda din". Azinform.az saytı.

Həmin dövrdə yayılmış bəzi şüarlar var ki, bu şüarlardan bəziləri mütləq qeyd olunmalı və bunlara ətraflı cavab verilməlidir; Çünki, o şüarlar bu gün də dinə qarşı bir şübhə olaraq istifadə olunmaqdadır. Bunlardan: *"Din xalqların afyonudur"*[1], *"Din tiryəkdir"*[2], *"Din xalqların nəşəsidir"*[3] kimi şüarları qeyd etmək olar ki, bunların hamısı müxtəlif ibarələrlə deyilsə də hamısı eyni mənaya dəlalət edir. Bu şüarları sovet dönəmində şübhə kimi istifadə olunan ən məşhur şüarlardan hesab etmək olar. Hansı ki, bu şübhəni ortaya çıxaran kommunizmin banisi ateist Karl Marks idi.

*Bu şübhəyə bir neçə aspektdən cavab vermək olar:*

**Birincisi:** Bu ibarəni kommunistlər İslam dünyasının şərqində İslam əleyhinə tətbiq etmişdilər. Orta əsrlərdəki kilsə hakimiyyətinin avropa xalqlarına qarşı zülmü və tüğyanı ən pis həddə gəlib çatmışdı, danış ki danışasan. Xristian dini də çoxlu təhriflərdən dolayı həmin zamanda feodal təbəqəni və zülmkarları dəstəkləyirdi. Həmçinin, insanlar vərəm və bir çox digər xəstəliklərdən ölürdülər, hər il minlərlə insanlar ölürdü, Avropanın şiddətli soyuğu da xeyli insan itkisinə səbəb olurdu, bütün bu səbəblərlə yanaşı feodallar vəfat etmiş bu işçi qüvvəsinin vəfatına göz yumur, eyş-işrət içində yaşayır və öz xalqlarının vəziyyəti ilə maraqlanmırdılar. Onlardan mücərrəd olaraq şikayət etmələri halında və ya yardım istədikləri zaman və ya zülmə uğradıqlarını bildirdikdə (avropalı) din xadimləri onlara belə deyirdilər: "Kim sənin sağ yanağına şillə vurarsa, ona sol yanağını

---

[1] Marksizmin iflası. إفلاس الماركسية Əhməd Hüseyn. Misir "Darul-Vəfa" nəşr evi. Hicri 1410. Birinci nəşr (ərəbcə). Afyon sözündən məqsəd isə: xaşxaş, keyləşdirən narkotik maddədir.

[2] Dini qalıqların aradan qaldırılmasında kommunist tərbiyəsi və onun vəzifələri. Səh. 39. 1929-cu il. Sovet Allahsızlar ittifaqının başçısı Yaroslavskinin mühazirələr məcmuəsi. Məcmuə, Sovet Allahsızlar ittifaqı tərəfindən Yaroslavskinin 1928-ci ildə etdiyi çıxışların cəm edilməsi ilə hazırlanmışdır.

[3] Kommunizm və İslamın ona qarşı mövqeyi. Humud ər-Ruheyli. Səh. 184. 1-ci nəşr. Hicri 1424. (ərəbcə). الشيوعية وموقف الإسلام منها

çevir (yəni, qoy ora da vursun)". Beləcə, onların ağrı hiss etmələrini keyləşdirib unutdurmağa çalışırdılar. İşçilərdən hər kim (haqqını istəməklə) özünün feodal ağasına qarşı çıxardısa, o, Allaha, kilsəyə və din xadimlərinə qarşı çıxmış sayılırdı. Kilsəyə məxsus milyonlarla qullar var idi ki, o qulları özlərinə məxsus və digər şəkildə qul kimi istifadə edirdilər... Əgər onların istəklərinə tabe olunmazdısa, o zaman təhdidə keçərdilər, sonra isə onlara itaətsizlikdə ittiham olunan qullara (həmin dövrdə) verilən işkəncələri özünüz təsəvvür edin. Hətta, ədəbləndirmə adı altında cəzalar verib onları dindən çıxmaqda, dinsizlikdə və Allahın (İncildəki) ayələrini inkar etməkdə ittiham edirdilər. Bu cür xislətli din xadimlərinin hərəkətləri nəticəsində din o xalq üçün həqiqi düşmən obrazı yaradırdı. Karl Marksın "din xalqların nəşəsidir"[1] sözü belə bir mühitdəki şəxslərin maraqları üçün istifadə olunmuş və təhrif olunmuş bir din üçün keçərli ola bilərdi[2].

**İkincisi:** Nəşə, afyon və ya tiryək israfçılıq olan eyş-işrət üçündür, İslam isə belə əməlləri istər kasıblara, istər varlılara, istər qullara, istər də ağalara olsun qadağan etmişdir. Peyğəmbər – Allahın ona salavatı və salamı olsun – insanlar arasında cəzaların tətbiqində ayrıseçkilik edilməsini qadağan etmişdir. Məxzum qəbiləsindən olan qadının oğruluq etməsi hədisində insanlar oğru qadının əfv olunması üçün peyğəmbərə vasitəçilik etmək istəyərək müraciət etdikdə peyğəmbər – Allahın ona salavatı və salamı olsun – belə dedi: "Allaha and olsun ki, Muhəmmədin qızı Fatimə belə oğruluq etsəydi, onun əlini mütləq kəsərdim[3]!". Bu və digər

---

[1] Keyləşdiricisidir.

[2] "Bəyan əl-İslam" ensiklopediyası. "Din xalqların nəşəsidir" – iddiası. bayanelislam.net/Suspicion.aspx?id=01_03_0025 (ərəbcə).

موسوعة بيان الإسلام

[3] Səhih əl-Buxari Fəthul-Bari şərhi ilə, 12/87. Hüdud kitabı. Oğruluq zamanı vasitəçilik etməyin bəyənilməməsi babı. Cəza hakimə qaldırılarsa, vasitəçilik etməyin bəyənilməməsi babı. No: 6788. Müslim. 3/1316. Hüdud kitabı. İmkanlı oğru və başqasının əlinin kəsilməsi babı. No:

bir çox dəlillər dəlalət edir ki, İslam heç bir zaman müsəlmanların "afyonu" (xaşxaşı, narkotiki) olmamışdır.

**Üçüncüsü:** Kommunizmin savaş elan etdiyi kapitalizmin əsası faiz, inhisarçılıq, aldatma (yalan) və sui-istifadə üzərində idi, hansı ki bu əməllərin hamısını İslam dini haram elan etmişdir. Bunları bildikdən sonra bu şübhəni necə gətirmək olar?

**Dördüncüsü:** Bu söz İslamdan başqa bir şey üçün doğru ola bilər. Heç bir halda İslama aid ola bilməz. Bu ibarə Avropa haqqında deyilmişdir. O zaman ki, Avropa kilsələri ağlı tamamilə tərk etmiş və onu dondurmuş, elm və din (xristianlıq) arasında sərt bir müharibə getmişdi. Kilsə insanlara: "Kor şəklində itaət et" – deyirdi. Ona görə də elm adamlarına qarşı mübarizə aparmış və bəzilərini yandırmışdılar. Buna misal olaraq kilsə yer kürəsinin yumru olması və fırlanması görüşünü mənimsəməyin günah olduğunu elan etmişdi.

Bu kimi hallar ağılın fəaliyyətini dayandırmaq, elmə mane olmaq və cəmiyyətin inkişafının qarşısını almaq demək idi. İslam isə elmə və alimlərə hörmətlə yanaşır, sağlam ağıla müxalif olmur. Uca Allah buyurmuşdur:

"Allah sizdən iman gətirənlərin və özlərinə elm verilmiş kimsələrin dərəcələrini ucaldar". (əl-Mücadilə. 11).

**Beşincisi:** İslam xalqları keyləşdirməmişdir. Görəsən, bu keyləşdirici harada istifadə olunmuşdur? Bu iddia başlanğıc ərəfələrində kafir və müşriklər tərəfindən güclü bir mübarizə ilə dəstək aldı[1] və uğrunda çoxlu əziyyətlər üz verdi. Nə üçün bu din bütün insanları keyləşdirmədi ki, onlar İslamı əziyyətsiz və sıxıntı olmadan qəbul etsinlər?! Görəsən, bu iddia olunan "keyləşdirici" haradadır!؟

1688.

[1] Şiuiyyə və Movqiful-İslam minhə. Səh. 186. prof. Humud ər-Ruheyli. 1-ci nəşr. Hicri 1424-cü il. (ərəbcə).

# İKİNCİ MƏSƏLƏ: ALLAHSIZ VƏSİQƏLƏRİ.

Sovet ittifaqının dinə qarşı siyasətinin tərkib hissəsi idi ki, onlar 1920-ci ildə dini bütünlüklə dövlətdən ayırdılar. Elə bundan az bir zaman sonra "Allahsızlar ittifaqı" quruldu. Həmin dövrdə - istər dini kitab olsun, istər də qeyri-dini kitab olsun - kiminsə öz evində ərəb hərfi ilə yazılmış bir yazı, kitab saxlaması olduqca çətin idi. Əgər kiminsə evində ərəbcə yazılmış bir kitab olduğu bilinərdisə, onun evinə polis gələr, hətta o kitabın məzmununu, mahiyyətini bilmədən belə həmin şəxsi güllələyə bilərdi.

Həmin günləri vəsf edən araşdırmaçı, tarixçi Anar İskəndərov o günlər haqda deyir: "Bir müddət sonra - (yəni: Allahsızlar ittifaqı"nın qurulmasından sonra) onlar həmin ittifaqa aid xüsusi pasportları (yəni: Allahsız kartoçkalarını) paylamağa başladılar. Bu pasportlar həmin ittifaqa üzvlük alan şəxslərə verilirdi. Sonra deyir: Solmaz xanım demişdi: "Həmin Allahsız pasportları (vəsiqələri) hökumət idarələrində vəzifədə çalışanlara paylanmışdı". Həmçinin o, öz həyat yoldaşının atasının (qanatasının) başına gələn bir hadisə haqqında xəbər verərək deyir: Yoldaşımın cibində daşıdığı bir ateist pasportu var idi. Buna baxmayaraq o öz namazlarını qılır, Ramazanda orucunu tuturdu. Sonra yoldaşımın atasına ateistlər ittifaqına üzv olmaq təklif edildi və o bu təklifi rədd edərək dedi: "Allaha and olsun ki, dərimi soysalar belə dinimdən çıxmaram". Bundan sonra onu həbs etdilər və apardılar.

Onun həyat yoldaşının atasının həbs edilməsindən sonra sovet hökuməti onun mülkünün müsadirə edilməsi haqda qərar qəbul edir, onun mülkü hökumət tərəfindən müsadirə edilir və şəxsi evi də hökumətin əlinə keçir. Sonra kişinin həyat yoldaşı daxmadan kiçik bir ev tikir, bəzi kiçik uşaqları və körpələri ilə orada qalıb yaşamalı olur[1]. Bu o deməkdir deyil ki, sovet müstəmləkəçiliyi

---

[1] "Sovet ittifaqında din: Atam həmişə xəlvət namaz qılırdı" adlı məqalə. Elnarə Məmmədova. bbc.com saytı.

altında olan hər kəsdən ateistlik pasportu tələb olunurdu.

Bu hekayə, bizə öz timsalında sovet sosialist işğalçıları tərəfindən həbs edilən minlərlə insanların hekayəsindən bəhs edir. Bu hekayə, bizə bəşər tarixində ən böyük küfr dövləti olan sovet imperiyası qarşısında imanını göstərən kişilərin hekayəsini danışır. O dövlət ki, ateizmi, küfrü və fasiqliyi təbliğ edirdi.

**Görəsən, "Allahsızlar ittifaqı" hansı maddi dayaqlar üzərində ayaqda dururdu?!** Yaxud da başqa bir ibarə ilə desək, görəsən bu "ittifaq" öz gəlirlərini haradan əldə edir və haraya xərcləyirdi؟

Sovet rəsmi mənbələri bildirirdi ki, ittifaq öz gəlir və xərclərini "Allahsızlar ittifaqı"na üzv olmuş (ateistlik pasportu verilmiş) şəxslərdən toplanan pullardan və ateizm təbliğatı üçün nəzərdə tutulmuş kitabların satışından əldə edir.

İttifaq üzvlərindən toplanan pullara gəldikdə isə, hər bir üzv əgər şəhər əhlindən idisə, üzvlük haqqı üçün 60 qəpik pul ödəyirdi. Kənd əhlindən olan hər bir üzv isə üzvlük haqqı üçün 24 qəpik pul ödəyirdi. Əslində olan isə bu idi; sovet hakimiyyəti "Allahsızlar ittifaqı"nı qoruyur və onun mövcudluğu üçün pullar xərcləyirdi ki, bu idarə kommunist məqsədlərinə xidmət göstərsin.

Aşağıda verilmiş iki şəkil "Mübariz Allahsızlar ittifaqı"na üzv olmuş şəxslərə verilmiş Allahsız kartoçkalarının şəkilləridir. Birinci şəkilin üzərində rus dilində belə yazılıb: "Sovet ittifaqının mübariz Allahsızlar ittifaqı". İkinci şəkildə isə həmin yazıya Azərbaycanca tərcüməsi əlavə olunub.




**1-ci şəkil.**




**2-ci şəkil.**

# DÖRDÜNCÜ ARAŞDIRMA: ATEİZMƏ DƏVƏT SİYASƏTİNİN YÜNGÜLLƏŞMƏSİ.

Bu başlıqdan olan məqsəd eyni zamanda da müsəlmanlara qarşı şiddətin yüngülləşdirilməsi haqqındadır. Bu yüngülləşmə onların ateizmə dəvət metodika və vasitələrindən də aşkar olurdu.

Bu məqamda qeyd olunması mühüm olan bir məsələ var; o da bəzi insanların guya sovet hökmətinin şirk ocaqlarını (pirləri və s.) qəsdli şəkildə dağıtmağı və ya bağlamağı tərk etməsidir. Necə ki, sovet imperiyasının guya "şirkə mane olmayıb sünnəyə mane olması" və s. iddiaları bəzi azərbaycanlı müsəlmanlardan eşidirik, lakin bu fikirlərin bir əsası yoxdur. Çünki, sovet hökuməti dinə qarşı bütünlüklə mübarizə aparır, hansısa sahəni tərk etmirdi. Yumşalma halları isə dini sahələrə fərq qoymadan əsasən sovet imperiyasının son dönəmlərinə təsadüf edirdi.

Araşdırmaçı biri müşahidə edə bilər ki, bəzi dəlillər sovet dönəmində dinə qarşı şiddət və dinə qarşı yumşalma mərhələlərinin olduğuna dəlalət edir. Bu məsələdə əsl odur ki, kommunizm – istər İslami olsun, istər qeyri İslami olsun - bütün dinlər və bütün firqələrə qarşı müharibə etmişdi. Onların dinlərə "bütün dinlər xalqların afyonudur" deyə ad qoymalarını və digər şüarlarını unutmaq olmaz. Gör indi dinlərdəki firqələrə qarşı necə davranmışdılar?! ... Kommunistlər dinlərə qarşı mübarizə aparmaq üçün dinləri və onların məzhəblərini öyrənirdilər. Onlar dinləri, firqə və məzhəbləri bütünlüklə bəşəri inkişafın önündə bir maneə kimi görürdülər. Bir çox dəlillər və arqumentlər dəlalət edir ki, kommunist ateistləri sünnilərə qarşı şiddət və təzyiqlər göstərdikləri kimi, şiələrə qarşı da şiddət və təzyiqlər göstərmişdilər. Şiddət mərhələsində ümumi müsəlmanlardan öldürdüklərini öldürmüş, sürgün etdiklərini sürgün etmiş, həbs etdiklərini isə həbs etmişdilər. Bu prosses dindarların cəmiyyətdə təsiri zəifləyənə və varlıqları hiss edilməyənə kimi davam etmişdi. Həmin dövrü araşdırdıqda daha çox xurafat, mövhumat haqda məlumat alırsan, əhli sünnə müsəlmanları haqqında isə demək olar

ki, məlumat əldə etmək olduqca çətinləşir. Bunun səbəbi ola bilsin ki, həmin tarixi dönəmdə onların saylarının az olması idi. Həmin dövrdə Azərbaycanda mövcud olmuş sufilik və onların bəzi xurafatları haqqında araşdırmalara da rast gəlmək mümkündür[1].

**Sovet ittifaqının dinə qarşı mübarizədə yüngülləşdirmə siyasəti ikinci dünya müharibəsindən bir qədər öncəyə təsadüf edir. Soruşula bilər ki, nə üçün bu dinə qarşı mübarizədə "yumşalma siyasəti" ikinci dünya müharibəsi əsnasında deyil, məhz mübaribədən bir qədər öncə başladı?** Cavab aydın görünür ki, onlar bunu məhz alman faşistlərinə qarşı dindarlar arasından döyüşəcək və sovet imperiyasını savaş meydanlarında müdafiə edəcək canlı qüvvə toplamağa ehtiyac duyduqları üçün belə etmişdilər. Onlar ateistlərdən fərqli olaraq imanlı dindarların düşməndən və ölümdən qorxmadıqlarını yaxşı bilirdilər.

İkinci cəhətdən də kommunistlərin öz ordularında daha çox əsgər sayına ehtiyacları var idi. Hansı ki, bununla onlar alman faşistlərini say və qüvvə baxımından üstələmək istəyirdilər.

Bir tərəfdən də kommunistlər ikinci dünya müharibəsinə kimi dindarlara qarşı daha şiddətli idilər. Buna görə də kommunistlərlə dindarlar arasındakı bu "yaxınlışama" yalnız kommunistlərin maraqlarına xidmət edirdi.

Amma bu "yaxınlaşma" müqabilində müxtəlif dinlərin mənsublarının öz dinlərinin gələcəyi haqda qurduqları xəyallar müharibədən sonra dinə qarşı münasibətdə cüzi bir yumşalmadan və ibadətlərini ən dar çərçivədə əda etmələrindən başqa elə də böyük bir fayda hasil etmədi.

[1] Sovet dönəminin xüsusən də ilk onilliyində sufizm təriqəti haqda araşdırmaya daha ətraflı baxmaq üçün: "XX əsrin 20-30-cu illərində azərbaycanda "Müridiliyə" qarşı mübarizə" adlı araşdırmasını oxumaq məsləhət görülür. Müəllif: Şəhla Nuruzadə.

Haqqında danışdığımız dinə qarşı şiddətin azalmasının baş verdiyi belə bir şəraitdə dindarların öz dinlərini yaymalarının necəliyindən danışmaq da mümkün deyil.

Məlum olduğu kimi 1935-ci ildə Azərbaycanda bütün məscidlər bağlanmışdı. Bu bağlanan məscidlərin sayı 1300-dən çox idi. Bu hadisədən bir il sonra paytaxt Bakıda yalnız bir məscidin, "Təzə Pir" məscidinin açılmasına icazə verildi[1]. Sonra isə sayı barmaq sayını keçməyəcək qədər az saylı məscidlərin açılmasına icazə verildi. Sovet hakimiyyətinin son illərində Azərbaycanda fəaliyyət göstərən açıq məscidlərin sayı on səkkizə çatırdı.

Dinə qarşı yumşalma siyasətinin ikinci dünya müharibəsinə yaxın bir tarixdə siyasi məqsədlər naminə başlanmasına ən mühüm dəlillərdən biri Sovet ittifaqının rəhbəri Stalinin 1938-ci ildə dindarlara seçkilərdə iştirak hüququnun verilməsi haqda çıxışıdır. Şəkk yoxdur ki, bu qərar dindarları müharibədən öncə razı salmağa hesablanmışdı və bununla dindarlara sanki işarə edirdilər ki, kommunistlərin dinə, dindarlara qarşı siyasətində

---

[1] Sovet ittifaqındakı müsəlmanların ziyarəti. Azərbaycan Cümhuriyyəti. Məşhur səyyah Muhəmməd bin Nasir əl-Abudi. Səh. 169. Birinci nəşr. Hicri 1413-cü il. زيارات للمسلمين في الاتّحاد السوفيتي: جمهورية أذربيجان. محمد بن ناصر العبودي. ص 159؛ الطبعة الأولى، 1413هـ. Bu səyyah sovet ittifaqının son illərində öz şəxsi heyəti ilə Azərbaycanı ziyarət etmiş, Azərbaycanın bəzi rəsmi şəxslərinin müşayiəti ilə bir sıra rayonlarda olmuş, məscidləri və mədəniyyət mərkəzlərini ziyarət etmiş, müsəlmanlarla görüşlər keçirmiş, öz ölkəsinə qayıtdıqdan sonra isə Azərbaycan haqqında bu kitabı yazmışdır. Kitabda Azərbaycan haqqında ərəb dilində çox nadir məlumatlar verilmişdir ki, həmin dövr üçün Azərbaycan haqqında belə bir kitabın yazılması çox təqdirəlayiq bir hal hesab oluna bilər. Həmin kitabdan iki nüsxə hələ də Mədinə şəhərində yerləşən Peyğəmbər məscidinin kitabxanasında mövcuddur. Səyyah Muhəmməd Nasir əl-Abudinin sovet dövrünün son vaxtlarına təsadüf edən səfərlərini özündə əks etdirən, digər sovet ölkələrindəki müsəlmanlar və dövlətləri haqqında yazdığı qiymətli kitablar da Peyğəmbər məscidinin kitabxanasında mövcuddur və həmin dövrdəki dini durumu araşdıran tədqiqatçılar üçün çox qiymətli məlumatları özündə ehtiva edir.

dəyişiklik var. Stalin təkidlə insanları inandırmağa çalışırdı ki, Sovet ittifaqının bundan öncə dindarları seçki hüququndan məhrum etməsinin səbəbi guya onların sovet ittifaqına qarşı birləşmələri və hökumətə qarşı işlər görmələrinə görə idi. Lakin, bu gün ittifaqdakı bütün daxili düşmənlər məğlub edilmiş və hökumətin yardımçılarına çevrilmişlər. Ona görə də hal-hazırda dindarlar tərəfindən hökumət əleyhinə heç bir təhlükə gözlənilmir və vəziyyət dəyişilmişdir. Əgər bu təhlükə aradan qalxmışdırsa, deməli (dindarlara qarşı münasibətdə) dəyişiklik etməyin vaxtı da çatmışdır[1].

Sovet hakimiyyətinin xüsusən də ilk dönəmlərində dindarlardan (din xadimlərindən) bir qisminin öldürülməsindən, sürgün və həbs edilməsindən sonra Stalin dindarlara qarşı yumşalmanın əhəmiyyətini bilirdi. Beləcə, bu gözəl fürsətin dəyərləndirilməsi çox mühüm idi. Buna görə də kommunistlərin böyükləri Stalinin bu fikri ilə razılaşır, onu məqbul fikir hesab edirlər. Yalnız bu ideyanı ilk səsləndirən zamanlar bəzi (azsaylı) etirazlar olmuşdu. Stalin öz çıxışında fikrini əsasən iki nöqtəyə cəmləmişdi: "Birincisi: Dindarlar əvvəllər olduğu kimi bizim düşmənimiz deyillər. İkincisi: Bu, bizim yeni siyasətimizin yeni məqsədidir; o da dindarları hökumətin siyasətinə boyun əydirmək, onların zəhmətlərindən sosializmin xeyrinə istifadə etmək və onları bu məqsəd üçün cəlb etmək ki bu, olduqca mühümdür"[2].

Sonra Stalin cürət edib kommunistləri bu "gözəl münasibət" səbəbilə dindarları sosializmə dəvət etmələri üçün rəğbətləndirdi. Sonra "Heç bir dindarın sosialistlər arasında yeri yoxdur" deyənləri tənqid etdi və təkidlə vurğuladı ki, bu cür danışanlar sovet hökumətinə zərər verirlər.

1943-cü ildə sovet ittifaqının başçısı Stalin Tehranda keçirilmiş konfransdan sonra Bakıdakı "Göy Məscid"in açılmasına icazə

---

[1] Daha ətraflı məlumat üçün bax: "Kommunizm və Din". Y.Yaroslavski. səh. 37-41. Azərnəşr. 1938-ci ilin nəşri.

[2] Ətraflı məlumat üçün eyni mənbəyə bax. səh. 41-42.

verdi. Bu hadisədən bir il sonra 1944-cü ildə "Qafqaz Müsəlmanları İdarəsi"nin fəaliyyəti yenidən bərpa edildi. Görəsən, necə bərpa edildi? Dini yaymaq üçün? Xeyr, bunun üçün deyil. Tarixçi araşdırmaçı Anar İskəndərov deyir: "Qafqaz Müsəlmanları İdarəsi"nin fəaliyyətinin bərpa edilməsi dindarların orada toplaşıb (Sovet düşmənləri olan) faşistlər haqqında söhbətlər etmələri üçün idi"[1].

1954-cü ilin noyabr ayının onunda əhali arasında "elmi ateizm"in təbliğatında yol verilən xətalar haqqında qərar verildi[2] və sahədə edilən bir çox xətalar qeyd edildi; bu xətalar arasında dindarlarla pis rəftar edilməsi və bu qəbildən olan digər xətalar da qeyd edilmişdi.

1980-ci illərdə Masallı rayonunun Boradigah kəndində dinə münasibəti təsvir edən molla Mircəfər Eyyubov deyir ki: "dinlə məşğul olan insanların rayon partiya sıralarına qoşulmaq, Kommunist partiyası üzvü olmaq, dövlət tədbirlərinə qatılmaq imkanları sıfır olsa da onlara kənddə problem yaranmırdı". Sonra deyir: "Televizorda baxırdım və elə bunu eşidirdim, qolçomaqlar, mülkədarlar və mollalar; alverçilər, antipodlar və mollalar; rüşvətxorlar, müftəxorlar, bürokratlar və mollalar; mollalar axundlar, canilər. Ancaq bu sıradan ifadələr işlədilirdi". Sonra o həmin dövrdə dindarlara qarşı rəftarı izah edərək deyir: "Əgər mən Sovet ədəbiyyatı ilə formalaşmış insan olsaydım, mən gərək mollalığımı planetimizin ən böyük cinayəti, ən əskik işi kimi qəbul etməliydim. Amma mən oxuyurdum ki, məntiq bunu demir"[3]. Mollanın bu fikirləri dövrün reallığını vəsf etdiyi üçün qeyd etdik. Onun sözündən aydın olur ki, "molla" sözünün mediada və ya televiziyada istifadəsi cəmiyyətdəki din

---

[1] Məqalə: "Sovet ittifaqında din: Atam həmişə xəlvət namaz qılırdı" adlı Elnarə Məmmədova. bbc.com saytı.

[2] Dinə qarşı mübarizədə elmin rolu. Şakirzadə. Səh. 81. Bakı. "Azərnəşr". 1959-cu il.

[3] Məqalə: "Sovet ittifaqında din: Atam həmişə xəlvət namaz qılırdı" adlı Elnarə Məmmədova. bbc.com saytı.

xadimlərinin mövcudluğu ilə razılaşmadır. İkinci dünya müharibəsindən əvvəl kommunist ateist hökumətində belə hallar müşahidə olunmurdu, nə də bunu təsəvvür etmək mümkün deyildi.

XX əsrin səksəninci illərində artıq bundan öncəki illərlə müqayisədə dini durum çox fərqlənməyə başlamışdı və buna dələlət edən faktlar da çoxdur. Məsələn; 1980-ci ildə Özbəkistanda baş tutan "xalqlar arasında sülh və dostluq" adlı beynəlxalq konfransda bir neçə müsəlman hökumətlərini[1] təmsil edən elçilər etiraf etmişdilər ki, artıq müsəlmanlar sovet ittifaqı daxilində öz ibadətlərini və dini ayinlərini heç bir problem olmadan icra etməyə başlayıblar[2]. Bundan öncəki illərdə isə müsəlmanlar üzərində nəzarət və təftiş olduqca güclü idi.

Bu illərdə ateistlər öz keçmiş səhvlərindən nəticələr çıxararaq ateizm təbliğatını aparırdılar. Çünki, artıq ateistlər öz kitablarında bu cür ifadələri yayırdılar: "Lenin və Nərimanov dinin izahını elmi cəhətdən etməyə çalışır, dini "saxta din" olaraq vəsf etməyi, dinin izahında buna bənzər şiddətli sözlərin istifadəsini və insanlar arasında dinə qarşı faydasız hücumlar etməyi qadağan edirdilər"[3]. Buna baxmayaraq, ikinci dünya müharibəsindən öncəki kommunist kitablarına baxanda dinə qarşı şiddət və sərtlik ifadə edən sözlərin olduğu aşkar görünür.

1983-cü ildə nəşr edilmiş "Kommunizmə qarşı xidmətdə dinin rolu" adlı kitabda ateistlərə tövsiyə olunurdu ki, dindarlara qarşı yumşaq və mehriban rəftar etsinlər[4].

Həmçinin, sovet hakimiyyətinin son illərində dinə qarşı

---

[1] Türkiyə, İordaniya, Banqladeş və digər dövlətlərdən olan təmsilçilər.
[2] Əlavə məlumat üçün: "Kommunizmə qarşı xidmətdə dinin rolu" – mühazirəçilər üçün kitab. Əsədulla Qurbanov. Səh. 29. Bakı. 1983.
[3] Öncəki mənbə. səh. 36.
[4] Eyni mənbə. səh. 28.

yüngülləşmə və yumşaq davranma istiqamətini başqa bir mənbədə də müşahidə edə bilərik, necə ki, 1985-ci ildə yazılan, müəlifi Maqsud Cəlilovun olduğu "Ateizm, din və cəmiyyət" adlı kitabda bu haqda yazılmışdı: "Dindarların çoxusu öz vətənlərini sevir və sovet hökuməti üçün xidmət göstərirlər. Onlar dövlət qarşısında öz borclarını və öhdəliklərini vəfalı şəkildə yerinə yetirirlər"[1]. Həmçinin o deyirdi: "Sovet ittifaqı hökumətinin əsas konstitusiyası öz vətəndaşları üçün tam şəkildə "vicdan azadlığı"nı təmin edir, cəmiyyət də dindarlara qarşı humanizmlə yanaşır. Sovet konstitusiyasının" vicdan azadlığı" haqqında olan 52-ci maddəsinin ən mühüm tələblərindəndir ki, müəyyən bir etiqad uğrunda insanlar arasında düşmənçilik və nifrət yaradılması qadağan edilir. Bu, - istər inanclı, istər ateist olsun - hökumətin bütün vətəndaşlarının haqlarını qoruması hesab olunur[2].

Sovet ittifaqının hakimiyyətinin son illərində müxtəlif dini təşkilatlar və cəmiyyətlər var idi ki, onlara Sovet ittifaqı daxilində fəaliyyət göstərməyə icazə verilmişdi. Təbii ki, onların fəaliyyəti Kommunist partiyasının nəzarəti altında idi. Bütün təşkilatlar, cəmiyyətlər, məscidlər, hətta kilsələr, sinaqoqlar və s. yerlərin hamısı müxtəlif mərkəzlərə tabe edilmişdi .

Bəzi mənbələr işarə edir ki, "Sovet hakimiyyətinin son illərində hökumət daxilində müxtəlif dinlərə mənsub olan 20.000-dən çox məscid, kilsə, sinaqoq və başqa dini ibadət yerləri, təşkilatlar və cəmiyyətlər mövcud idi"[3].

Lakin, hətta bu işarə edilən rəqəmin özü də bəzi tədqiqatçılar tərəfindən olduqca böyük bir mübaliğəyə məruz qalmışdır; Çünki, Sovet hakimiyyətinin son illərində Azərbaycanda 2000 məscid bağlı idi və onlardan yalnız 17-si ibadət üçün açıq idi. Bu məscidlərin də çoxusu cümə günü ibadətə açılırdı. O zaman necə

---

[1] Ateizm, din və cəmiyyət. Maqsud Cəlilov. səh. 92. 1-ci nəşr. 1985.
[2] Bax: eyni mənbə. səh. 92.
[3] Eyni mənbə. səh. 230.

deyilə bilər ki, Sovet hökuməti daxilində müxtəlif dinlərə mənsub 20.000 ibadət yeri açıq idi?

Sovet ittifaqının daxilində ibadətxanaların, İslami təşkilat və cəmiyyətlərin tabeçiliyi dörd mərkəz üzərində cəmləşmişdi. Bu dörd mərkəz Sovet ittifaqı daxilində müsəlmanların işlərini idarə edir və sistemə salırdı[1]:

**1 -** Orta Asiya müsəlmanlarının[2] dini mərkəzləri Daşkənd[3] şəhərində yerləşirdi.

**2 -** Zaqafqaziya müsəlmanlarının[4] dini mərkəzləri Bakı şəhərində yerləşirdi.

**3 -** Şimal Qafqaz və Dağıstan müsəlmanlarının mərkəzi idarəsi; bu idarə Maxaçqala şəhərində yerləşirdi.

**4 -** Avropa müsəlmanlarının (Sovet ittifaqına tabe olan hissəsi) və Ufa şəhərində yerləşən Sibir müsəlmanlarının mərkəzi idarəsi.

Az öncə işarə edildiyi kimi kommunistlərin dinə qarşı siyasətinin yumşalması kortəbii şəkildə deyil, davamlı nəzarət altında baş verirdi, eyni vaxtda da ateizm təbliğatı davam edirdi. Xüsusən də bu mərhələdə ateizm təbliğatı universitet və məktəblər kimi elm mərkəzlərində "Elmi ateizm"in yayılmasına rəğbətləndirməyə yönəlmişdi. Sovet kommunist kitablarının oxunması zamanı aydın olur ki, dinə qarşı şiddətin azalmasının əsas səbəblərindən biri də: kommunistlərin dinə qarşı mübarizədə və ateizmi qəbul etdirmədə gücdən, şiddətdən və məcbur etdirmə metodlarından istifadə etməyin nümunəvi və qaneedici bir yol olmadığını və bu metodun özlərinə qarşı olan təhlükəsini başa düşmələri idi. Bəzi kommunistlərin ateizm təbliğatı zamanı yol verdikləri xətalar artıq onlara məlum idi. Ateizm təbliğatının özünün batil və yanlış olmasına baxmayaraq Kommunizmin

---

[1] Ateizm, din və cəmiyyət. Maqsud Cəlilov. səh. 92. 1-ci nəşr. 1985.
[2] Qazaxıstan, Özbəkistan, Tacikistan, Qırğızıstan, Türkmənistan.
[3] Bu şəhər Orta Asiyanın və Özbəkistanın ən böyük şəhəri sayılırdı.
[4] Azərbaycan, Gürcüstan və Ermənistan.

tətbiqi qurucusu belə illər öncə bu xətaların mövcudluğuna toxunmuşdu.

Görəsən, ateizm təbliğatının özündən daha böyük xəta ola bilərdimi? Burada "onlar nəyi qoyub nəyi axtarırdılar?" – deyə soruşmaq yerinə düşərdi.

1986-cı ildə səyahətçi şeyx Muhəmməd Nasir əl-Abudi Azərbaycanı ziyarət etdi və bu ziyarəti zamanı o Azərbaycanın bəzi hökumət rəsmiləri ilə görüşdü, bəzi rayonlarda oldu və yerli sakinlərlə, dindarlarla görüşdü. Onun Azərbaycan məscidlərini ziyarət etməsi və s. ilə nəticələnən bu səfəri Sovet imperiyasının süquta uğramasından beş il öncə baş vermişdi. Sovet imperiyasının son illərində bu cür görüşlər müsəlmanlar arasında dini şüurun oyanmasına yardım etmişdi. Şeyx Muhəmməd ibn Nasir əl-Abudi Azərbaycanı ziyarət etdikdən sonra "Sovet ittifaqındakı müsəlmanların ziyarəti: Azərbaycan cümhuriyyəti" - adlı kitab yazmış, o kitabda Azərbaycanda keçirdiyi görüşlər əsasında öz xatirələrini və müşahidələrini yazmışdı.

**Qeyd olunanların xülasəsi:** İkinci dünya müharibəsindən sonra dinə qarşı şiddətin mütləq şəkildə yumşalması fikrini demək doğru deyil. Lakin, iki mərhələ arasındakı fərq aydın idi. Ola bilsin ki, bəzi yerlərdə şiddət baş verirdi. Lakin, ateizm təbliğatı ümumi şəkildə vasitə və metodlarının müxtəlifliyi ilə şiddətdən yumşaqlığa və anlayış göstərməyə doğru meyillənmişdi. Buradan belə anlaşılmalı deyil ki, ateistlər ateizm təbliğatını dayandırmışdılar. Əksinə, onlar məktəblərdə, universitetlərdə və başqa elm mərkəzlərində "elmi ateizm" təbliğatına diqqət ayırmışdılar. Onlar ateizm təbliğatı məqsədilə konfranslar, görüşlər və mühazirələr təşkil edirdilər. İkinci dünya müharibəsindən sonra ateizm təbliğatında yeni oyanış hərəkatı başlamışdı. Lakin, bu səylər batil səylər idi, onlar bacardıqları qədər din mənsublarını təhqir etməkdən çəkinirdilər. Unutmaq lazım deyil ki, biz həmin günlərdə ateizm təbliğatı zamanı tətbiq edilən şiddətin yumşalmasından danışırıq və ateizm təbliğatının

dayanmasından danışmırıq. Bu yeni mərhələnin xüsusiyyətlərindən idi ki, burada artıq "Mübariz Allahsızlar ittifaqı" yox idi. O ittifaq ki, öz üzvlərinə "Allahsız kartoçkaları" paylayırdı. "Allahsızlar ittifaqı" artıq ateizm kitablarını çap etməyə diqqət göstərən "maarif" cəmiyyəti ilə əvəz edilmişdi. Amma ateizm təbliğatının nizamlanması və qaydaya salınması digər aidiyyatı qurumlara deyil, birbaşa kommunist partiyasına bağlı idi.

## İkinci Fəsil: Azərbaycanda ateistlərin təbliğat vasitələri və metodikaları; (Birinci mərhələ: 1920-1991).

*Bu fəsildə altı araşdırma mövzusu var:*

**Birinci araşdırma:** Ateistlərin İslama qarşı müharibəsi.
**İkinci araşdırma:** Cəmiyyətlərin, ittifaqların və birliklərin inşası.
**Üçüncü araşdırma:** Təlim vasitəsilə ateizm təbliğatı.
**Dördüncü araşdırma:** Tərbiyə vasitəsilə ateizm təbliğatı.
**Beşinci araşdırma:** Mədəniyyət və fikir yoluyla ateizm təbliğatı.
**Altıncı araşdırma:** Azərbaycanda kommunizm təbliğatının süquta uğramasının səbəbləri.

## BİRİNCİ ARAŞDIRMA: ATEİSTLƏRİN İSLAMA QARŞI MÜHARİBƏSİ.

Bu araşdırmanın ehtiva etdiyi iki məsələ var, bunlardan;

**Birinci məsələ:** Kommunistlərin İslama qarşı müharibəsi.

**İkinci məsələ:** Azərbaycan xalqının sovet işğalına qarşı mübarizəsi.

# BİRİNCİ MƏSƏLƏ: KOMMUNİSTLƏRİN İSLAMA QARŞI MÜHARİBƏSİ.

Həqiqətən də Sovet ittifaqı İslama qarşı müharibə aparmaq üçün bütün mümkün vasitə və metodlardan istifadə etmişdi. Xüsusən də Azərbaycanda yayılmış İslam dininə qarşı bunu etmişdi. Bundan öncə qeyd etmişdik ki, Sovet ittifaqının Azərbaycanı işğal etməsinin ilk ilində (1920, may ayı) İslama qarşı verdiyi ilk qərarı "İslami dərslərin hökumətə aid bütün məktəb və institutlarda tədrisinin qadağan edilməsi" qərarı idi. Bu qərar müsəlmanlara qarşı ilk qüvvətli zərbə hesab oluna bilər. Hansı ki, bu qərardan sonra dinlə əlaqədar olan hər şey qadağan edildi. Bunun üçün də aşağıdakı metodlardan istifadə etdilər:

**A) Allaha dəvətin qarşısını almaq və yaxud da dinin təbliğini qadağan etmək;** Əgər hər hansı bir kimsə İslama dəvət (təbliğat) fəaliyyəti ilə məşğul olardısa və yaxud da insanlara şəriəti öyrədər, yaxud dini tədris edərdisə, - onun fəaliyyəti ifşa olunduğu zaman - onun taleyi ya həbs olunmaq, yaxud öldürülmək, yaxud da Orta Asiyaya sürgün edilmək idi. Araşdırma zamanı sovet dönəmində dindarlardan öldürülmüş kimsələrin dəqiq sayını vəsf edən bir mənbəyə rast gəlmədik. Sadəcə bəzi araşdırmaçılar qeyd etmişdilər ki, İslama dəvət edənlərdən olduğu kimi, başqa təbəqələrdən olan siyasətçilərdən, mədəniyyət adamlarından və s. bir qism insanlar sovet hökuməti tərəfindən öldürülmüşdü. Hansı ki, kommunistlərə qarşı cüzi bir fəaliyyəti olanların bu cür cəzalandırılmasına səbəb kimi şəxsi əməlləri göstərilirdi .

Kommunistlər bir çox müsəlmanların mal-mülkünü və torpaqlarını "müsəlmanların iqtisadi dayaqlarını çökdürmək" məqsədilə əllərindən almışdılar. Bir çox İslam təbliğatçılarının və din adamlarının aqibətinin nə olduğu bu gün də bilinmir. Qurani-Kərim zərərli bir kitab kimi qadağan edilmişdi. Ərəbcə və ya başqa bir dildə İslamla əlaqəli tapdıqları hansısa kitabı yandırardılar. Sovet dövründə bir çox ərəbcə kitablar və

əlyazmalar yandırılmışdı .

**B) Məscidlər;** 1928-ci ilin dekabr ayında "Kommunist partiyasının mərkəzi idarəsi"nin (KPMİ) rəhbər heyətinin yığıncağında "kəndlilərin mədəni ehtiyaclarını ödəmələri üçün onlara verilən məscidlər" haqda məsələ müzakirə edildi. Nəticədə müxtəlif idarələrə əmr olundu ki, məscidlərin minarələrini, kilsələrin xaçlarını aradan götürüb yerini ağartsınlar və bu işlərə yavaş-yavaş başlanmasına razılıq əldə edildi. Lakin, az bir vaxt keçmədi ki, dinə qarşı müharibələri daha da çoxaldı. Beləcə məscidlərin dağıdılması və bağlanması prossesinə başlanıldı, hətta, artıq 1935-ci ildə Azərbaycanda bütün məscidlər bağlanmışdı.

Bəzi mənbələr göstərir ki, Azərbaycanda sovet işğalının başlanğıcında məscidlərin sayı iki mindən çox idi. Bəzi mənbələrdə isə min üç yüzdən çox məscid olduğu deyilir.

Hər bir halda sovet işğalından on beş il keçmişdi ki, artıq Azərbaycanda bütün məscidlər bağlanmışdı. Azərbaycanda elə bir məscid qalmadı ki, dağıdılmasın, yaxud meyvə, bitki və s. anbarı kimi istifadə olunmasın, yaxud idarəyə və ya kitabxanaya çevrilməsin. 1929-cu ildə bəzi bölgələrdə 120 məscid qəsb edilərək rəsmi məktəb olaraq istifadəyə verildi.

**C)** Hicabın və təkkənin[1] qadağan edilməsi; 1929-cu ilin 8 aprel tarixində Sovet ittifaqı hökumətinin "dini təşkilatlar" haqqında verdiyi qərardan sonra Kommunist partiyası aprel tədbirində dinə qarşı mübarizəni, hicabı və təkkəni müzakirə etdilər və tədbirin sonunda bu məsələlərə qərar verdilər: (hicab və təkkənin qadağan edilməsi), "Allahsızlar ittifaqı"nın işi gücləndirilsin, dinə qarşı işlərin Azərbaycan dilində davamlı və nizamlı plan üzərində aparılsın, bu iş geniş vüsət almalıdır, ictimai fəallardan,

[1] Yəni: kişi baş örtüyü.

əkinçilərdən, komsomollardan[1] və başqalarından ibarət olan kəndlərin ictimai kökləri nizama salınsın"[2].

Cəfər Cabbarlı qadın azadlığı haqqında "Sevil" əsərini yazmışdı, 1928-ci ildə onun bu əsəri teatrda tamaşaya qoyuldu və onu aktyorlar oynadılar. Bu əsərdə qadınları hicablarını açmağa rəğbətləndirilməsi və hicabın onların gözündən salıb "geriçilik" kimi göstərilməsi var idi. Deyilənə görə bu tamaşaya baxandan sonra elə birbaşa teatr zalında bəzi qadınlar öz hicablarını çıxarmışdılar. 1960-cı ildə isə paytaxt Bakının mərkəzində hicabını başından açan qadının heykəli qoyuldu .

**D) Dinin mahiyyətinin təhrif edilməsi;** Bolşevik işində kütləvilik məfhumu dinə qarşı mübarizəni gücləndirməklə bərabərləşirdi. 1929-cu ilin fevral ayında "Kommunist partiyası"nın bütün təşkilatlarına" Mərkəzi komitə"nin katibi Kaqanoviçin imzası ilə göndərilən mütləq gizli məktubda "Dinə qarşı mübarizənin gücləndirilməsi haqqında" danışılırdı. Bununla da "Dinə qarşı mübarizənin siyasi sinfi mübarizə ilə eyniləşdirilməsi" tamamlanmış hesab olunurdu. Başqa bir ibarə ilə desək, bu, dinə və onun dayaqlarına qarşı hücum etmək üçün yeni bir mərhələnin başlanğıcı idi.

*Təhriflərdən biri də onların belə demələri idi:* "İslam dini insanları varlı və kasıba bölür. Bu isə sinfi bir bölgüdür". Hansı ki, onlar İslamın varlılara zəkatı vacib etməsi vasitəsilə bu ictimai problemi həll etdiyini unudurlar. Həqiqətən də kommunistlər İslamın ərkanlarının və imanın şərtlərinin mənalarını yalan və batil araşdırmalarla, elmi əmanətdən, doğruluqdan və adillikdən

---

[1] **Komsomol:** Kommunist-siyasi təşkilatın adıdır. 1918-ci cildə inşa edilmişdir. Müxtəsər olaraq: "Kommunist Gənclər Birliyi" adlanır. Tam adı isə: Bütünlüklə birliyə tabe olan, Lenin Kommunist Gənclər Birliyi – idi. Bu təşkilat, Sovet ittifaqında gənclərin yeganə siyasi təşkilatı idi. (Mənbə: Rus dilində lüğət. Lupatin. səh. 223. 2009). Komsomol bir fərd olaraq həmin təşkilatın üzvü mənasında işlənir.

[2] "Ateizmin Azərbaycana gəlməsi". Fizuli Sabiroğlu. azvision.az saytı.

uzaq araşdırmalarla təhrif edirdilər. Məsələn; o kitab və məqalələr ki, "Qurban bayramı" haqqında yazılmışdı, onu "Qurban bayramı xurafatı" adlandırmışdılar. Onlar Ramazan bayramı və bəzi ibadətlər haqqında da bunu etmişdilər. Dinə qarşı isə məntiqə əsaslanan çaşdırıcı yazılar yazmış, şəriət əhkamlarını, ayə və hədislərin mənalarını təhrif etmiş, hətta İslami əxlaqlar haqqında danışmışdılar. Halbuki, kommunist əxlaqı tənqidə layiqdir və şiddətli tənqidləri haqq edir.

**E) Fikri müharibə:** Qarşıdakı növbəti mövzularda kommunistlərin Azərbaycan xalqına qarşı fikir müharibəsi haqqında, təlim və tərbiyə sahəsində, bu sahədə istifadə etdikləri metod və üsullar, insanların ağıllarını yeni "mədəniyyət" vasitəsilə necə dəyişmələri haqqında ətraflı bəhs ediləcəkdir. Burada Kalinin Lenin haqqında xatirələrindən birində ona dediyi sözü qeyd etmək yerinə düşərdi, o zaman ki, o Lenindən belə soruşmuşdu: "Biz dini nə ilə əvəz edə bilərik? Lenin dedi: Teatr".

Bu o deməkdir ki, onlar "əgər din aradan götürülərsə, biz dini nə ilə əvəz edək?" - sualına cavabı belə gələcək naminə planlamışdılar. Onlar "bu boşluq yaranarsa, onun yerinə nə qoyaq?" - deyə düşünmüşdülər. Lenin kommunist olmayan, kommunizm mövzusunda onlara müxalif olan maddiyyatçı ateistlərlə ittifaq etməyi təklif etmiş və bu ittifaqın zəruri olduğunu təkidlə vurğulamışdı[1].

"Ateist tərbiyəsində kommunist partiyasının rəhbərliyi" kitabında ateizm təbliğatının böyük sayda vətəndaşlara çatdırılması haqqında statistika qeyd olunaraq deyilmişdir: "1971 və 1972-ci illərdə ateizm təbliğatı bir milyon yarım şəxsi əhatə etmişdi"[2]. Əgər deyilsə ki, bu məlumatlar şişirdilmiş

---

[1] Əlavə məlumat üçün bax: Kommunizm və Din. Yem. Yaroslavski. səh. 26. 1938-ci il nəşri. Kitab rus dilindən Azərbaycan dilinə tərcümə edilmişdir.

[2] "Azərbaycan Kommunisti" jurnalı. səh. 22. No: 6. Bakı. 1973; "Ateist

məlumatlardır və yaxud həqiqətdən uzaqdır, deyərik ki, bu dövrdə ən azı bizə məlum olan ateizm təbliğatının minlərlə şəxsə çatmasıdır.

**D) Adət və ənənələrə qarşı müharibə;** adətən bu müharibə dini və milli adətlərə qarşı idi. O baxımdan ki, kommunistlər dini adətlərin xalqı İslam dininə bağladığını və bu dini adətlərin "onları dini bağlardan qurtulmağa qoymadığını" iddia edirdilər. Həmçinin, iddia edirdilər ki, mərasimlər, dini bayramlar və başqa dini yığıncaqlar da onları dinlə bağlayır və onlarda dini şüuru artırır. Ona görə də dini, milli adət-ənənələrdən birbaşa dinlə əlaqəsi olan, yaxud kökü dinə bağlı olanlarını aradan götürməyə qərar verdilər. *Bu işdə olan planları iki istiqamətə yönəldi:*

**Birincisi:** Dini və milli adət-ənənələrdən qurtulmağa fokuslanmaq.
**İkincisi:** Yeni kommunist adət və ənənələrin icad edilməsinə fokuslanmaq.

Bununla da onlar insanlara milli və dini adət-ənənələri qadağan etdilər, sonra isə kommunist adət və ənənələrini gətirdilər .

Xalqın qədim adətlərinə əvəz olaraq hansı yeni adət çıxarırdılarsa, bu adət dini şüurdan uzaq olmalı idi. Hayatda hansı münasibət olursa olsun, onu maddi-ateist yozumları ilə izah edirdilər ki, bu da onlara görə məqbul sayılırdı.

Onların ən böyük diqqəti 1964, 1977, 1978-ci illərdə sovet ittifaqında keçirilən ümumi konfranslarda yeni kommunist adət-ənənələrinin və bayramlarının formalaşmasına yönəlmişdi.

Kommunistlərin dinə qarşı müharibədə istifadə etdikləri bir çox vasitə və metodlar var idi; qəzet və jurnalların yayılması,

---

tərbiyəsində kommunist partiyasının rəhbərliyi". Müstəcəb Muradov. səh. 16. Bakı. 1985.

kitab çapı, kino istehsalı, radio yayınlanması, məktəb və universitetlərdə təlim-tərbiyə sahəsindən istifadə, universitetlər, ittifaqlar və muzeylər qurmaq, ümumi mühazirə çıxışlarının təşkili, xüsusi görüşlər vasitəsilə təbliğat, kommunist yazıçı, ədib və şairlərin dəstəyindən istifadə, yeni "mədəniyyət və incəsənət"dən istifadə və s. kimi bir çox yollardan istifadə edirdilər. Bunların təfsilatı da – inşəAllah - qarşıdakı araşdırmalarda gələcəkdir!

## İKİNCİ MƏSƏLƏ: AZƏRBAYCAN XALQININ SOVET İŞĞALINA QARŞI MÜQAVİMƏTİ

Şəkk yoxdur ki, Azərbaycan xalqı sovet işğalına qarşı müqavimət göstərdi və dərhal təslim olmadı. Silahlı rus bolşevik qüvvələri 1920-ci ilin aprel ayının 27-si Azərbaycana daxil oldular və müstəqil Azərbaycan dövlətini işğal etdilər. Həmin vaxtda Azərbaycan ordusu iki qismə bölünmüşdü: onlardan az bir qismi şimal sərhəddində qalmışdı, ordunun əksər hissəsi isə Rusiyanın əliylə xaos yaradılan qərb bölgəsinin  Qarabağ istiqamətinə göndərilmişdi. Belə bir xaos vəziyyətində rus bolşevik ordusu şimal istiqamətindən gələrək Azərbaycan sərhəddini keçdilər. Onların sayları 60.000 nəfərə çatırdı. Bəzi mənbələrdə isə onların saylarının 70.000 nəfərə çatdığı qeyd olunmuşdur. Azərbaycan ordusunun sayı isə olduqca az idi və ordunun əksəriyyəti mərkəzdən uzaqda idi. Ordunun bu çoxluq hissəsi ermənilərin qərb istiqamətində çıxardıqları üsyana son qoymaq üçün səfərbər olmuşdular.

Şimal sərhəddində baş verən döyüş təxminən iki saat davam etdi. Sonra isə tərəflərin qeyri-bərabərliyi şəraitində iki saat sürən döyüş nəticəsində Azərbaycan ordusu sayca böyük ordu qarşısında məğlub oldu.

Azərbaycan ordusunun məğlubiyyətindən sonra Azərbaycanın bəzi bölgələrində sovet işğalına qarşı bəzi üsyanlar baş verdi. İşğaldan bir ay əvvəl ilk üsyan şöləsi Şuşa şəhərində yarandı. Bolşeviklər bu üsyanı yatıra bildilər. Təxminən eyni günlərdə müqavimətçi etirazçılar Ucar şəhərindəki və Bərgüşad məntəqəsindəki dəmir yolunu bağlamağa cəhd etdilər, lakin heç bir şeyə nail olmadılar. İşğala qarşı çıxan etirazçılar Azərbaycanın paytaxtı Bakıda da işğalçılara qarşı müqavimət planı hazırlamışdılar. Lakin, bolşeviklər bu xəbəri bildilər, onlarla vuruşdular və etirazçılar məğlub oldular.

**Kommunistlərə qarşı "Qarabağ üsyanı":** Azərbaycanın bəzi

məntəqə və şəhərlərinin əhalisi də mübarizə aparmaq məqsədilə bir neçə dəfə çıxdılar, lakin məqsədilərinə çatmadılar. Bununla da "Qarabağ" bölgəsində bolşeviklərə qarşı ilk üsyan başladı. Xüsusən də Qarabağ bölgəsində Azərbaycanın erməni silahlılarına qarşı müqavimət göstərən zabit və əsgərləri yeni sistemə qarşı öz nifrətlərini bu sistemə qarşı silahlı üsyanda görürdülər. O zamanlar Qarabağ bölgəsinin Şuşa şəhərində 300 nəfərlik silahlı dəstə formalaşmışdı. Bu bölgədəki problemli vəziyyət axırda partlayış verdi. May ayının 11-i Tərtər şəhərinin əhalisi işğalçı "qırmızı ordu" üzərinə hücum edərək onlardan 80 nəfəri qətl etdilər. Həmin dəstənin komandiri Naumov da qətlə yetirildi. Bu üsyan Azərbaycandakı kommunist bolşeviklərinə qarşı edilmiş ən böyük üsyan idi.

Üsyanın genişlənməsinin qarşısını almaq üçün rus bolşevik ordusu təcili tədbirlərə əl atmalı oldu və Gəncə şəhərindən Qarabağa atlı dəstələr göndərildi. Lakin, erməni qüvvələri xəyanət edərək düşmən tərəfinə keçdilər və üsyançılara qarşı düşmənə yardım etdilər; bununla da Tərtərdə vəziyyət stabilləşdi.

**Kommunistlərə qarşı Zaqatala üsyanı:** 1920-ci ilin iyun ayında Zaqatalada yerləşən Azərbaycan ordusunun azsaylı qüvvələri Sovet işğalçılarına qarşı üsyana qalxdılar.

Bu hərəkat "Qırmızı ordu" qüvvələrinin məntəqədə etdiyi özbaşınalığa son qoymağa və bütün məntəqəni sovet sistemindən xilas etməyə çalışırdı. Üsyançıların sayı Hafiz Əfəndinin rəhbərliyi altında 1000 nəfərə çatırdı. Üsyançılar Zaqatalada "Qırmızı ordu" qüvvələrindən xeyli əraziləri geri aldılar və on gün ərzində bir çox əraziləri azad etdilər. Lakin, "Qırmızı ordu"ya kənardan gələn yardımçı qüvvələrdən sonra vəziyyət kommunistlərin xeyrinə dəyişdi və üsyana son qoymağı bacardılar.

**Kommunistlərə qarşı Gəncə üsyanı;** 1920-ci ilin may aylarının sonunda Gəncə əhalisi ölkədə insanların məcburi şəkildə

kommunizmə məcbur edilməsinə etiraz etdilər. İşğalçıların üzərinə Gəncə əhalisindən 10.000 nəfər yürüdü. Bu üsyanın arxasında Azərbaycan ordusu və işğalçı ordudan kiçik bir hissə var idi. Bir həftə sonra yardımçı qüvvələrin və ermənilərin köməyi ilə üsyan yatırıldı. Hər iki tərəfdən 20.000 nəfər öldürüldü. Gəncə əhalisindən də 20.000 nəfər öz vətənini tərk etməli oldu.
1920-ci ilin yayında Şəmkir və Quba şəhərlərində, Muğam bölgəsində kommunistlərə qarşı üsyanlar başladı. Bu üsyanlara çətinliklə, hər iki tərəfdən qurbanlar verilərək son qoya bildilər.

**Lənkəran-Astara üsyanı:** Bu üsyan Azərbaycanda kommunistlərə qarşı ən böyük üsyanlardan biri idi. Üsyançıların sayı altı minlə on min arasında olardı. Bu üsyan yayda başlamış, qışa kimi davam etmişdi. Lakin, üsyançılar kommunistlərə yardımçı qüvvələrin gəlməsindən sonra uğur qazana bilməmişdilər. Bu hadisədən on il sonra Şəki və Zaqatala şəhərlərində Sovet zülmünə qarşı böyük bir üsyan başladı. Lakin qüvvələrin qeyri-bərabərliyi nəticəsində üsyançılar tezliklə məğlub oldular. Bütün bu üsyanlar nizamlı deyildi, nə bir-birinə dəstək vermirdi, nə də koordinasiyası yox idi. Ona görə də tezliklə bu üsyanlara son qoyuldu. Necə ki, şair demişdir:

Nizələr toplanarsa, qırılmaqdan üz döndərər!

# İKİNCİ ARAŞDIRMA: CƏMİYYƏTLƏRİN, İTTİFAQLARIN VƏ MUZEYLƏRİN İNŞASI:

**Birincisi:** Ateizmə dəvət məqsədilə cəmiyyətlərin və ittifaqların inşası; 1924-cü ildə Sovet ittifaqında "Allahsızlar ittifaqı" təsis edildikdən sonra başqa sovet ölkələrində də bu cəmiyyətin şöbə və cəmiyyətləri təsis edildi. Azərbaycan da bu ölkələrdən biri idi. Tədqiqatçılar qeyd edirlər ki, 1924-cü ilin yanvar ayında Azərbaycan Kommunist partiyasının siyasi şöbəsi tərəfindən dinə qarşı komitə yaradılmışdı. Bu komitə Azərbaycanın şəhər və kəndlərində "Ateist cəmiyyətləri"nin formalaşmasına səy göstərmişdi. 1929-cu ildə dinə qarşı mübarizə artır və eyni ildə "Allahsızlar cəmiyyəti"nin adı dəyişdirilərək "Mübariz Allahsızlar ittifaqı" qoyuldu[1].

Artıq birinci fəsildə "Allahsızlar ittifaqı" haqqında danışarkən 1923-cü ildə təsis edilmiş "Maddiyyatçılar klubu" adlanan təşkilat haqqında qısa məlumat vermişdik. Bu klubun əsas məqsədi dini fikirlərə qarşı maddiyyatçı (ateist), marksist, leninist fikirlərlə mübarizə aparmaq, xalqın müxtəlif təbəqələri arasında, müxtəlif mühazirə zallarında ateizm təbliğatı məqsədilə mühazirə və çıxışların təşkili, öz yazı və söhbətlərini qəzet və jurnallarda yaymaq idi[2].

Artıq kitabda işarə edilmişdir ki, bu qurum Azərbaycanda "Allahsızlar ittifaqı"nın təsis edilməsindən əvvəl ateistləri bir araya toplayan ilk qurum olmuşdur. Lakin, "Maddiyyatçılar klubu" qurumunun özündən bir il sonra təsis edilən "Allahsızlar ittifaqı" kimi şəhər və kəndləri əhatə edən çalışma və fəaliyyətləri olmamışdır.

---

[1] Məqalə: Azərbaycan sosialist respublikasında Sovet mədəniyyətinin formalaşdırılması və "Mədəniyyət inqilabı"nın mahiyyəti. Vahid Ömərov. Sesqazeti.az

[2] Azərbaycanda mədəniyyət inqilabı. (1920-1940). Vəkilov Mehdixan. Səh. 87. Bakı. 2005.

Azərbaycanda 1924-cü ildə təsis edilən "Allahsızlar ittifaqı"na tabe olan şöbə və cəmiyyətlərin yalnız böyük şəhərlərdə güclü fəaliyyəti mövcud idi. Amma digər uzaq kənd və qəsəbələrdə fəaliyyətləri zəif idi; ola bilsin ki, bunun səbəblərindən biri də ateistlərin təsir dairəsindən uzaqda yaşayan kəndlərin əhalisinin daha dindar olmasıdır. Lakin, şəhərlərin əhalisi ateistlərə daha çox qarışır, onların ateizmə çağıran təbliğatlarından daha çox təsirlənirdilər.

Sovet dövründə ateistlərin yazdıqları kitablardan da onların kənd əhalisinin ateizm təbliğatını qəbul etməmələrindən dolayı şikayətlənmələri aydın şəkildə müşahidə olunur.

Bəzi ateizm cəmiyyətləri hökumət idarələrinin və universitetlərin daxilində təsis edilirdi. Bəzi cəmiyyətlər fəhlə və əkinçilər kimi işçi sinifləri arasında təsis edilmişdi. Hətta məktəblərdə belə "maddiyyatçı klublar" var idi.

Ateistlər ittifaqının tabeliyində olan cəmiyyətlərin öhdəçiliyinə daxil olan işlərdən; ictimai zallarda ümumi mühazirələrin təşkil edilməsi, oraya çoxlu sayda vətəndaşların cəm edilməsi, "elmi ateizm" haqqında söhbətlərin edilməsi - hansı ki, dini maddiyyatçı nöqteyi-nəzərdən izah edirdi - İslami bayramların tənqidi, şirk və bidət əhlinin əməllərindən olub dinlə əlaqəsi olmayan xurafatlar və s. idi. Əgər mühazirə zalında qadınlar da iştirak edərdilərsə, onlar qadınlar arasında "İslamda qadın haqları və s." mövzularda şübhələr gətirməyə çalışırdılar.

Eyni zamanda da ateist cəmiyyətlərin öhdəliklərindən; zamanın gərəyinə görə tədris üçün yeni kitab və kitabçaların paylanması idi, o baxımdan ki, o zamanda internet yox idi və kitablar ən yaxşı vasitələrdən hesab edilirdi.

Ateizm cəmiyyətlərinin öhdəliklərindən biri də az həftələr ərzində kurslar təşkil edərək kursu bitirənlərə diplomlar vermək

idi. Elə 1925-ci ildə baş tutmuş kurslar kimi; bu kurslarda 48 nəfər tələbə arasından 38 nəfər tələbə kursu bitirə bilmişdi.

İkinci dünya müharibəsindən sonra "Allahsızlar ittifaqı"nın elə də bir aktivliyi yox idi. Hətta bəzi tədqiqatçılar demişdilər ki: "Allahsızlar ittifaqı" özü-özünü ləğv etmişdi. Bundan sonra Kommunist partiyasındakı bəzi məsul şəxslər bu "Mübariz Allahsızlar ittifaqı"nın yerini tutacaq cəmiyyətin bərpasına ehtiyac gördülər. 1947-ci ildə Azərbaycanda "Maarif" cəmiyyəti[1] quruldu. O cəmiyyət ki, öz fəaliyyətini ateizmi təbliğ etmək məqsədilə kitab və kitabçaların çap edilməsi, ateizmi yaymaq üçün yeni kitabların nəşri, xüsusilə də insanlar arasında "elmi ateizm"in yayılmasına sərf edirdi.

**Üçüncüsü: Muzeylər;** həqiqətən də sovetlər birliyi dönəmində muzeylər kommunist ateizminin təbliği üçün ən mühüm vasitələrdən biri idi. Lakin, burada böyük muzeylər çox deyildi, əsas məqsədləri kiçik muzeylərin qurulması idi; Məktəblərdəki maarifləndirmə muzeyləri, yaxud da ictimai yerlər ki, çox vaxt bu cür muzeylər xüsusi künclərdə təşkil edilirdi və elə də böyük bir yer tutmurdu.

**"Ateizm və Din tarixi" muzeyi;** Azərbaycanın paytaxtı Bakı şəhərində dinə qarşı mübarizə kampaniyası altında "Ateizm və Din tarixi" adlı muzey dinin tarixini araşdırmaq, məsələlərini öyrənmək, dini insanların böyük kütləsinin gözündən salmağa yardımçı olacaq mənfi nümunələrin vasitəsilə dinin rolunu geriçilik kimi göstərmək və s. hədəflər üçün tikilmişdi. 1938-ci

[1] Müəllif bu cəmiyyət haqqında birinci fəslin ikinci araşdırma mövzusunda bəhs etmişdir.

ildə muzeyi ziyarət edənlərin sayı 38.000 nəfərə çatmışdı[1].

Bu tarix muzeyin qurulma tarixi deyil. Bu tarix muzeyin ziyarətçilərinin artdığı tarixdir. Muzeyin yaranma tarixi isə 1935-ci ilə təsadüf edir. Muzey, Azərbaycan SSR-nin "Milli Elmlər Akademiyası"na tabe idi[2].

Muzeydə sərgilənən tarixi əşyalar, ləvazimatlar və eksponatlara gəldikdə bütün bunlar müxtəlif insanlardan və müxtəlif yerlərdən yığılmışdır. Muzeydə Qurani-Kərimin, tövrat və incilin qədim nüsxələri mövcuddur. Eyni zamanda muzeydə müxtəlif dinlərə məxsus rəmzlər olan qədim pul sikkələri, qəpiklər, kiçik və böyük formalı heykəl və bütlər, bütpərəstlərə aid digər rəmzlər və s. də sərgilənirdi. Həmçinin orada qədim İslami kitablar, yəhudi və xristian kitabları da var idi. Həmçinin, muzeydə dinə qarşı olan qəzet və jurnallar, Azərbaycan rəssamlarının dini tənqid etmək məqsədilə çəkdikləri dini rəsimlər də sərgilənirdi. Muzeydəki ekspanat və əşyaların sayı üç mindən çox idi.

**"Ateizm tarixi" muzeyi**: Bu muzey 1967-ci ildə Azərbaycan SSR nazirlər sovetinin qərarı ilə təsis edilmişdir. 1990-cı ildə muzeyin adı dəyişdirilərək "Azərbaycan Dövlət Din Tarixi" muzeyi qoyulmuşdur.

Amma bu muzeydə nümayiş etdirilən ekspanatlara gəldikdə isə bu ekspanat və əşyalar eynilə 1935-ci ildə təsis edilən "Ateizm və Din Tarixi" muzeyindəki ekspanatlar qəbilindən idi. Həmçinin, nümayiş üçün nəzərdə tutulan eksponatların əksəriyyəti qədim əlyazmalar idi. Ona görə də bu eksponatların əksəriyyətini qorunma məqsədilə nümayiş etdirilməsi mümkün olmurdu. Nümayiş edilən dini ekspanatların əksəriyyəti isə xristianlığa aid

---

[1] İzvestiya qəzeti. Az.fan. Rusiya. 1979. No: 3. səh. 50.

[2] Azərbaycan "Milli Kitabxanası"nın saytından götürülmüş məqalə. Arif Muradovun məqaləsi. 14-cü abzas. Məqaləyə keçid üçün link: http://www.anl.az/down/meqale/az _muellimi/2011/aprel/170485.htm

idi. Eyni zamanda orada müxtəlif illərdə nəşr edilmiş Qurani-Kərim nüsxələrinə də rast gəlmək mümkün idi. Muzeydəki ekspanatların sayı təxminən dörd minə çatırdı.

Gəncə şəhərində bu muzeyə bənzər bir muzeyin inşası da planlaşdırılmışdı"[1].

Bu iki muzey Azərbaycan SSSR-də ateizmi təbliğ edən ən böyük muzeylər idi. Lakin, Sovet ittifaqından ayrılıb müstəqillik əldə etdikdən sonra bu iki muzeyin adı - daha öncə işarə edildiyi kimi - dəyişdirildi və "ateizm" sözü də bu adların tərkibindən çıxarıldı. Sonradan bu muzeylərdən bir çox kommunist ekspanatları çıxarıldı, xüsusilə də xalqa sovet müstəmləkəçiliyini xatırladan ekspanatlar aradan götürüldü.

Sovet ittifaqı zamanında "Dinə qarşı muzeylər vasitəsilə mübarizə" adlı bir məqalə yazılmışdı[2]. Çünki, bir təbliğat vasitəsi kimi istifadə edilmədiyi zaman mücərrəd olaraq muzeylərin tikilməsi kommunistlərə bir fayda vermirdi.

Artıq qeyd olundu ki, məktəblərdə, universitetlərdə və hökumət idarələrində muzeylər təşkil edilmişdi. Cəmiyyət daxilində də kiçik muzeylər şəklində "ateizm küncləri" təşkil edilmişdi.

[1] Məqalə : Allahsızlığın Azərbaycana gəlişi. Fizuli Sabiroğlu. Azvizion.az saytı. Məqaləyə keçid üçün link: https://azvision.az/news/12459/allahsizligin-azerbaycana-gelisi-%E2%80%93-arasdirma-fotolar.html

[2] Molla Nəsrəddin jurnalı. no: 1. səh.5, 9, 16. 1931-ci il.

## ÜÇÜNCÜ ARAŞDIRMA: TƏLİM VASİTƏSİ:

Sovet işğalı zamanı Azərbaycan məktəbləri iki cür idi; dini və dünyəvi məktəblər. Əksər məktəblər isə dünyəvi məktəblər idi .

Bu bölgü işğal edilmiş Azərbaycan cümhuriyyətindən miras qalmışdı, hansı ki, onun hərbi xidmətində xüsusi "hərbi molla" vəzifəsi var idi[1].

Bütün bunlar Azərbaycan cümhuriyyətinin İslamın təliminə diqqət göstərməsinə dəlalət edir .

Lakin təəssüflər olsun ki, müstəqillik müddəti iki illik bir zaman kəsimini üstələmədi. Bundan sonra isə dinə qarşı zorakılıq illəri gəldi. Təriqətindən asılı olmayaraq bütün İslami dərslər qadağan edildi. Həmçinin, ərəb dilində yazılmış kitablar qadağan edildi. Sonra Azərbaycan əlifbası üç dəfə dəyişikliyə məruz qaldı[2]. Bununla xalqın milli və dini kimliyini unutdurmaq istəyirdilər. Bu, Sovet müstəmləkəçilik siyasətinin tərkib hissələrindən biri idi.

Bəzi tədqiqatçılar deyirdilər ki, Sovet dövrünün faydalarından biri onların təlim və tədris sahəsində uğur qazanmaları idi. Bu şübhəyə və "sovet dövründə digər sahələrdə baş vermiş inkişaf haqda şübhəyə" kitabın birinci fəslində daha ümumi bir cavab

---

[1] Bu vəzifə "hərbi molla" adlanırdı. Dövlət bu vəzifəyə xüsusi diqqət yetirirdi və "hərbi molla"ya nəzarəti isə Müdafiə nazirliyi həyata keçirirdi. Bu vəzifədə olan şəxs dini cəhətdən savadlı olmalı, əsgərləri arxasınca aprmağı bacarmalı, Allaha dəvətçi olmalı, bəlağətli danışıq sahibi olmalı, yaşı iyirmi beşdən az olmamalı, elmdə tanınmış adamlardan tərifnaməsi olmalı idi. Daha ətraflı oxumaq üçün bax: Cümhuriyyət ordusunda "hərbi molla" vəzifəsi təsis olundu. Zaur Əliyev, dosent. canveten.az saytı. həmçinin: Ednews.net saytı. Məqaləyə keçid üçün link: http://canveten.az/az/print/id-2889

[2] Bu haqda kitabın girişində (ərəbcə orjinalında) "Azərbaycan SSR-də ictimai durum" mövzusundan bəhs edilərkən, birinci abzasda, səh 26-da danışılmışdır.

verilmişdir[1].

Amma, təlim və tədrisdə uğurların qazanılmasına gəldikdə, bu, zamanın gərəyi olan normal bir prosses idi. Əgər Sovet imperiyası olmasaydı belə, yenə də Azərbaycan təhsilinin böyük ehtimalla gözəl bir gələcəyinin olması gözlənilirdi. Çünki, Azərbaycan cümhuriyyətinin hakimiyətdə olduğu müddət sübut edir ki, o vaxt ölkədəki məsul şəxslər  müxtəlif sahələrdə Azərbaycanın xeyrinə böyük işlər görmüşdülər, bu sahələrdən biri də təhsil sahəsi idi. Onların Azərbaycan təhsilinin gələcəyi haqda mühüm layihələri var idi. Lakin, bu layihələr işğal səbəbilə gerçəkləşmədi.

***İkinci nahiyədən isə*** kommunist təhsil sistemi dinə qarşı müharibə etdi, maddiyatçı nəzəriyyəni təlim-tədris sisteminə daxil etdi və ateist tərbiyəsini yeni nəslin beyninə yeritməyə çalışdı. Sovet sistemi bütün qüvvəsini sərf etdi ki, dindən bütünlüklə daha uzaq olan yeni bir nəsil yetişdirməyə nail olsun.

Elə bu məqsədlə də maddiyyatçı fikirləri və nəzəriyyələri dəstəkləyən yeni kitablar yazdırdılar. Həmçinin, dərslik kitablarından biologiya, zoologiya, botanika, tarix, fəlsəfə, riyaziyyat, astronomiya, fizika və s. kitabları yenidən maddiyyatçı təfəkkür üzərində yazdırdılar ki, bu yolla müsəlman gənclərin beynində ateist təfəkkürünü yerləşdirə bilsinlər və onları dinlərində şübhəyə salsınlar.

1923-cü ildə Azərbaycanın "Milli Kitabxana"sı inşa edilir. Onlar hətta kitabxanaları belə ateizm təbliğatının bir hissəsinə çevirməyə çalışmışdılar. Buna 1937-ci ildə Qulu Məmmədov tərəfindən yazılan "Kütləvi kitabxanalarda bədii ədəbiyyat vasitəsilə elmi-ateizm təbliğinin formaları" kitabı da dəlalət edir.

[1] İkinci Məsələ: Sovet ittifaqı zamanında Azərbaycanda ateizmin inkişafı və möhkəmlənməsi. Bax: Eyni fəslin birinci araşdırma mövzusuna.

Beləcə kommunistlər Çarlz Darvinin fikirlərini və onun "Təkamül nəzəriyyəsi"ni biologiya, zoologiya, botanika və başqa elmlərə daxil edib yaydılar. Gəncləri də məktəb və universitetlərdə bu elmləri (təkamülə uyğun şəkildə) öyrənməyə məcbur etdilər. Çünki, Darvinin nəzəriyyəsi ateist maddiyatçılığını dəstəkləyirdi. Bu nəzəriyyə ateist-kommunist maraqlarına xidmət edirdi. Məsələn; Şagirdlərdə ateist baxış və əqidənin formalaşmasında biologiya elmlərinin rolu"[1] kitabının müəllifi kitabın müqəddiməsində şagirdlərə biologiya elmlərinin əhəmiyyəti və təsiri haqda danışır. Sonra o bəzi ateistlərin bu elmləri öyrənməyə rəğbətləndirən sözlərini qeyd edir. Hətta o, Krupskaya[2]nın bu sözlərini də qeyd edir: "Bütün imkanları səfərbər edərək böyük insan kütlələri təbiətin tarixi ilə əlaqədar olan elmlərlə tanış etmək lazımdır...Çünki, bu elmlər dini qalıqların təsirinin qarşısını alır və bu vasitə dinə qarşı təbliğatda ən yaxşı vasitələrdən biridir"[3].

Müəllif bu kitabda məktəblərdə təlim-tədris prossesi əsnasında ateizmin təbliği metodlarını tövsiyə edir və müəllimlərə öz tələbələrinə necə təsir etmələri gərəkdiyini, onlara təbiət elmləri vasitəsilə necə ateizm tərbiyəsi verəcəklərini və onları necə şübhəyə salacaqlarını öyrədirdi.

Müəllif kitabın əvvəlindən axırına kimi ateizmin yayılması üçün müxtəlif metod və vasitələrin istifadə edilməsinə rəğbətləndirirdi. Allaha şükürlər olsun ki, bu cür kitablar

---

[1] Novruzov. 1973. Kitabın adından başqa verilən məlumatlar yalnız bunlardır. (Bax: Milli Kitabxana).

[2] Nadejda Krupskaya. (1969-1939) Tam adı: Nadejda Konstantinovna Krupskayadır. Bolşevik rus inqilabçı və siyasi fəal olmaqla yanaşı 1898-ci ildən Vladimir Leninin vəfatına kimi (1924) onun həyat yoldaşı olmuşdur. Sovet ittifaqında 1929-cu ildən 1939-cu ilə kimi – vəfat etdiyi tarixə kimi - təhsil nazirinin müavini vəzifəsində çalışmışdır. Wikiwand – نادیجدا کروبسکایا

[3] Ateizm tərbiyəsinin məsələləri. Krupskaya. səh. 30. Azərnəşr. Bakı. 1965.

kitabxanaların rəflərində qalıb, üzərini toz alıb, nəzərlərdən kənarda qalıb və diqqət göstərilmir.

Bu dövrdə ateizmi təbliğ edən başqa kitablar da var idi; "Tarix kitablarında ateizm tərbiyəsi"[1] Bu kitab tarix dərslərində ateizm tərbiyəsinin əhəmiyyətindən, təlim sahəsində ateizm tərbiyəsinin xüsusiyyətlərindən və vasitələrindən danışırdı. Kitabın üslubu tədricən başlayaraq müəllim və şagird arasında tarixi məsələlərə aid dialoq qurmağı, müəllimin hər hansı bir fürsət tapan kimi tələbələrinə necə şübhələr atacağını öyrədirdi. Eyni kitabın müqəddiməsində müəllif qeyd edir ki, təqdim edilən kitab tarix kitablarından istifadə etməklə ateizmi təbliğ etmək sahəsində müəllimlərə praktiki yardım göstərmək məqsədilə hazırlanmışdır. Həmçinin, bu kitabda sovet ittifaqının orta məktəblərində tarix elminin tədris proqramının üslubunun tələblərinə uyğun olaraq tarixi proseslər, hadisələr ateist nəzər nöqtəsindən şərh və təhlil edilirdi. Müəllif müəllimlərə mühazirə əsnasında sual verməyə və təkrarlamağa aid olan bir qisim tövsiyələrini edirdi. Eyni zamanda öz tələbələrinə tarix elmini ateizm prizmasından başa salmaq üçün metodiki tövsiyələr verirdi.

Müəllif din haqqında tarixi şübhələr gətirməyə, tarixin müxtəlif dövrlərindən saxta və uydurma misallar çəkməyə,həmçinin dinə qarşı yüngül dəlillər gətirməyə səy göstərirdi. Bunda isə bəşərin yaranmasının tarixinə baxmaq lazım idi. Şəkk yoxdur ki, bu araşdırmada kommunist ateistlərinin istinad etdikləri mənbələrə müraciət edilmişdir. Onlar tarixin öyrədilməsində maddəçiliyin şərhinə və qanunda olan "səbəb-nəticə" əlaqəsinə daha çox diqqət göstərirdilər. Qəribə olanı bu idi ki, bu cür kitablar öz ehtivasına görə "səbəb-nəticə", səbəb və səbəb olan və s. qanunları qəbul etmişdilər. Lakin, o zaman ki, eyni "səbəb və nəticə" qaydasından Allahın varlığına dəlillər gətirirsən, onlar bunu inkar edirlər.

---

[1] Mehdiyev. Bu kitabı 19/07/1961 tarixində Azərbaycan SSR-də "Təlim və tədris ədəbi" nəşr evi iki min nüsxədə çap etmişdi.

Onların məktəb şagirdlərinə Azərbaycanın tarixini öyrətdikləri zaman ən çox diqqətləri yönəltdikləri məsələlər[1]: "Azərbaycanın müsəlman ərəblər tərəfindən fəth edilməsi, Abbasi xilafəti və onlara qarşı üsyan etmiş məzdəkilər, həmçinin xürrəmilər, onların lideri Babək əl-Xürəmi[2], Azərbaycandakı bəzi zındıqlıq hərəkatları, tarix boyu bu iqlimdə mövcud olmuş bəzi zındıq və dinsizlərin həyatının tədrisi məsələləri idi.

Riyaziyyat elminə gəldikdə isə heç bir şey əldə etməsələr belə əllərindən gələn bütün vasitə və metodları yoxladılar. Riyaziyyat sahəsindəki şübhələri uğur qazanmadı, bu sahəyə aid ateistlərin yazdıqları kitablardan biri də "Riyaziyyatın tədrisində ateizm tərbiyəsi"[3] kitabı idi.

Bu kitabda rəqəmlər və qəribə hesablarla oyun oynadılar. İddia

---

[1] Bu məlumat kommunist kitabların mütaliəsinə isnad edən araşdırmaçının rəyinə əsasən kommunistlərin Azərbaycan tarixindən bəhs etdikləri zaman İslam əleyhinə daha çox şübhə və ya ittiham kimi önə sürdükləri məsələlər olmuşdur.

[2] **Babək əl-Xürrəmi:** İslami mənbələrdə "yol kəsən, quldur dəstəsinin başçısı, etiqadında çoxlu küfrlər olan zındıq, kafir" olaraq fəaliyyəti vəsf edilmişdir. Sovet dövrü tarixçiləri və sonradan gələn bəzi yerli tədqiqatçılar tərəfindən isə onu "xalq qəhrəmanı" kimi qələmə vermək cəhdləri olmuşdur. Baxmayaraq ki, yerli tədqiqatçılardan da onu mühüm bir şəxs hesab etməyənlər az olmamışdır. Məlum olan isə budur ki, "Babək əl-Xürrəmi Abbasi xilafəti zamanında xəlifə Məmuna qarşı çıxmış, iyirmi il xilafətə qarşı üsyan etmiş, sonda məğlub olmuşdur. Roma hökmdarı Abbasiləri zəiflətmək məqsədilə Babəkə dəstək vermişdir. "Xürrəmilik" sözü isə batinilik firqəsinə aid bir sözdür, hansı ki, kökü məcusi və məzdəki əqidələrinə gedib çıxır. Onlar qadınların bərabər bölüşdürülməsinin gərəkdiyinə inanırdılar. Xürrəmilik əyləncə düşkünlüyünə (soytarılıq), vecsizliyə, ləzzətlərə və şəhvətlərə tabe olmağa bağlı idilər". (Bax: İslama nisbət olunan müasir firqələr və İslamın onlar haqda mövqeyinin bəyanı. Dr. Ğalib Avaci. 2-ci cild. Səh. 499-500. Dərul-Asimə. 9-cu nəşr. Hicri 1432-ci il).

[3] Müəllif: Hüseyn Nəbiyev. İlk dəfə 1983-cü ildə 4000 tiraj ilə nəşr edilmişdir.

etdilər ki, guya Riyaziyyat dinə qarşıdır. Quran və hədislərdə varid olmuş rəqəmlərdə səhvlər tutmağa cəhd etdilər. Rəqəmlərlə bağlı hər məsələdə şübhələr atmağa çalışdılar. Hətta, Adəmin və Nuhun yaşı haqda rəqəmlərə toxundular. Hətta eyni yuxarıda qeyd olunan kitabda Nuhla birgə onun gəmisinə minən heyvanların sayı haqda da şübhə atmağa çalışdılar.

Ümumilikdə araşdırmaçı bir kimsə görə bilər ki, ateistlərin Riyaziyyat elmindən dinə qarşı etiraz üçün atdıqları şübhələr əsasən yəhudi və xristianlardan götürülmüşdür. Məsələn; 666 və 999 kimi rəqəmlər, bidət əhlində müşahidə etdiyimiz kimi - bəzi rəqəmlərin müqəddəsləşdirilməsi və ya rəqəmlərə (7,12,40,120 rəqəmləri və s.) həddən artıq diqqət göstərilməsini, yaxud da xristianlıqda olduğu kimi 13 rəqəminin nəhs rəqəm hesab edilməsi kimi misalları göstərmək olar. Hansı ki, insaflı bir araşdırmaçı İslam dininin digər dinlər kimi rəqəmlərə bağlı bir din olmadığını, rəqəmlərdə həddi aşan, yaxud da rəqəmləri müqəddəsləşdirən din olmadığını görə bilər. İslamda rəqəmlərdən istifadə var, lakin rəqəmləri müqəddəsləşdirmə yoxdur. İslamda rəqəmlərə xüsusi münasibət var. Əksinə, insaflı araşdırmaçı şahidi ola bilər ki, xalis İslamı yaşayanların bəzi xurafatçı, mövhümatçı dindarlar kimi rəqəmlərlə oynamaq kimi bir alüdəçiliyi yoxdur. Hətta yuxarıda riyaziyyat haqda adı keçən kitabda belə yunan fəlsəfəsinə aid "ədalət və sağlamlıq" rəqəmləri gətirilərək dini rəqəmlər kimi təqdim edilmişdir. Eyni zamanda həmin kitabda ateist müəllif sehrbaz və kahinlərin istifadə etdikləri rəqəmləri, rəmzləri belə nəql edərək dinə aid etməyə səy göstərmişdi. Halbuki, sehrbazlıq və kahinliyi din qadağan edir. Yaxud da din daxilində mahiyyətini anlamadıqları rəqəm istifadəsi hallarını dəxli olmayan mənalara yozaraq kommunistlərin rəğbətini qazanmaq üçün bu cür kitablar yazmışdılar.

Bu ateistlərin dünyəvi elmlər haqda qafil qaldıqları mühüm bir nöqtə də var; o da onların dünyəvi elmlərin "nə üçün?" sualına cavab verə bilmədiyini dərk etməmələridir. Halbuki, dünyəvi elm yalnız "necə?" sualına cavab verə bilər, o da öz sərhədləri

çərçivəsində ola bilər. Bəli... Bu, "necə?" sualının dövrəsindən kənara çıxa bilməyən elmin sərhədləri, elmin ehtiva etdiyi sahədir. Çünki, mücərrəd olaraq maddəni və zərrəni öyrənən bir elm möhtəşəm, böyük bir kainatın "nə üçün?" yaranması sualına cavab verə bilməz və bu o elmin sərhədlərini aşan bir sualdır, nə də o elmin predmeti deyil. O sərhədlər ki, hər bir elmin kənara çıxa bilməyəcəyi müəyyən sərhədləri vardır. Belə olduğu halda kiçik bir maddəni araşdırmaqla necə ola bilər ki, böyük bir aləmin, hətta aləmlərin necə yaradılmasına qərar verilsin!?

Kommunistlər ədəbiyyat və şeir sahəsində kitablar yazdılar, dinə qarşı görünən şeirləri, məsəlləri, hekayələri və başqa şeyləri topladılar. Bu kitablardan;

- "Azərbaycan dramaturgiyasında ateizm motivləri",
- "19-cu əsr Azərbaycan şeirində dini zülmün ifşası",
- "Azərbaycan xalqının şifahi ədəbiyyatı və ateizm tərbiyəsi"[1],
- "Azərbaycan yazıçılarının ateizm kitabları"[2],
- "Azərbaycan xalqının şifahi ədəbiyyatında dini əxlaqın tənqidi"[3]
- "Azərbaycan adətlərində dinə qarşı mübarizə motivləri"[4] və s. bir çox kitablar var idi ki, bu kitablar müəllim, mütəfəkkir, yazıçı, tələbə və başqa təbəqələrdən olan insanların oxuması üçün planlaşdırılmışdı.

Bütün bu kitablar Sovet ittifaqı dövründə təlim-tədris sahəsində dinə qarşı müharibənin nə qədər geniş vüsət aldığına dəlalət edir. Eyni zamanda "elmi ateizm"lə əlaqədar onlarla kitablar var ki, onların adları birinci fəsildə qeyd edilmişdir[5]

---

[1] 1984-cü ildə nəşr edilmişdir. Müəllif: Səfər Ələkbərovdur.

[2] Nəşr edilmə tarixi və nüsxələrin sayı qeyd edilməmişdir.

[3] 1973-cü ildə Bakıda "Bilik" nəşriyyatında nəşr edilmişdir. Müəlliflər: Səfər Ələkbərov və Cəlal Nuhovdur.

[4] Kitabın üzərində: "Mühazirəçilərə yardımçı kitabça" yazılmışdır. 1975-ci ildə Bakıda nəşr edilmişdir. Müəllif: Səfər Ələkbərovdur.

[5] Birinci araşdırmanın ikinci məsələsi. "Sovet ittifaqı zamanında

## DÖRDÜNCÜ ARAŞDIRMA: TƏRBİYƏ VASİTƏSİ.

"Kommunist tərbiyəsi" məzmun etibarilə özündə ateizm elementlərini, həmçinin inqilabçılıq fikirlərini də ehtiva edirdi. Bu inqilabçılıq daha çox kommunistlərin ilkin uğurlarına söykənirdi. Ateizm elementləri isə kommunizmə dəstək vermək üçün kommunistlərə lazımlı idi. Ümumiyyətlə kommunist tərbiyəsi sağlam insan fitrətinə müxalif olan çox şeyi özündə ehtiva edirdi. "Kommunist partiyası" və kommunist ateizmi bu ateist tərbiyəsinin təşkilatçısı idi. Leninin də öz çıxışında işarə etdiyi kimi ateizm tərbiyəsi onların işlərinin əsas hissələrindən biri idi. Lenin demişdi: "Ateizm təbliğatı mütləq şəkildə bizim təbliğatımıza daxildir"[1]. İnqilabçılıq fikrinə gəldikdə isə bu haqda demişdir: "Kütlələrin tərbiyəsi həqiqi tərbiyədir və heç vaxt bu tərbiyəni müstəqil siyasi mübarizədən, xüsusən də inqilabçı mübarizədən ayırmaq mümkün deyil. O mübarizə ki, kütlələr bunu özü aparır. Doğurdan da yalnız mübarizənin özü istismarçı təbəqəni tərbiyə edir, təkcə mübarizənin özü kütlələrə öz güc-qüvvəsinin həcmini göstərir"[2].

Kommunistlər dini əxlaq və onun mahiyyətini sinfi (təbəqələrə görə) olduğunu, bu əxlaqın sanki insanları bir-birindən ayırdığını düşünürdülər. Onlar sovet-kommunist əxlaqlarını dini əxlaqlardan üstün tutmağa çalışırdılar.

Kommunist tərbiyəsi "yeni sovet insanı modeli"ni formalaşdırmağı hədəfə almışdı. O insan modeli ki, kommunist hədəfi və işi uğrunda öz insani duyğularından əl çəkməyə hazır olmalı idi. Sovet insanının amalı insani hislər və duyğulara diqqət

---

Azərbaycanda ateizmin yayılması və möhkəmlənməsi" mövzusu.

[1] Ateist tərbiyəsinə Kommunist partiyasının rəhbərliyi. Müstəcəb Muradov. səh. 3.

[2] Leninin "Pravda" qəzetindəki məqaləsi. no: 18. İlk dəfə 1925/01/22 tarixində nəşr edilmişdir.

göstərmək deyildi. İnsanın daxilinin dərinliklərində və zahirində bəşəri fərqlərin olmasına baxmayaraq, sovet insanı bu fərqlərə diqqət yetirməli deyildi, əksinə onun məqsədi yalnız işləmək və sosializmə xidmət olmalı idi. Halbuki, tərbiyə prossesində insani duyğulara fikir verməmək insanları, onların zəkalılarını və bacarıqlarını da zay edir.

Bu fəsildəki araşdırmanın sonunda - Allahın yardımıyla - Sovet imperiyasının süquta uğraması səbəbləri arasında ateist tərbiyəsinin qüsurlarını qeyd edəcəyik. Bu o tərbiyədir ki, insanların qəlbində böyük bir mənəvi boşluğun və şiddətli sıxıntının yaranmasına səbəb olmuşdu. Bu elə bir tərbiyədir ki, insanın ruhundan qafil qalır, maddəyə fikir verir. Bu tərbiyə dünyaya fəlakətlər gətirən tərbiyədir.

**Kommunist-ateist tərbiyəsi nədir?**

**Cavab:** Bu tərbiyə qadının həyasını ondan "azadlıq" adı altında alan tərbiyədir. Əslində isə ona azadlıqdan bir şey vermir.

Bu tərbiyə İslam dinini qadını şəxsi mülkə çevirməkdə ittiham edir, özü isə qadının övladlarını kommunist dövlətin şəxsi mülkünə çevirməyə məcbur edir.

Bu tərbiyə az qala bütün kitab və məqalələrində hayqırır ki: "dini əxlaqlar proletrarları (işçi qüvvələrini) özünə cəlb etmək üçün bir silahdır"[1].

Bu tərbiyə hər vəchlə cəmiyyətdə dini əxlaqların həqiqətini təhrif etməyə və aradan qaldırmağa səy göstərir.

Bu tərbiyə İslamın doğruluğunu tənqid edir, yalançı istəkləri qəbul edir və hər bir haramı etdirir. Onlara görə "qayə vasitəni keçərli edir". Fridrix Engels demişdir: "Əgər kommunist

[1] Əxlaq və din. Mühazirəçilər üçün yardım vəsaiti. Prokofey. səh. 8. 1954.

mübarizəçi vəziyyətin tələbinə uyğun olaraq öz əxlaq və davranışlarını dəyişərək yalandan, aldatma və hiylədən istifadə edə bilmirsə, deməli o həqiqi inqilabçı mübarizəçi ola bilməz"[1].

Onun bundan daha şiddətli sözü var, hansı ki, dünyada kommunizm tərbiyəsinin təhlükəsini bəyan edir. Lenin ədəbiyyatçı Maksim Qorkiyə yazdığı məktubda belə deyirdi: "Dünya əhalisinin 3/4 hissəsinin ölməsi bir şey deyil. Əsas olan odur ki, qalan 1/4 hissəsi kommunist olsun"[2].

Deməli, bu ötənlərdən aydın olur ki, proletar cəmiyyətin əxlaq görəvini yerinə yetirdikcə və varlığını qoruduqca yalan, aldatma, qətl, hiylə və bənzəri şeylər kommunistlərə görə əxlaqi fəzilətlərdir.

"Ateist tərbiyəsinin əsasları"[3] kitabında müəllif ateist tərbiyəsinin əsas qayə və vəzifələrinə işarə edir, kitabın əvvəlində belə deyir: "Kommunist tərbiyəsinin mühüm tərkib hissəsindən biri də bütün mənfi hallara qarşı mübarizədir, məsələn; kommunizmdən kənar etiqadlara qarşı mübarizə, insanların fikirlərində və davranışlarında onların əxlaqlarını və keçmişin qalıqlarını (din və s.) üzə çıxarmaq..."[4]. Bu sözdən belə aydın olur ki, dinə qarşı mübarizə kommunist-ateist tərbiyəsinin əsas təməllərindən biridir.

Necə ki, bu kitabın özündə "Elmi ateizm tərbiyəsinin təməlləri və mövzuları" adlı fəsildə elmi ateizm təbliğatının elmi, insani, həyatla bağlı, müxtəsər, mübariz, davamlı, kütləvi və geniş şəkildə" olması üçün üçün əsas təməllərdən bəhs edilmişdir.

---

[1] Kommunizm. Muhəmməd ibn İbrahim əl-Həmd. səh. 60. "İbn Xuzeymə" nəşriyyatı. ər-Riyad. 1423.
[2] Eyni məsdər. səh. 61.
[3] Müəlliflər: Mikayıl Məmmədov və Maqsud Cəlilov. səh. 6. Azərbaycan dövlət nəşriyyatı. Bakı. 1989.
[4] Eyni mənbə, kitabın müqəddiməsi.

Kitabda ateizm tərbiyəsinin ehtiva etdiyi mövzulara (məzmununa) gəldikdə bunun dörd şeylə olacağı vurğulanırdı:

1 - İctimai dəstək və dünyəvi bilgilər.
2 - Əqli və elmi olması.
3 - İctimai-ədəbi və ya əxlaqi olması.
4 - Psixoloji və emosional olması[1].

Əslində isə onların bu məsələdə sabit bir qaydaları və yaxud da ateist tərbiyəsini çərçivəyə alan bir düsturları yox idi. Yalnız Karl Marksın və Fridrix Engelsin kitabları və bu ikisindən sonra onları təqlid edən Leninin fikirləri var idi. Ona görə də kommunistlərin tərbiyəsi mövzusunda yalnız kommunist tayfasının dinləri inkar edən və dinlərə qarşı müharibə edən, mülkiyyətdə sosializm (bərabərlik) və ağılları bu qanunlara güc və təziq yolu ilə diqtə etdirən bir neçə kitabı mövcud idi.

• **Ateizm tərbiyəsini Azərbaycanda yaymağa gəldikdə isə** kommunist ateistləri bir neçə addımlar atmışdılar:

**Birincisi:** *Kommunizm zəhərinin məktəb və universitetlərdə gənclərə yönəldilməsi.*

**İkincisi:** *Kommunizm zəhərinin hökumət idarələrində çalışanlara, proletar müdürlərə və işçilərə (fəhlələrə) yönəldilməsi.*

**Üçüncüsü:** *Kommunizm zəhərinin insanların ümumi kütləsi olan ən zəif təbəqəsinə yönəldilməsi.*

Çox vaxt da gənclərin və tələbələrin təhsili üçün nəzərdə tutulan təyin olunmuş təhsil proqramlarında[2], kitablarında sovet

---

[1] Eyni mənbə. səh 145.
[2] Bu araşdırma mövzusunun sonunda kommunistlərin tələbələrə və

ittifaqını dəstəkləyən şair, yazıçı, siyasətçi və digərlərinin həyatını, tərcümeyi-halını özündə əks etdirən bilgilərə xüsusi diqqət yetirilirdi. Baxmayaraq ki, Azərbaycan tarixində o şəxslərdən daha mühüm şəxsiyyətlər olmuşdur. Lakin, təəssüf ki, bütün bunlar Sovet ittifaqının bu proqram daxilində Azərbaycanda ateist tərbiyəsini yaymaq, "elmi ateizm" maddələrini tədris etmək məqsədinə xidmət edən bir siyasəti idi.

Ateizm tərbiyəsi vermək və ateizm təbliğatını gücləndirmək məqsədilə kommunistlər konfranslar təşkil edərək öz batil təbliğat işlərinə davam edirdilər; qeyd edilən illərdə və başqa bir çox vaxtlarda bəzi konfranslar təşkil edilmişdi: 1971, 1972, 1973, 1979, 1989, 1983 və s. Onların ən mühüm konfranslarından biri də Azərbaycanın cənubi-qərbində yerləşən Naxçıvan şəhərində 1982-ci ilin mart ayında keçirilmiş "Ateist tərbiyəsinin yaxşılaşdırılması məsələləri"[1] adlı konfransdır.

Hökumət idarələrindəki vəzifəlilərə gəldikdə isə onların əksəriyyəti qorxudan, yaxud da istəyərəkdən ateist kimi görünürdülər. Proletarların müdürləri və işçiləri də "yeni sovet modelinə uyğun insan" olmaq üçün insanlara təsir etməyə çalışırdılar.

Şəhər və kənd əhalisinə dinsizliyi təbliğ etmək üçün mühazirələr təşkil edilir və əhali bu toplantılarda iştirak etməyə dəvət edilirdi. Bəzi məntəqələrdə "gecə mühazirələri" təşkil edilmişdi. Necə ki, 1983 və 1985-ci illər arasında Qax şəhərində təşkil edilən belə mühazirələrin sayı 1200 mühazirədən çox idi[2]. Həmçinin başqa bir neçə şəhərlərdə də, məsələn; Naxçıvan, Şəki, Salyan və s. bir çox mühazirələr təşkil edilmişdi.

---

qeyrilərinə ateist tərbiyəsi vermək məqsədilə yazdıqları bəzi kitabların adları verilmişdir.

[1] Ateist tərbiyəsinə Kommunist partiyasının rəhbərliyi. Müstəcəb Muradov. səh. 21. Mühazirəçilərə yardımçı vəsait. Bakı. 1985.

[2] Eyni mənbə. səh 32.

Bütün bunlar müxtəlif təbliğat vasitələrindən və metodlarından istifadə etmək üçün edilirdi; gah mühazirələr, gah kinolar, gah kitab paylamaq, gah radio və televiziyada dəvət, gah da fərdi görüşlər və s. yollara baş vurulurdu.

• **Həmin dövrdə kommunist ateizminə dəvətin ən mühüm vasitələrindən biri də kitablar idi:**

1926-cı ildən 1932-ci ilə kimi Azərbaycanda yerli müəlliflər tərəfindən qırx kitab və kitabça yazılmışdı. Ateist Əlipaşa Əliyev özünün "İncəsənət və Din" adlı kitabında qeyd edirdi ki, "1963-cü ildən 1965-ci ilə kimi "Azərnəşr" mətbəəsində çoxlu kitablar nəşr edilmişdi və həmin mətbəənin xidmətlərini çox təqdirəlayiq hesab etmiş, Azərbaycanda ateizm ruhlu kitabxananın formalaşmasında həmin mətbəənin səylərindən bəhs etmişdi".

*Bu qeyd olunan kitablar*[1] *sovet ittifaqı zamanında "ateizm tərbiyəsi" haqda yazılmış bəzi kitablardır:*

***1 -*** *Əxlaq və Din. (Mühazirəçilərə yardımçı vəsait). Prokoyev. 1954-cü il .*
***2 -*** *Gənclərin ateist tərbiyəsində komsomol təşkilatlarının vəzifələri. Abdullah Əhədov. 1959.*
***3 -*** *Tarix kitablarında ateist tərbiyəsi. Mehdiyev. 1961.*
***4 -*** *Məktəblərdə*[2] *biologiya dərslərində elmi ateizm tərbiyəsi. (Müəllimlər üçün metodiki vəsait). Fərzəlibəyli. 1961.*
***5 -*** *Azərbaycanın şifahi xalq ədəbiyyatında dini əxlaqın tənqidi. Cəlal Nuhov. 1978.*
***6 -*** *Məişət, adətlər və ateizm tərbiyəsi. Maqsud Cəlilov. 1983.*
***7 -*** *Riyaziyyatın təlimində ateizm tərbiyəsi. Hüseyn Nəbiyev.*

---

[1] Bu qeyd olunan kitabların hamısı Azərbaycanın M.F.Axundov adına Milli Kitabxanasında mövcuddur.
[2] Kitabdakı "məktəblər" sözündən məqsəd səkkizillik məktəblərdir ki, burada təlim-tədris prossesi səkkiz il ərzində tamamlanırdı.

*1983.*

**8 -** *Azərbaycan şifahi xalq ədəbiyyatı və ateizm tərbiyəsi. Səfər Ələkbərov. 1984.*

**9 -** *Ateizm tərbiyəsinə Kommunist Partiyasının rəhbərliyi. Müstəcəb Muradov. 1985.*

**10 -** *Ateizm tərbiyəsinin əsasları. Maqsud Cəlilov və Mikayıl Məmmədov. 1989.*

**11 -** *Ateizm tərbiyəsi və dini qalıqların aradan qaldırılması vəzifələri. Müəllif və nəşr tarixi qeyd olunmayıb.*

# BEŞİNCİ ARAŞDIRMA: MƏDƏNİYYƏT VƏ FİKİR YOLUYLA ATEİZM TƏBLİĞATI

*Mədəniyyət və incəsənət vasitələrilə ateizmi yaymağın rolu, kommunistlərin bu sahədən istifadə etmələri;* Kommunistlər öz batillərini yaymaq üçün - istər müasir, istər də qədim olsun - bütün vasitə və metodlardan istifadə edirdilər. Ona görə də kommunistlər ateizmi yaymaqda mədəniyyət və fikir sahəsinin əhəmiyyətini başa düşmüşdülər. Bu səbəbdən də 1930-cu ildə "Mübariz Allahsızlar ittifaqı"nda keçirilmiş konfransda belə bir qeyd etmişdilər: "Sovet insanında elmi-maddəçilik baxışının formalaşması ilə yanaşı, onun mədəni və fikri səviyyəsinin yüksəldilməsi, onun dini duyğusunun aradan qalxması nəticəsində yaranan mənəvi boşluğu isə mədəni məzmunla doldurmaq vacibdir"[1].

Bəzi elmi kəşflər həmin dövr üçün yeni olması ilə yanaşı Sovet ittifaqı dövrünə təsadüf etmişdi. Şəkk yoxdur ki, ateizmi yaymaq üçün ən güclü vasitə əllərində olan hakimiyyət və iqtidar idi. Digər vasitələrə gəldikdə isə onlardan bəziləri bunlardır:

**Birincisi: Kinolar vasitəsilə ateizmi yaymaq;** Sovet ittifaqı hakimiyyətinin başlanması ilə ateist filmlərinin çəkilməsinə start verilmişdi. 1924-cü ildə Azərbaycanda dini tənqid etmək məqsədilə "bayquş" adlı ilk film çəkildi. Bu film Azərbaycan cəmiyyətində Sovet ittifaqı hakimiyyətinin qurulmasının ilk illərində müxtəlif təbəqələr arasında gedən "sinfi mübarizəni" vəsf etməyə çalışırdı. Bu film dinə yenilik (bidət) gətirən din xadimlərini, onların tamahkarlarını, din adı altında insanlara hiylə-kələk gələnləri vəsf edirdi.

1925-ci ildə isə "Bismillah" adlı başqa bir film çəkildi. Lakin, bu film İslamı ümumi şəkildə tənqid edir, din xadimlərini həcv

---

[1] İncəsənət və Din. Əlipaşa Hacıvəli oğlu Vəliyev. səh. 14. Bakı. 1966; Həmçinin bax: Leninin əsərləri. 35/102.

edir, onları aşağılayır, onları xain və xurafatçı olaraq vəsf edirdi. Bu filmin məzmunu da bundan öncəki ildə çəkilən filmin məzmununa bənzəyirdi.

Sovet ittifaqı dövrünün yetmiş ili ərzində onlarla ateist filmləri çəkilmişdi. Bunlardan: "Qurban bayramı" (1931-ci il), "Adətlərin məhvi" (1934-cü il)[1], "Yeni muzey" (1938-ci il)[2], Səbuhi (1941-ci il)[3], "Mollanın macəraları" (1960-cı il), "Sonuncu namaz" (1963-cü il) filmlərini misal çəkmək olar.

Ən məşhur filmlərdən biri də 1979-cu ildə çəkilmiş "Babək"[4] filmi idi. Bu film Azərbaycan SSR-də çəkilmiş ən bahalı film idi. Bu filmə 1.650.000 rus rublu xərclənmişdi. Bu məbləğ bu günkü Amerika dolları ilə 24 milyon dollara bərabərdir[5].

Bu filmlərdən biri də 1979-cu ildə çəkilmiş İmadəddin Nəsimi filmidir. O, hürufi-batini hərəkatının nümayəndəsi olan şairlərdən idi. Hansı ki, dövrünün İslam alimləri onun küfrünə fətva vermişdilər. Abbasi xilafəti zamanında öldürülmüş və dərisi soyulmuşdu. Bu film dövrünün alimlərinin "mülhid" (dinsiz, ateist, zındıq) hesab etdiyi bu şəxs, yəni İmadəddin Nəsimi haqqında çəkilmişdi. Çünki, onun küfr dolu sözlərilə İslam dairəsindən çıxdığını qeyd edirdilər. Sovet hökumətinin məsul şəxsləri bu şair haqda bir filmin çəkilməsini çox münasib və məqsədəuyğun hesab edirdilər.

---

[1] Bu film həmçinin "İsmet" adı ilə da tanınır.

[2] Bu film Azərbaycan SSR-nin Elmlər Akademiyasının tabeçiliyində olan "Din Tarixi" muzeyi haqqında danışırdı. Bu muzeyin "Ateizm guşəsi" var idi. Filmdən aydın olur ki, bu filmi Bakıdakı "Xan qəsri" yaxınlığında "Allahsızlar ittifaqı" tərəfindən təşkil edilmişdir.

[3] Bu film kitabın birinci fəslində tərcümeyi-halı qeyd olunmuş ateist Mirzə Fətəli Axundovun həyatından bəhs edir.

[4] Babək əl-Xürəminin tərcümeyi-halı kitabın bu fəslinin 3-cü araşdırmasının 4-cü səhifəsində verilmişdir.

[5] Filmin linki bu keçiddədir: https://youtu.be/W6bP3XlbyiA

Bu dövrdə çəkilmiş filmlərdən ateizmyönlü fraqmentlər, həmçinin dinin bəzi hissələrini təhqir və ya tənqid edən fraqmentləri özündə ehtiva edən bir çox filmlər çəkilmişdi. Məsələn; "Sehirli xalat" (1964)[1], Yeddi oğul istərəm" və başqa filmlər də çoxdur.

**İkincisi: Şəkillər və rəsimlər vasitəsilə ateizm .**

Şəkillər və rəsimlər dinə qarşı çox vaxt gülüş doğuran və istehzalı formada hazırlanırdı. Bundan məqsəd bir şəxsi və ya müəyyən şəxsləri həcv etmək idi. Bu rəsimlər "karikatura" adlanırdı. Sovet ittifaqı zamanında bəzi rəssamlar "karikatura" rəsimləri çəkməklə tanınmışdılar. Onlardan biri də Əzim Əzimzadə[2] idi.

[1] Bu filmdə pianer (kommunist) şagird guya əyninə sehirli bir xalat geyinən kimi dərhal keçmiş zamana səyahət edir, keçmişdə olan müsəlman padşahlardan birinin sarayına düşür, padşahı ətrafındakı vəzirləri və köməkçiləri ilə bərabər şiddətli səfehlik və cəhalət üzərində olduqlarını görür, pianer (kommunist) şagird isə onların qarşısında "ağıllı və zəkalı" kimi təsəvvür olunur. O, padşahın sarayında öz ətrafında olan hər kəslə istehza edir və guya hər kəsi aciz qoyur. Sonra isə bu şagird sehirli xalatı geyinərək müasir dövrə qayıdır. Müasir dövrdə getdiyi muzeydə o saqqallı bir kişi və niqablı bir qadın maketi ilə qarşılaşır. Onun yanındakı digər azyaşlı qız şagirdi deyir: "Mənim nənəm də muzeydəki kimi niqablı idi". Oğlan şagird də qız şagirdə deyir: "Mənim nənəm də öz niqabını 8 martda yandırmışdı". Filmdə bəzən də görürsən ki, cahil padşah pioner (kommunist) şagirddən sehirli xalatı oğurlayır, sonra xalatı geyinərək müasir dövrə gəlib düşür və görkəminə görə insanlar arasında gülüş obyektinə çevrilir. Bax beləcə.... Bunun kimi başqa videolar da çoxdur. Bu cür filmlər olduqca təhlükəli idi. İnsanların duyğularında hiss olunmadan İslamın heybətini aparan bu cür təhlükəli filmlər çoxdur. Filmin linki bu keçiddədir: https://youtu.be/rLOdYssCPy8

[2] *Əzim Aslan oğlu Əzimzadə, (1943-1980); Azərbaycanlı rəssam.* O, 1927-ci ildə Azərbaycan xalq rəssamı adını almışdı. Həmçinin o, Azərbaycan SSR-də karikatura rəssamlıq mədrəsəsinin banisi idi. Həmçinin də ateist idi.

O, dinə qarşı yüzlərlə rəsimlərin müəllifi idi. Onun dinə qarşı şiddətli düşmənçiliyini bildirən bu sözü var idi: "Rəssamlıq sənətindəki ilk günümdən başlayaraq din adamlarına qarşı mübarizə aparmaq qərarını verdim və bunu qarşıma məqsəd qoydum"[1].

1931-1933-cü illərdə "Kommunist" qəzetində Səttar Bəhlulzadənin[2] çəkdiyi rəsimlər dərc edilirdi.

O, Əzimzadənin tələbələrindən idi. O da həmçinin rəssamlıq sənətinə din əleyhinə çəkilmiş "karikatura" rəsimləri ilə başlamışdır. O, dindarları aşağılayır, onları dəlilikdə ittiham edir, onları xurafatçı və sehrbaz hesab edirdi [3].

Həmçinin, otuzuncu illərdə (1930-40) "Allahsız" jurnalında rus, azəri və s. dillərdə din əleyhinə şəkillər, rəsimlər nəşr edilirdi .

"Molla Nəsrəddin" jurnalında da din əleyhinə karikatura rəsimləri paylaşılırdı. Baxmayaraq ki, bu rəsimlərin əksəriyyəti dinin özünü deyil, xurafatçı və bidətçi dindarları tənqid edirdi. Lakin, bu rəsimlər ateist nöqteyi-nəzərindən və kommunist fikirlərini dəstəkləmək üçün çəkilirdi.

1952-ci ildə nəşrə başlayan "Kirpi" jurnalı karikatura rəsimləri ilə dini tənqid etmək üçün bir çox rəssamları Sovet ittifaqının süqutuna kimi (1990) cəm etmişdi.

---

[1] İncəsənət və Din. Əlipaşa Hacıvəli oğlu Vəliyev. səh. 14. Bakı. 1966.

[2] Səttar Bəlulzadə: Səttar Bəhlul oğlu Bəhlulzadə (1909-1974). O, Azərbaycan rəssamlıq məktəbinin ən seçilən rəssamlarından olmuşdur. 1963-cü ildə Azərbaycan xalq rəssamı adını almışdı.

[3] Həmin dövrdə bəzi din xadimlərində bu kimi sifətlərin, xüsusən də xurafatçılıq mövcud idi. Lakin bunu bütün dindarlara şamil etmək ədalətdən olmazdı. Xüsusən də çəkilən rəsimlər əgər din əleyhinə olarsa, o zaman rəssamın mövqeyi dindarların xurafatlarını tənqiddən dinin özünü, xüsusən də İslamı tənqidə keçdikdə problem buradan yaranır.

**Üçüncüsü: Media vasitəsilə ateizm;** Media müxtəlif vasitələri ilə bərabər - televiziyada, radioda, qəzet, jurnal və səhifələrdə - din əleyhinə istifadə edilən bir silah idi. Elektron mediaya gəldikdə isə bu haqda "Azərbaycanda müasir ateizm" fəslində danışacağıq.

***Televizora gəldikdə:*** bu vasitə kommunizmin pislik arabası və şərlərinin daşıyıcısına çevrilmişdi. Televiziyada ateist filmləri, kommunist ateizminin mühüm şəxsiyyətlərinin və liderlərinin küfr sözləri yayılırdı. Televiziya proqramları da Allahın şəriətindən uzaq və ona düşmən olan yeni nəsil gənclərin yetişməsinə dəstək verirdi. Kommunistlərin "İncəsənət və Din" kitabında televiziyanın əhəmiyyətindən belə bəhs edilir: "Dindarlara media vasitələri, kitablar, kitabçalar və məqalələr çatmır, və yaxud da (gəlib çatsa da) onlara az təsir edir. Lakin, filmlər, xalq tamaşaları və klublar bundan tamamilə fərqlidir[1].

Televizor il boyunca kommunizmin əsas təməllərini davamlı şəkildə təkrarlayır, insanların ağıllarında kommunizm ideologiyasının möhkəmlənməsinə xidmət göstərirdi.

***Radioya gəldikdə isə:*** burada da kommunizm təbliğatı, dinə qarşı mübarizə, Leninin kommunistlərə tövsiyə etdiyi kimi "dinin aradan getdiyi zamanda onu incəsənətlə əvəz etmək" planları kimi eyni problemlər yaşanırdı.

İnternetin geniş yayılmadığı bir zamanda radionun böyük bir əhəmiyyəti var idi. Bu xidmətin ucuz başa gəlməsi radionun Azərbaycan cəmiyyətində yayılmasına səbəb olmuşdu.

"Dinə qarşı mübarizə cəbhəsinin genişləndirilməsinin vacibliyi" kitabında Y.Yaroslavskinin SSSR-in "Allahsızlar ittifaqı"nın ümumi konfransında etdiyi bu çıxış qeyd olunmuşdur: "İndiki

---

[1] İncəsənət və Din. Əlipaşa Hacıvəli oğlu Vəliyev. səh 14. Bakı. 1966.

vaxtda radio vasitəsilə edilən (ateizm təbliğatı) güclənmişdir. Radio stansiyası da bizim bütün mühazirələrimizi böyük bir şövqlə Sovet ittifaqı daxilində yayır"[1].

Azərbaycanlı araşdırmaçı Müstəqil Ağayev həmin dövrdə Azərbaycanda ateizmi təbliğ edən digər qəzet, jurnal və səhifələrin adlarını qeyd edərək demişdir: "Azərbaycanda çap olunan" Hümmət", "Dəvət-Qoç", "Təkamül", "Yoldaş", "Bakinski Raboçi", "Bakinski Proletari", "Prizıv", "Ryadavoy" qəzetlərinin hamısı "Marksizmi" təbliğ edirdilər[2]".

[1] Dinə qarşı mübarizə cəbhəsinin genişləndirilməsinin vacibliyi. Y. Yaroslavski. səh. 8.1939.
[2] XX əsr Azərbaycan ictimai və siyasi fikrində din problemi. Müstəqil Ağayev. səh. 20. Bakı. 2008.

# ALTINCI ARAŞDIRMA: KOMMUNİSTLƏRİN AZƏRBAYCANDA UĞURSUZLUĞA DÜÇAR OLMALARININ SƏBƏBLƏRİ

Azərbaycanda kommunist təbliğatının uğursuzluğa düçar olmasının səbəbləri Sovet ittifaqının süqut etməsinin ümumi səbəblərinə bağlıdır. Əksər səbəblərin məzmunu kommunistlərin etdikləri icraatların insanların sağlam fitrətinə uyğun gəlməməsinə qayıdır. Bu isə kommunistlərin yalan və xülyalarının insanlara aşkar olması, Sovet ittifaqı rejiminin despotizmi, insanları öldürməsi və ya Sibirə və başqa yerlərə sürgün etməsi və başqa bir çox saysız cinayətləri ilə özünü biruzə verir. Bütün bunlar insanların psixologiyasında "kommunist rejimi"nə qarşı nifrət yaradırdı. Bunlar dəlalət edir ki, kommunizm düşmənlərin əli ilə süqut etməyərək öz adamlarının əli ilə süqut edəcək qədər aşağı bir sistem olmuşdur. Ehtimal olunan da budur; Kommunizmin təcrübə və tətbiq sahəsində uğur qazana bilməməsi və onların insanları bir şeyin həqiqi olmasını yalnız təcrübədən keçirdikdən sonra təsdiqləməyə çağıran ateistlər olmaları səbəbləri və s. Budur, kommunizmin həqiqi təcrübəsi, hansı ki onun ziyanlı, uğursuz nəticələrini istər iqtisadi, istər ictimai, istər siyasi, istər də dini və s. cəhətlərdən müşahidə etmək qaçınılmaz olmuşdu.

Kommunist rejimi hər bir nahiyədən bəşər övladının əsrlər boyu öyrəşdiyi bir çox (təməl) prinsiplərə, adətlərə, qaydalara qarşı müharibə edirdi. "Marksizmin Süqutu" kitabının müəllifi kitabında belə qeyd edirdi: "(Kommunistlər) həmin vaxt - qəti şəkildə - belə hesab edirdilər ki, onlar bəşəriyyətin taleyini həll edəcək qanunların sirlərini kəşf etmişlər və onlar sadəcə bu qanunları tətbiq etməlidirlər".

Sonra isə deyir: "Hətta o dərəcədə ki, onlar bunu həyata keçirmək üçün bir neçə milyon insanı qurban verməyi adi hesab edirdilər"[1]

---

[1] Marksizmin Süqutu. Vahiduddin Xan. Kitab urdu dilindən ərəbcəyə çevrilmişdir. Zafrul-İslam xanın tərcüməsi. səh. 36. "Asimət" nəşr evi. 1987.

Bəzi araşdırmaçılar demişlər: "Uzun sözün qısası; Kommunizmi çökdürən öz cəmiyyəti, iqtisadiyyatı və hakimiyyəti ilə birgə Kapitalizm olmuşdur. Kapitalizm konkret vasitələr və nailiyyətləri ilə etdiyini etmişdir"[1].

Lakin demək olar ki, bir çox səbəblər var idi ki, üst-üstə yığılaraq Sovet ittifaqının süqutu ilə nəticələnmişdir. Elə bu yerdə Sovet ittifaqı rejiminin süqut etməsinin bəzi səbəblərini qeyd etmək yerinə düşərdi:

**A) Kommunizmin sağlam fitrətlərə uyğun gəlməməsi;** Kommunistlərin mübarizəsi ilk günündən insanların fitrətinə zidd görünürdü. Necə ki, Uca Allah Qurani-Kərimdə buyurmuşdur: "Allahın insanlara – xəlq etdiyi şüurlu məxluq kimi verdiyi fitrət budur"[2]. İnsanın fitrətində olan əsas şeylərdən biri də Allaha iman və qayəsi uğrunda yaradıldığı Allaha ibadəti, tək Ona ibadət etməyi gerçəkləşdirməkdir. İnsanlara Allaha iman etməyi qadağan edən, Allaha inananlara qarşı müharibə edən bir rejim gəldiyi zaman sən onun hansı nəticələrə yol verəcəyini gözləyirsən ki? "Kommunizm" təcrübəsi sübut etdi ki, o nəinki inanclı insanlara, hətta qeyriləri üçün belə beynəlxalq bir rejim, düstur olmağa yararlı deyildir. Ona görə də "Kommunizm" haqda araşdırma edən bəzi tədqiqatçılar hesab edirlər ki, kommunizm təcrübəsi kommunizm əqidəsinin batil olduğunu sübut etdikdən sonra insanlar sekulyarizmi təcrübədən keçirməyə meyilləndilər, hansı ki, - sekulyaristlər kommunizmdə olduğu kimi dini bütünlüklə boğmur, baxmayaraq ki, sekulyarizm dini dünyadan (dünyəvi hökmlərə müdaxilə etməkdən) ayırır. Bu o demək deyil ki, sekulyarizm doğrudur. Əksinə, bunu deyən insan bəşər övladının

---

Bu kitab, Sovet imperiyasının süqutundan dörd il əvvəl yazılmışdır. Müəllif bu kitabda kommunizmin süqutunu vacib edən törədilmiş cinayətlərdən və edilmiş xətalardan danışmışdır.

[1] 1917-1992 - Atəş və buz. Qırmızı imperatorluq. Beşikdən qəbirə qədər. (bir neçə müəllifin yazısının məcmuəsi. Topladı: Hazim Sağiyə. səh. 302. "Hüsam" nəşr evi. Birinci nəşr. 1992.

[2] Rum surəsi. 30.

sağlam fitrətinə müxalif olmuş və insanları azdırmışdır.

Həqiqətdə isə yeganə doğru yol İslam yoludur, hansı ki, Allah onu öz dərgahında yeganə məqbul yol hesab etmişdir. Necə ki, Uca Allah Qurani-Kərimdə buyurmuşdur: "Həqiqətən, Allah yanında qəbul olunan din, İslamdır!" [1].

**B) Xalqları işğal etmək və onların müstəmləkə altında olmasını "parlaq şüarlar" altında gizlətmək;** Həqiqətən də müstəmləkə altında olan xalqlar bütün müstəmləkəçilərə nifrət edirlər; ona görə də bu xalqlar bu cinayətkar işğalçıları öz torpaqlarından təmizləmək üçün hər hansı bir fürsət gözləyirlər. Azərbaycanı Sovet kommunistlərinin işğal etməsi minlərlə azərbaycanlıların qətl edilməsi, minlərlə insanın Orta Asiyaya sürgün edilməsi hesabına başa gəldi. Tədqiqatçılar qeyd edirlər ki, Sovet işğalının ilk illərində cinayətkar Kommunist hakimiyyətini inkar edən 40.000-dən artıq azərbaycanlı qətlə yetirilmişdi. Xalqları müstəmləkə etmək məqsədilə "Xalqlar dostluğu" və başqa bir çox şüarlardan da istifadə edilirdi.

Xalqların bu müstəmləkəçilikdən bezginliyinə gəldikdə, bunu ümumi şəkildə vəsf etmək üçün "Çuxura düşmüş şər imperatorıuğu - Kommunizmin rəzalətləri" kitabının müəllifinin vəsf etdiyi kimi vəsf etmək kifayət edir. O kitabda demişdi:

"Bu uzun illər ərzində kommunizmin təməlləri öz zəhərlərini bütün insani dəyərlərə və təməllərə qarşı sızdırmışdı; Kommunizm dinlərə qarşı müharibə etmiş, ailələri dağıtmış, zinakarlığı, əxlaqsızlığı icazəli etmiş, insanların azadlığını əlindən almış, kommunist cəmiyyəti dəmir barmaqlıqlarla əhatə etmiş, cəmiyyəti başqa ölkələrdən ayrılığa salmış, yazıçı və mütəfəkkirlərə zülm, təziq etmiş, haqsızcasına insanların mal-mülkünü qəsb edib əlindən almış, milyonlarla günahsız insanları sürgün kamplarının və həbsxanaların zülmətinə salmış, yolunu

---

[1] Ali İmran surəsi. 19.

kəsən hər kəsi kütləvi məzarlıqlara gömmüşdü" [1].

**C) Adətlərə və inanclara qarşı vuruşan rejimdən xalqların bezginliyi;** xalqların qədim adətlərini məhv etmək kommunist-sosialist rejimin siyasətindən idi. Xüsusən də əgər bu adətlərin dinlərlə bir əlaqəsi var idisə, bu zaman həmin adətlər məhv edilərək yerinə kommunist düşüncəsinə uyğun olan və kommunizmin məqsədlərinə xidmət edən yeni adətlər gətirilirdi . Bu səbəb, uzun illər bu adətlər üzərində tərbiyə olunmuş insanların - istər İslamla əlaqəli adətlər, istər öz xalqlarının dinlərinə aid adətlər olsun - kommunistlərə qarşı nifrəti artırırdı. Adət və inanclara qarşı müharibənin məqsədi xalqların milli kimliyini məhv etmək və onları "yeni sovet insanı modeli"ni təmsil edən insanlara çevirmək idi.

**D) Kommunizmin qurucusunun yalanlarının üzə çıxması və Marksizmin kəhanətləri;** Karl Marksın öngörmələrinin həqiqi üzü ifşa olmuş və nəzəriyyəsi yerlə bir olmuşdu; Buna aid bəzi misallar verək:

**1 -** Həqiqətən də kommunizm üsyanı siyasi şəraitlərin və idarə olunan cızılmış planların nəticəsində əmələ gəlmişdi. Bu inqilab heç də kommunist liderlərin iddia etdikləri kimi "tarixə maddi izahvermə" nəzəriyyəsinin təzahürü deyildi. Əksinə, bu nəzəriyyə insanlara güc və məcburetmə yoluyla qəbul etdirilirdi ki, bu da insanların rəğbətindən dolayı deyildi.

**2 -** K.Marks öz nəzəriyyəsinə əsaslanaraq iddia edirdi ki, kommunizm inqilabı böyük sənayelərin azsaylı kapitalistlərin əlində cəmləşməsindən sonra meydana gəlir. Bununla da Kapitalist ölkələrdə burjuaziya və proletariya təbəqələri arasında kəsintisiz olaraq ixtilaf yaranır, hətta Kapitalist rejiminin

---

[1] Çuxura düşmüş şər imperatorıuğu - Kommunizmin rəzalətləri. dr. Eymən Əbur-Rus. səh. 3." Quran" nəşr evi. 2001. (ərəbcə).

bütünlüklə çevrilməsinə kimi vəziyyət pisləşir. Bununla da proletariya hakimiyyəti və istehsal vasitələrini təslim edir"[1]. Lakin, bu nəzəriyyə gerçəkləşməmişdir.

**3 -** Həmçinin, K.Marksın saxta öncəgörmələrindən olan sözlərindən biri də nəql olunur ki, o deyirdi: "Dünya sənaye və ticarətdə inhisarçılığa doğru gedir; o baxımdan ki, güclü sahibkarlar zəif sahibkarları yeyir, hətta bu inhisarçılıq bütün sənayelərdə kəsintisiz olaraq davam edir, sonda fərdi mülkiyyətin ləğv edilməsi ilə nəticələnir. Qəribə olan işin burasındadır ki, Rusiya bəzi məsələlərdə fərdi mülkiyyətə icazə vermişdi, maşın, ev və bəzi malların banklarda saxlanılması kimi[2]. Bu hal Sovet ittifaqının süquta uğramasından öncə açıq-aşkar formada mövcud idi.

**E) Fərdi mülkiyyəti ləğv edən rejiminin uğur qazanmaması;** Bu səhv Sovetlər ittifaqı dövlətinin ən böyük səhvlərindən biri idi. Karl Marks ağıllı ilə səfeh, çalışqan və tənbəl arasındakı fərqlərə diqqət yetirməmiş, şəxslər arasındakı fərdi bacarıq fərqlərinə fikir vermədən onların aylıq gəlirlərini eyniləşdirmişdi ki, bu hal işdə tənbəlliyə və ruh düşkünlüyünə səbəb ola bilərdi və olurdu da. Çünki, işçi düşünürdü ki, işin sonunda onun əməyinin bəhrəsini dövlət götürəcək və onu tənbəllərdən fərqləndirməyəcəklər. K.Marks öz nəzəriyyəsində insanların mal-mülk və s. toplamağa olan rəğbətini nəzərə almamışdı, hansı ki bu amil də kommunizmə qarşı insanlarda bir nifrət yaratmışdı. Necə ki, Uca Allah Qurani-Kərimdə buyurmuşdur: "var-dövləti də hərisliklə sevirsiniz"[3]. Haqq din olan İslam dini, bu dinin Pak və Uca olan Allah tərəfindən gəlməsinə şahidlik edən xəbərlərlə gəlmişdir. O, bəşər övladının fitri hislərini və duyğularını Biləndir!

---

[1] Kommunizm və ona qarşı İslamın mövqeyi. Prof. dr. Humud ibn Əhməd ər-Ruheyli. səh. 212. "Ulum vəl-Hikəm" Nəşr evi. 1-ci nəşr. Hicri.təq 1424.
[2] Öncəki mənbə. səh. 213.
[3] Fəcr surəsi. 20.

Miras haqqının ləğv edilməsi də həmçinin sosializmin problemlərindən biri idi, hansı ki, bu haqqı hətta qeyri-səmavi dinlər belə qadağan etməmişdilər. Bu haqqı qadağan etmək insanların duyğularına müxalif olmaq demək idi. Ona görə də ehtimal olunurdu ki, Sosialistlərin diqqətə almadığı bu məsələnin fırtınası da əks təsir olaraq meydana çıxsın.

**F) Sovet ittifaqının Əfqanıstanla müharibəyə başlaması;** Bu səbəbi bir çox tədqiqatçılar qeyd edərək vurğulayırlar ki, bu səbəb Sovet ittifaqı imperiyasının sütunlarının süqutunu tezləşdirən səbəblərdən idi. Bu müharibə Sovet evini silkələdi və onun zəifləməsinə gətirib çıxardı, sonda onun süqut etməsinin səbəblərindən birinə çevrildi.

**G) "Qırmızı Ordu"nun hakimiyyətinin axır günlərində Azərbaycanın paytaxtına daxil olması, günahsız insanları güllələyərək və tanklarla üzərilərinə gedərək insanları qanına qəltan etməsi;**[1] Bu səbəb Azərbaycanda Sovet ittifaqının süquta yetməsini tezləşdirən ən böyük səbəblərdən biri idi. Bu faciəvi hadisə ilə xalqın kommunistlərə nifrəti daha da artmışdı.

[1] Həmin gecədə, 1990/01/20 tarixində 171 Azərbaycan vətəndaşı qətlə yetirildi, bəzi insanların meyitləri Xəzər dənizinə atıldı. mənbə: 1990-cı il 20 yanvar faciəsi. Prof. Ziyadxan Nəbibəyli. səh. 33. Bakı. 2018. Həmçinin, deyilmişdir ki, həmin gecədə - cəsədləri daşınaraq dənizin dərinliklərinə atılanlarla birgə - öldürülənlərin sayı mindən çox idi. Onların da aqibətindən bu günə kimi bir xəbər yoxdur.

## Müəllifin Son Sözü

Kommunist ateizmi Azərbaycanda aşkar bir uğur qazanmasa da, bu təbliğat yetmiş il ərzində cəmiyyətə dərin bir təsir göstərə bildi. *Bu dərin təsirin Azərbaycan cəmiyyətinə dini cəhətdən mənfi təsirinin nəticələri aşağıda qeyd olunmuş aspektlərdən nəzərə çarpır:*

1 - Müsəlmanların əksəriyyətinin dini ayinləri və yaxud da şəriət hökmlərini bilməmələri.

2 - Namaz qılanların sayının azlığı və namaz qılmadan özünü İslama nisbət edənlərin çoxluğu.

3 - Azərbaycan cəmiyyətində İslami bayramların qeyd olunmasının bəzi dindar bölgələr xaric olmaqla (kütləviliyinin, bayram əhval-ruhiyyəsinin) elə də hiss olunmaması .

4 - Bir çox müsəlmanların sovet dövrünü iqtisadi və s. aspeklərdən təriflələməri.

5 - İnsanların əksəriyyətinin İslamın ərkanlarına (kəlmeyi-şəhadət, namaz, oruc, zəkat, həcc) ciddi riayət etməkdən uzaqlaşması.

Azərbaycandakı müsəlmanların üzərinə düşən isə bütün bu həqiqətləri bildikdən, Azərbaycan xalqının başına gələn bu qədər siyasi, ictimai və s. yadelli təziqlərin gəldiyini öyrəndikdən sonra öz xalqı, ölkəsinin vətəndaşları haqqında, xüsusən də onları İslama dəvət edərkən daha hikmətli olması, insanların islahına, hidayətinə İslam peyğəmbəri Muhəmməd  kimi həris olmasıdır! Unutmaq lazım deyil ki, hidayət də Allahın əlindədir. Necə ki, Qurani-Kərimdə uca Allah buyurur: "Şübhəsiz ki, sən istədiyini doğru yola yönəldə bilməzsən. Lakin, Allah istədiyini doğru yola yönəldər. O, doğru yolda olanları daha yaxşı tanıyır!" (əl-Qasas. 56).

Tərcümə tamamlandı: 2021/9/8.     Tərcümə etdi: Sahib Əsədov.

# İstifadə edilmiş ədəbiyyat


1 - Qurani Kərimin Azərbaycan dilinə tərcüməsi.

2 - Ateizm, din və cəmiyyət. Maqsud Cəlilov, Mikayıl Məmmədov, Pənah Mahmudov. "Azərnəşr". 1985.

3 - Məqalə: Babək hərkatının adı – "Xürrəm" nə deməkdir? Enter.news saytı.

4 - Fədaihul-Batiniyyə. Qəzali.

5 - Elm və İnnovativ Texnologiyalar jurnalı, no: 7. 2019.

6 - İmadəddin Nəsiminin həyatı və əsərləri. Azərbaycanın Mərkəzi kitabxanası. www.anl.az saytı.

7 - Azərbaycan Şərqşünaslığı jurnalı, Ziya Bünyadov. no: 1. 2009.

8 - İləmun-Nubəla bi-tarixi Hələb əş-Şəhbə. Muhəmməd Rağib ət-Tabbax əl-Hələbi. Hələb. 1925.

9 - Milli kitabxana. Xaqani Şirvaninin Seçilmiş əsərləri. "Töhfətül-İraqeyn" əsəri. Genderi.org saytı.

10 - XX əsr Azərbaycan ictimai və fəlsəfi fikrində din problemi". Müstəqil Ağayev. 2008-ci il. "Nurlan" nəşriyatı.

11 - Zərdab rayonunun rəsmi saytı: www.zerdab.com

12 - Kitabın adı (2018-1918) أذربيجان ومئوية التأسيس :Azərbaycan və onun qurulmasının 100 illiyi, dr. Emil Rəhimov. Bakı. "Şərq-Qərb" nəşriyatı.

13 - Ateist tərbiyəsinə (kommunist) partiya rəhbərliyi, Müstəcəb Muradov, Bakı. 1985-ci il.

14 - Məqalə: Azərbayacan SSR-də "mədəni inqilabın" mahiyyəti və sovet mədəniyyətinin formalaşması. Vahid Ömərov. "Səs qəzeti". sesqazeti.az saytı.

15 - Məqalə: "Allahsızlığın Azərbaycana gəlişi". Fizuli Sabiroğlu. Azvizion.az saytı.

16 - Məqalə: "Sovet modernizasiyası Azərbaycana lazım idimi?". Elman Fəttah. Arqument.az saytı.

17 - Məqalə: Azərbaycanda sovet ədəbiyyatı. Qan Turalı. kayzen.az saytı.

18 - Cəlal Abdullayevin əsərləri. 3-cü cild. "Ordubadinin əsərləri". Bakı. 2012.

19 - Dinə qarşı mübariz və cəsur adam" kitabı, Heydər Hüseynov.

20 - Azərbaycan dramaturgiyasında ateizm mövzuları. Bayram Hacıyev. 1972-ci il.

21 - Azərbaycan yazıçılarının ateizm əsərləri. Hacıyev.

22 - Şiyuiyyə və Movqiful-İslam minhə. Prof. Humud Ruheyli.

23 - Məişət və adətlər, ateizm tərbiyəsi. Maqsud Cəlilov.

24 - Ateizm tərbiyəsində Kommunist partiyasının liderliyi. Müstəcəb Muradov. 1985-ci il.

25 - Azərbaycanda mədəniyyət inqilabı (1920-1940). Vəkilov Mehdixan. Bakı. 2005-ci il.

26 - "Allahsızlar ittifaqının Azərbaycandakı fəaliyyəti". Bakı Dövlət Universitetinin İlahiyyat Fakultəsindəki Elmi Məcmuəsi.

Taleh Hacıyev. 2008-ci il. Aprel ayı. No: 9.

27 - Azərbaycanda iyirminci əsrin 20-30-cu illərində etnokonfessional şərait və onun xüsusiyyətləri. Şəhla Novruzzadə. Bakı. 2007.

28 - Azərbaycanda antiislam təbliğatı və onun metodları. Ceyhun Hacıbəyli. Münxen. 1954.

29 - İşçi ateistlər dərnəyi üçün dərslik. Birinci hissə. Bakı. 1929. Azərnəşr.

30 - Stepdəki əzan səsləri. Benniqson Quelquey. Tərcüməçi: Nezih Özal. İstanbul. 1981.

31 - Məqalə: "Sovet dövründə Azərbaycanda on il dinə qarşı mübarizə". Duyunski. "İnqilab və mədəniyyət". 1930-cu il. no: 4.

32 - Dinə qarşı mübarizənin genişləndirilməsi. Yaroslavski. 1939.

33 - Kommunizm və Din. Y.Yaroslavski. 1938 (azərbaycanca).

34 - Azərbaycan Respublikası Dövlət Siyasi Partiyalar və İctimai Hərəkatlar Arxivi – Altay Göyüşov. ARDSPİHA.f.1.siy.77.iş.32-36

35 - Azərbaycan SSR-də "mədəni inqilabın" mahiyyəti və sovet mədəniyyətinin formalaşması. Fəlsəfə üzrə fəlsəfə doktoru Vahid Ömərov. Sesqazeti.az saytı.

36 - İbn Mənzurun "Lisanul-Arab" kitabı.

37 - Firuzabadinin "əl-Qamus əl-Muhit" kitabı. Dəməşq çapı. Hicri 1433-cü il .

38 - Muhəmməd Əbdül-Qadirin "Muxtar əs-Sihah" kitabı. Hicri

1430-cu il.

39 - Mucəm əl-Luğət əl-Arabiyyə əl-Muasirah. Hicri 1429-cu il.

40 - əl-Mucəm əl-Vasit lüğət kitabı. Qahirədəki "Ərəb dili" mərkəzi. "Dəvət" nəşr evi. 1431-ci hicri il.

41 - Kommunizm və Din. Yem Yaroslavski. 1928-ci il. Azərbaycan dilində.

42 - Məqalə: "Sovet ittifaqı zamanında Azərbaycanda din". Azinform.az saytı.

43 - Marksizmin iflası إفلاس الماركسية Əhməd Hüseyn. Misir "Darul-Vəfa" nəşr evi. Hicri 1410. Birinci nəşr (ərəbcə).

44 - Dini qalıqların aradan qaldırılmasında kommunist tərbiyəsi və onun vəzifələri. 1929-cu il. Sovet Allahsızlar ittifaqının başçısı Yaroslavskinin mühazirələr məcmuəsi.

45 - Kommunizm və İslamın ona qarşı mövqeyi. Humud ər-Ruheyli. 1-ci nəşr. Hicri 1424. (ərəbcə) الشيوعية وموقف الإسلام منها .

46 - Bəyan əl-İslam ensiklopediyası. Alimlərdən seçmə cavablar.

47 - Səhih əl-Buxari Fəthul-Barinin şərhi ilə.

48 – "Sovet ittifaqında din: Atam həmişə xəlvət namaz qılırdı" adlı məqalə. Elnarə Məmmədova. bbc.com saytı.

49 - XX əsrin 20-30-cu illərində Azərbaycanda "Müridiliyə" qarşı mübarizə". Şəhla Nuruzadə.

50 - Sovet ittifaqındakı müsəlmanların ziyarəti. Azərbaycan Cümhuriyyəti. Muhəmməd bin Nasir əl-Abudi. Hicri 1413-cü il .
زيارات للمسلمين في الاتّحاد السوفيتي: جمهورية أذربيجان. محمد بن ناصر العبودي.

الطبعة الأولى، 1413هـ.

51 - Dinə qarşı mübarizədə elmin rolu. Şakirzadə. Bakı. "Azərnəşr". 1959-cu il.

52 - Kommunizmə qarşı xidmətdə dinin rolu – mühazirəçilər üçün kitab. Əsədulla Qurbanov. Bakı. 1983.

53 - Rus dilində lüğət. Lupatin. 2009.

54 - Azərbaycan Kommunisti jurnalı. No: 6. Bakı. 1973;

55 - Məqalə: Azərbaycan sosialist respublikasında Sovet mədəniyyətinin formalaşdırılması və "Mədəniyyət inqilabı"nın mahiyyəti. Vahid Ömərov. Sesqazeti.az saytı.

56 - Azərbaycanda mədəniyyət inqilabı. (1920-1940). Vəkilov Mehdixan. Bakı. 2005.

57 - İzvestiya qəzeti. Az.fan. Rusiya. 1979. No: 3.

58 - Molla Nəsrəddin jurnalı. no: 1. 1931-ci il.

59 - Cümhuriyyət ordusunda "hərbi molla" vəzifəsi təsis olundu. Zaur Əliyev, dosent. canveten.az saytı.

60 - Şagirdlərdə ateist baxış və əqidənin formalaşmasında biologiya elmlərinin rolu. Novruzov. 1973.

61 - Tarix kitablarında ateizm tərbiyəsi. Mehdiyev. 1961.

62 - İslama nisbət olunan müasir firqələr və İslamın onlar haqda mövqeyinin bəyanı. Dr. Ğalib Avaci. 2-ci cild. Dərul-Asimə. 9-cu nəşr. Hicri 1432-ci il

63 - Riyaziyyatın tədrisində ateizm tərbiyəsi. Hüseyn Nəbiyev.

1983-cü il.

64 - Azərbaycan xalqının şifahi ədəbiyyatı və ateizm tərbiyəsi. 1984-cü il. Səfər Ələkbərov.

65 - Azərbaycan yazıçılarının ateizm kitabları. Nəşr edilmə tarixi və nüsxələrin sayı qeyd edilməmişdir.

66 - Azərbaycan xalqının şifahi ədəbiyyatında dini əxlaqın tənqidi. Səfər Ələkbərov və Cəlal Nuhov. Bakı. 1973.

67 - Azərbaycan adətlərində dinə qarşı mübarizə motivləri. Səfər Ələkbərov. Bakı. 1975.

68 - Leninin "Pravda" qəzetindəki məqaləsi. no: 18. İlk dəfə 1925/01/22 tarixində nəşr edilmişdir .

69 - Əxlaq və Din. Mühazirəçilər üçün yardımçı vəsait. Prokofey. 1954.

70 - Kommunizm. Muhəmməd ibn İbrahim əl-Həmd. "İbn Xuzeymə" nəşriyyatı. ər-Riyad. 1423 hicri.

71 - Ateist tərbiyəsinin əsasları. Mikayıl Məmmədov və Maqsud Cəlilov. Azərbaycan dövlət nəşriyyatı. Bakı. 1989.

72 - Gənclərin ateist tərbiyəsində komsomol təşkilatlarının vəzifələri. Abdullah Əhədov. 1959.

73 - Məktəblərdə biologiya dərslərində elmi ateizm tərbiyəsi. (Müəllimlər üçün metodiki vəsait). Fərzəlibəyli. 1961.

74 - Ateizm tərbiyəsinin məsələləri. Krupskaya. Azərnəşr. Bakı. 1965.

75 - Azərbaycan SSR-də "Təlim və tədris ədəbi". Mehdiyev.

1961/07/19.

76 - İslama nisbət olunan müasir firqələr və İslamın onlar haqda mövqeyinin bəyanı. Dr. Ğalib Avaci. 2-ci cild. Dərul-Asimə. 9-cu nəşr. Hicri 1432-ci il.

77 - Leninin "Pravda" qəzetindəki məqaləsi. no: 18. İlk dəfə 1925/01/22 tarixində nəşr edilmişdir.

78 - Gənclərin ateist tərbiyəsində komsomol təşkilatlarının vəzifələri. Abdullah Əhədov. 1959.

79 - Məktəblərdə biologiya dərslərində elmi ateizm tərbiyəsi. (Müəllimlər üçün metodiki vəsait). Fərzəlibəyli. 1961.

80 - Marksizmin Süqutu. Vahiduddin Xan. Kitab urdu dilindən ərəbcəyə çevrilmişdir. Zafrul-İslam xanın tərcüməsi. səh. 36. "Asimət" nəşr evi. 1987.

81 - 1917-1992- Atəş və buz. Qırmızı imperatorluq - Beşikdən qəbirə qədər. Bir neçə müəllifin yazısının məcmuəsi. Topladı: Hazim Sağiyə. "Hüsam" nəşr evi. Birinci nəşr. 1992.

82 - Çuxura düşmüş şər imperatorıuğu - Kommunizmin rəzalətləri. dr. Eymən Əbur-Rus. "Quran" nəşr evi. 2001. (ərəbcə)

83 - Kommunizm və ona qarşı İslamın mövqeyi. Prof. dr. Humud ibn Əhməd ər-Ruheyli. "Ulum vəl-Hikəm" Nəşr evi. 1-ci nəşr. Hicri təqvim. 1424.

# KİTABIN İÇİNDƏKİLƏR:


Ön Söz....................................................................................2
BİRİNCİ FƏSİL: Azərbaycanda Ateizmin tarixi..........................3
*Birinci Araşdırma:* Azərbaycanda ateizmin yaranması və inkişafı...........................................................................................4
Birinci Məsələ: Sovet ittifaqından əvvəl Azərbaycanda ateizm haqda......................................................................................5
İkinci Məsələ: Azərbaycanda Sovet ittifaqı dönəmində ateizmin meydana gəlməsi və möhkəmlənməsi.........................................18
Üçüncü Məsələ: Ateizm təbliğatını dəstəkləyən bəzi şəxslərin bəyanı....................................................................................27
*İkinci Araşdırma:* Ateistlər ittifaqının yaranması və Azəbaycandakı fəaliyyəti..........................................................37
*Üçüncü Araşdırma:* Ateizm şüarları və Allahsız vəsiqələri.........49
Birinci Məsələ: Ateizm şüarları..................................................49
İkinci Məsələ: Allahsız vəsiqələri...............................................55
*Dördüncü Araşdırma:* Ateizmə dəvət siyasətinin yüngülləşdirilməsi......................................................................59
İKİNCİ FƏSİL: Azərbaycanda ateistlərin təbliğat vasitələri və metodikaları............................................................................69
Birinci Araşdırma: Ateistlərin İslama qarşı müharibəsi..............70
İkinci Araşdırma: Cəmiyyətlərin, ittifaqların və muzeylərin inşası.......................................................................................80
Üçüncü Araşdırma: Təlim vasitəsilə ateizm təbliğatı...................85
Dördüncü Araşdırma: Tərbiyə vasitəsilə ateizm təbliğatı............92
Beşinci Araşdırma: Mədəniyyət və fikir yoluyla ateizm təbliğatı..................................................................................99
Altıncı Araşdırma: Kummunistlərin Azərbaycanda uğursuzluğa düçar olmalarının səbəbi........................................................105
Müəllifin Son Sözü...................................................................111
İstifadə edilmiş ədəbiyyat.........................................................112
Kitabın İçindəkilər...................................................................119

**Qeyd:** Hörmətli oxucular! Şəkk yoxdur ki, əlinizdəki kitab insan əməyinin bəhrəsidir. Ona görə də kitabda səhvlərin olması qaçınılmazdır. Xahiş edirik ki, kitab haqqında hər hansısa bir mülahizə, rəy və təkliflərinizi bu elektron ünvana göndərəsiniz: Sahibfarmanoglu@gmail.com

**Kitabın adı:** Sovet Azərbaycanında Ateizm Təbliğatı.
**Redaktədən sonrakı tarix:** 2021/09/11.
**Kitabın səhifələrinin sayı:** 120.
**Kağız ölçüsü:** B5 (JİS) 18.2 sm × 25.7 sm.
**Müəllif**: Sahib Əsədov.
**Elmi rəhbər:** dr. Əhməd Xələf.
**Ərəbcədən tərcümə:** Sahib Əsədov.
**Redaktə və korrektə:** Sahib Əsədov